# Xalq qəzeti

Xalqın qəzeti!

№ 29 (30723) 9 fevral 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


# Azərbaycan “Zəngəzur tilsimi”ni də tezliklə, qətiyyətlə qıracaq

## *Bu marşrut regionun iqtisadi inkişafına və təhlükəsizliyinə təminat verəcək*

**Vətən müharibəsində əldə edilən tarixi qələbədən sonra imzalanan 2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanatın 9-cu maddəsində bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa olunmasının zəruriliyi vurğulanır, eyni zamanda, Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşasının reallaşdırılması nəzərdə tutulurdu.**

Prezident İlham Əliyevin bu mühüm tarixi hadisədən az sonra – 2021-ci il fevralın 14-də Horadiz – Ağbənd dəmir yolu xəttinin təməlini qoyması da həmin maddənin icrasına başlanılmasının bariz ifadəsi idi. Azərbaycan, Rusiya və Ermənistanın liderləri arasında 2021-ci il yanvarın 11- də reallaşan üçtərəfli görüş zamanı da nəqliyyat-kommunikasiya sistemlərinin bərpası əsas müzakirə mövzusu kimi diqqətdə idi.

Beləliklə, həmin üçtərəfli Bəyanatla Zəngəzur dəhlizinin yaradılmasına Azərbaycan və Rusiya ilə bərabər Ermənistanın da razılıq verməsi təsadüfi deyildi. Çünki bu coğrafiyada uzun illərdən sonra nəqliyyat-kommunikasiyanın bərpası qərarı mühüm hadisə sayılmaqla və işğalçı ölkə də daxil olmaqla, bütün regional dövlətlərin maraqlarına xidmət edirdi. İnvestisiyaların cəlbi, yeni iş yerlərinin yaradılması, sənaye müəssisələrinin açılması baxımından Zəngəzur dəhlizinin açılması Ermənistana daha vacib idi. Lakin buna baxmayaraq, işğalçı sözügedən bəyanat imzalanandan



az sonra adıçəkilən kommunikasiyanın açılması ilə bağlı edilən təklifləri siyasi qısqanclıq baxımından dəyərləndirə bilmədi. Eyni zamanda, bundan Azərbaycana qarşı təsir vasitəsi kimi istifadə etməyə çalışdı. Bununla da növbəti dəfə qlobal və regional əhəmiyyətə malik layihələrdən özünü təcrid etdi.

**(ardı 5-ci səhifədə)**

# Bakının gözlədiyi addım

## *Kreml ikitərəfli münasibətləri pozmaq istəyənləri sevindirməməlidir*

**Kor-kor, gör-gördür. Kinossenarİdə olduğu kimi, məkan və zaman anlayışları, dramatik hadisənin başvermə motivi, personajların oynadığı rollar və nəhayət, kulminasiyadan keçən zəncirvari olayların finala aparan süjeti tam aydındır. Qalır rejissorun çəkilişlərə yekun vuraraq filmi kütləvi baxışa təhvil verməsi. Amma ortada montaj və səsləndirmə mərhələsi də var. Burada saxtakarlıq yolverilməzdir.**



Rusiya Qazaxıstanda yaradılmış istintaq komissiyasının Bakı–Qroznı reysi ilə uçan təyyarəmizin qəzaya uğraması ilə bağlı ilkin hesabatı açıqlandıqdan sonra da məsələyə birmənalı münasibət bildirməyə tələsmir. Bunun əvəzində qonşu dövlətin həm hökumətyönlü, həm də “müstəqil” media qurumlarında anti–Azərbaycan təbliğatının gücləndiyini müşahidə edirik. Bu seqmentdə Bakıdakı “Rus evi”nin qapadılması ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinin notası Rusiyanın qeyri-hökumət və elektron KİV sektorunda “qızdırmalı” reaksiyalara səbəb olub. Bir mərkəzdən idarə olunduğu şübhə doğurmayan piar şəbəkə ölkəmizə qarşı həqiqətdən uzaq, şər və böhtan dolu informasiya hücumuna start verib.

**(ardı 4-cü səhifədə)**

# “Qara əməllər”in sahibi USAID tarixə qovuşur

**ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) qanundankənar əməllərini sadalamaqla bitməz. Artıq mətbuatda da bu barədə xeyli məlumatlar dərc olunur. Agentliyin qara əməllərini araşdıran ABŞ-ın yeni hökuməti USAID-in əməkdaşlarını da ixtisar edir. İxtisarlar bütün dünya üzrə USAID işçilərinin 97 faizinə təsir edəcək: 10 min nəfərdən 294-ü öz vəzifələrini qoruyacaq. Fevralın 7-dən agentlik işçilərinin əksəriyyətini inzibati məzuniyyətə göndərib və baş ofisi bağlanıb.**

Agentliyin korrupsiya bataqlığında boğulması faktı çoxdan məlum idi. Bunu ən yüksək səviyyədə Prezident Donald Tramp etiraf etdi. Ağ evin yeni sahibi USAID-i həddən artıq korrupsiyalaşmış təşkilat adlandırıb. O, bu barədə Ağ evdə jurnalistlərə bildirib: “Mən bilmək istərdim ki, orada necə “otkatlar” olub. Kim bu qədər pul xərcləyərdi. Orada saxtakarlıq var, bu, dəhşətlidir. Heç bir pula layiq olmayan hər cür qruplara yüz milyonlarla dollar xərclənib”. Dövlət başçısı vurğulayıb ki, bu pulu alan insanlar Amerika hökumətindən olan şəxslərə “otkat” verə bilərdilər. Cənab Tramp əlavə edib ki, o, heç vaxt belə bir şey görməyib və mümkün qədər tez məsələ ilə bağlı araşdırmaya başlamaq istəyir. ABŞ prezidentinin sözlərindən sonra USAID üzərində nəzarət gücləndirildi. Məlum oldu ki, Donald Trampın ölkənin maraqları ilə bağlı öz fikirləri var və açıq şəkildə “yumşaq güc” tərəfdarı deyil. Hətta ilk prezidentlik kampaniyası zamanı o, ABŞ-ın “bizə nifrət edən ölkələrə yardım göndərməyi” dayandırmalı və bunun əvəzinə öz ölkəsinə sərmayə qoymalı olduğunu söyləmişdi.

**(ardı 4-cü səhifədə)**

# Qaysaq tutmayan 2 əsrlik yara

## *Fevralın 10-u Türkmənçay müqaviləsinin bağlandığı gündür*



**Elektron resurslardakı “Tarixdə bu gün” rubrikası altında toplanan materiallar arasında Azərbaycan Respublikası Dövlət Tarix Arxivinin mərhum direktoru Anar Məmmədovun yeddi il əvvəl qələmə aldığı “Gülüstan və Türkmənçay müqavilələrinin acı nəticələri” adlı tədqiqat materialına rast gəldim. Daha doğrusu, həmin yazının sonuncu abzası daha çox diqqətimi çəkdi.**

**(ardı 5-ci səhifədə)**

# Milli iqtisadiyyat 2025-ci ildə 4 faiz də böyüyəcək



Səhifə ⇨ 7

# Qarabağın bərəkət ünvanı



Səhifə ⇨ 11

# Trampa məktub

## *Yaxud I Aramın həyasızlığı*



**Deməli, baş nazir Nikol Paşinyan İsveçrəyə getdi, erməni diasporu qarşısında çıxış edərək qondarma “soyqırımı” şübhələndirdi. Ardınca erməni katolikosu II Qaregin də İsveçrəyə yollandı ki, Nikolun yumşaq desək, “səhvini” düzəltsin. Sonra Paşinyan ABŞ-a üz tutdu və ölkədə yerli erməni icması qarşısında danışdı və yenə, faktiki olaraq, “soyqırımının” nağıl olduğunu dilə gətirdi. İndi Böyük Kilikiya evinin katolikosu I Aram “işə düşüb” ki, Nikolun Birləşmiş Ştatlarda demədikləri barədə söz açsın. Özü də Prezident Donald Trampa. Əlbəttə, I Aramın ABŞ-ın dövlət başçısına məktubuna əsas yaratmış bir səbəb də var ki, onu yazımızın sonunda diqqətə çatdıracağıq.**

Əvvəla, qeyd edək ki, Ermənistanda hakimiyyətlə kilsə arasında ziddiyyətlər var. Bu ziddiyyətlər, hətta bəzən o səviyyəyə qalxıb ki, Paşinyan tərəfdarları II Qaregini və onun “şaykasını” ən pis söyüşlərə, əndazəsiz təhqirlərə “qonaq ediblər”. Son vaxtlar mövcud tendensiyada bir qədər yumşalma hiss olunsa da, Nikolun İsveçrəyə və ABŞ-a səfərlərindən sonra erməniliyi simvolizə edən din xadimlərinin “aktivləşmələri” onu göstərir ki, Ermənistanda kilsə ilə iqtidarın tamam fərqli “gündəliyi” var. “Gündəliyə” gəldikdə isə bu, I Aramın Trampa ünvanladığı məktubdan da aşkar görünür.

Beləliklə, I Aram naməsində Trampı Azərbaycanda məhbus həyatı keçirən, hazırda məhkəməsi gedən ermənilərin, o cümlədən Qarabağdakı keçmiş separatçı rejimin rəhbərləri olmuş şəxslərin dərhal azadlığa çıxmaları, ümumən, “erməni girovlarının azad edilmələri” və bölgə ermənilərinin “vətənlərinə qayıtmaları hüququnun” təminatı üçün təkidli davranmağa çağırıb. Bir sözlə, o, yetərincə sərsəmləyib. Görəsən, I Aram bu qədər gerizəkalıdır ki, Birləşmiş Ştatlar Prezidentinin sadalanan məsələləri reallaşdırmaq imkanında olmadığını bilməsin? Bəlkə də, elədir. Hər halda, bu din xadimi də pataloji erməni xəstəliyindən əziyyət çəkənlərdəndir. Ancaq hesab edirik ki, burada başqa məqsədlər var. I Aram daha çox hazırda erməni avantürizminin təzahür formaları olan məsələlərin gündəmdən düşməməsinə çalışır. Axı Paşinyan İsveçrədə və ABŞ-da olarkən onlar barədə söz açmamışdı.

**(ardı 3-cü səhifədə)**

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 19** **Bakı şəhəri, 1 fevral 2025-ci il**

**"Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1196-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Yol hərəkəti haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1196-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 39 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 195 (Cild I); 2024, № 2, maddə 210, № 9, maddə 1090) ilə təsdiq edilmiş "Mexaniki nəqliyyat vasitələrinin və onların qoşqularının müəyyən edilmiş qaydada dövlət qeydiyyatından keçirilməsi və dövlət qeydiyyatı üzrə uçota alınması haqqında Əsasnamə"nin 2.1-ci bəndinin birinci cümləsinə "velosipedi" sözündən sonra ", kiçik elektrik nəqliyyat vasitəsini" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1999-cu il 15 mart tarixli 41 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, № 3, maddə 197 (Cild I); 2024, № 1, maddə 111, № 3, maddə 328, № 9, maddə 1090) ilə təsdiq edilmiş "Nəqliyyat vasitəsini idarə etmək hüququ verən sürücülük vəsiqəsi almaq istəyən şəxslərdən imtahanların qəbul edilməsi və onlara sürücülük vəsiqəsinin verilməsi qaydaları haqqında Əsasnamə"nin 1.5-ci bəndinin 1-ci yarımbəndinə "velosipedi" sözündən sonra ", kiçik elektrik nəqliyyat vasitəsini" sözləri əlavə edilsin.

**3.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2000-ci il 7 fevral tarixli 16 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 2, maddə 115 (Cild I) ilə təsdiq edilmiş "Avtomobil yollarının qəbul edilməsi zamanı müayinənin, yoxlamanın və sınağın keçirilməsi Qaydaları"nın 3.13-cü bəndində "parklanma yerləri" sözləri "parklanma məntəqələri (yerləri)" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 30 sentyabr tarixli 317 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 10, maddə 1288 (Cild I) ilə təsdiq edilmiş "Avtomobil yollarının təhkim zolağının ölçüləri"nin 1.2-ci bəndində "parklanma yerləri" sözləri "parklanma məntəqələri (yerləri)" sözləri ilə əvəz edilsin.

**5.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 12 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 1, maddə 57 (Cild I); 2024, № 2, maddə 229, № 4, maddə 440) ilə təsdiq edilmiş "Müfəssəl planların hazırlanması, razılaşdırılması və təsdiq olunması qaydaları, habelə həmin planların razılaşdırıldığı orqanların Siyahısı"nın 3.3.2.4.3-cü yarımbəndində "parklanma yerləri" sözləri "parklanma məntəqələri (yerləri)" sözləri ilə əvəz edilsin.

**6.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 22 aprel tarixli 187 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 4, maddə 778 (Cild I); 2024, № 5 (II kitab), maddə 611) ilə təsdiq edilmiş "Fərdi parklanma talonlarının forması, habelə onların verilməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

6.1. 1.2-ci bənddə "Bakı Nəqliyyat Agentliyi (Bakı şəhərinin inzibati ərazisində)" sözləri "Bakı şəhərinin inzibati ərazisində Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi (bundan sonra – Agentlik)" sözləri ilə əvəz edilsin;

6.2. 1.3.2-ci yarımbənddə "pulsuz parklanma yerinin ayrılması" sözləri "parklanma məntəqələrində ödənişsiz parklanma" sözləri ilə əvəz edilsin;

6.3. 2.1-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.1. Parklanma yerləri təşkil edildiyi avtomobil yollarının kənarlarında yerləşən evlərdə və ya binalarda yaşayış yeri üzrə qeydiyyatda olan minik avtomobillərinin istifadəçilərinə onların müraciətinə əsasən yerli icra hakimiyyəti orqanları (bu Qaydanın 1 nömrəli əlavəsinin 2-ci hissəsində göstərilən formaya uyğun), Bakı şəhərinin inzibati ərazisində isə Agentlik (bu Qaydanın 1 nömrəli əlavəsinin 1-ci hissəsində göstərilən formaya uyğun) tərəfindən nəqliyyat vasitəsinin istifadəçisi, markası, dövlət qeydiyyat nişanı, parklanma məntəqələri və etibarlılıq müddəti göstərilməklə elektron qaydada fərdi parklanma talonu verilir. Fərdi parklanma talonu həmin parklanma məntəqələrində ödənişsiz parklanma hüququ verir.";

6.4. 2.3-cü bəndə "orqanına" sözündən sonra ", Bakı şəhərinin inzibati ərazisində isə Agentliyə" sözləri əlavə edilsin;

6.5. 2.5-ci bəndin ikinci cümləsinə "orqanı" sözündən sonra "və ya Agentlik" sözləri əlavə edilsin və "Bakı Nəqliyyat Agentliyinin informasiya sistemində" sözləri ", Bakı şəhərinin inzibati ərazisində isə Agentliyin "AYNA" informasiya sistemində" sözləri ilə əvəz edilsin;

6.6. 2.9-cu bənd aşağıdakı redaksiyada verilsin:

"2.9. Müraciətə yerli icra hakimiyyəti orqanı, Bakı şəhərinin inzibati ərazisində isə Agentlik tərəfindən baxılıb razılıq verildikdən sonra 2 (iki) iş günü müddətində müraciət etmiş şəxsə elektron qaydada fərdi parklanma talonu verilir. Fərdi parklanma talonunun verilməsindən imtina edildikdə, imtinanın səbəbləri barədə ərizəçiyə 2 (iki) iş günü müddətində sifarişli poçt göndərişi vasitəsilə, elektron müraciət etdikdə isə onun elektron poçtuna dərhal məlumat göndərilir.";

6.7. 2.11-ci və 2.20-ci bəndlər ləğv edilsin;

6.8. 2.12.2-ci yarımbəndə "yaşayış yeri" sözlərindən sonra "üzrə qeydiyyatda olduğu ünvan" sözləri əlavə edilsin;

6.9. 2.17-ci bənd aşağıdakı redaksiyada verilsin:

"2.17. Bir şəxsə yalnız bir fərdi parklanma talonu verilir. Bir nəqliyyat vasitəsi yalnız bir istifadəçisinin fərdi parklanma talonunda göstərilə bilər. Fərdi parklanma talonuna dair məlumatlar yerli icra hakimiyyəti orqanları (Bakı şəhərinin inzibati ərazisi istisna olmaqla) tərəfindən Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsinin mərkəzi informasiya sisteminə ötürülür.";

6.10. 2.18-ci bənddə "ərazisində müəyyən olunmuş yerlərdə" sözləri "məntəqələrində" sözü ilə əvəz edilsin;

6.11. 2.19-cu bənddə "ayrılmış parklanma yerlərində" sözləri "ödənişsiz parklanma hüququ verilmiş parklanma məntəqələrində" sözləri ilə əvəz edilsin;

6.12. həmin Qaydaya 1 nömrəli əlavə üzrə:

6.12.1. 1-ci hissə aşağıdakı redaksiyada verilsin:

**1. Bakı şəhərinin inzibati ərazisində tətbiq edilən fərdi parklanma talonunun forması**


Fərdi parklanma talonu № __
AYNA
Fərdi parklanma talonunu verən orqan ____________
Parklanma məntəqələri ____________
Nəqliyyat vasitəsinin markası ____________
Dövlət qeydiyyat nişanı ____________
Nəqliyyat vasitəsinin istifadəçisi ____________
Fərdi parklanma talonunun verilmə tarixi ____________
Fərdi parklanma talonunun etibarlılıq müddəti ____________
Tam və dəqiq məlumatın əldə olunması üçün: QR kod

6.12.2. 2-ci hissədə "Parklanma ərazisi / koordinatları" sözləri "Parklanma məntəqələri" sözləri ilə əvəz edilsin;

6.13. həmin Qaydaya 2 nömrəli əlavə üzrə:

6.13.1. "Rayon (şəhər) İcra Hakimiyyətinə" sözlərindən sonra "(və ya Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində olan Azərbaycan Yerüstü Nəqliyyat Agentliyinə)" sözləri əlavə edilsin;

6.13.2. "Ərizənin" mətnində "saxlamağım üçün ödənişsiz əsaslarla mənə parklanma yerinin ayrılmasına və" sözləri "parklanma məntəqələrində ödənişsiz saxlamaq üçün mənə" sözləri ilə əvəz edilsin.

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 22 yanvar tarixli 25 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 1, maddə 76 (Cild I) ilə təsdiq edilmiş "Şəhərdaxili hərəkət (mobillik) planının hazırlanması Qaydası"nın 4.1.7-ci və 5.2.2-ci yarımbəndlərində ismin müvafiq hallarında "parklanma yerləri" sözləri ismin müvafiq hallarında "parklanma məntəqələri (yerləri)" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Heydər Əliyev Fondu nüfuzlu beynəlxalq mükafata layiq görülüb

**Təhsil və sosial müdafiə sahəsində irimiqyaslı layihələri ilə tanınan Heydər Əliyev Fondu İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatı (ICESCO) və Həmdan bin Rəşid Al Məktum Fondunun 4-cü birgə "Həmdan-ICESCO" mükafatının qalibləri sırasında yer alır.**

Mükafat İslam dünyası ölkələrində tədris müəssisələrinin inkişafına və təhsil mühitinin dəstəklənməsi təşəbbüslərinə töhfələrə görə təqdim edilir.

Bu il yeddi ölkədən doqquz təhsil təşəbbüsü birincilik uğrunda mübarizə aparıb.

Heydər Əliyev Fondu təkcə İslam dövlətlərində deyil, müsəlman dünyasından kənarda da məktəblərin tikintisi və bərpasını həyata keçirən "Təhsil və sosial müdafiə layihəsi"nə görə mükafata layiq görülüb.

HEYDƏR ƏLİYEV FONDU

# Qəbələdə "Qış nağılı" davam edir



**Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin, Bakı Musiqi Akademiyasının və "Gilan"ın dəstəyi ilə Qəbələdə "Qış nağılı" Beynəlxalq Musiqi Festivalının təntənəli açılış mərasimi olub.**

Bakı Musiqi Akademiyasının rektoru, Xalq artisti, festivalın bədii rəhbəri Fərhad Bədəlbəyli çıxış edərək, ilk dəfə təşkil edilən Qəbələ "Qış nağılı" Beynəlxalq Musiqi Festivalının mədəniyyətimiz üçün əlamətdar hadisə olduğunu qeyd edib, festivala uğurlar arzulayıb.

Mədəniyyət nazirinin müavini Səadət Yusifova musiqisevərləri əlamətdar gün münasibətilə təbrik edərək deyib: " 2009-cu ildən ənənəvi olaraq keçirilən Qəbələ Beynəlxalq Musiqi Festivalı hər il dünyanın müxtəlif yerlərindən istedadlı musiqiçiləri bir məkanda birləşdirir və tamaşaçılara yüksək zövqlü və peşəkar ifalar bəxş edir. Festival bu il mövsümü dəyişərək tamaşaçılara "Qış nağılı" əhvali-ruhiyyəsi yaşadacaq. Bu il Azərbaycan professional musiqisinin banisi dahi bəstəkar Üzeyir Hacıbəylinin 140 illiyidir. Ölkəmizdə il ərzində həyata keçiriləcək musiqi layihələri Üzeyir bəyin yaratdığı irsə olan ehtiramımızı ifadə edəcək".

Rəsmi hissədən sonra musiqisevərlərə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestrinin iştirakı ilə "Viva opera" adlı konsert proqramı təqdim olunub. Əməkdar artist Fuad İbrahimovun dirijorluğu ilə keçən konsertin əvvəlində Üzeyir Hacıbəylinin "Koroğlu" operasından "Uvertüra" səsləndirilib. Konsertdə P.Maskanyi, C.Verdi, C.Puççini, U.Cordano, R.Leonkavallo, A.Ponkyelli, A.Katalaninin operalarından ariyalar ifa olunub. Solistlər Vanessa Qoykoeçea Aqorriya (soprano, İspaniya), Sercio Vitale (bariton, İtaliya) və Yusif Eyvazovun (tenor, Azərbaycan) ifaları musiqisevərlər tərəfindən alqışlarla qarşılanıb.

Festivalda klassik musiqi ilə yanaşı, vokal və kamera musiqisi axşamları da təşkil olunacaq.

***XQ***

# Beynəlxalq Türk Akademiyası ilə əməkdaşlıq genişlənir



**Mədəniyyət naziri Adil Kərimli Astanaya səfəri çərçivəsində Beynəlxalq Türk Akademiyasının qərargahında olub və qurumun prezidenti akademik Şahin Mustafayevlə görüşüb.**

Görüşdə Türk Mədəniyyəti və İrsi Fondunun II Şura toplantısı ilə əlaqədar Astanada səfərdə olan Türk Dövlətləri Təşkilatının Baş katibi Kubanıçbek Ömüralıyev, Qırğız Respublikası mədəniyyət, informasiya, idman və gənclər siyasəti nazirinin müavini Gülbara Abdıkalıkova və digər türk respublikalarından nümayəndə heyətləri iştirak ediblər.

Söhbət zamanı Şahin Mustafayev BTA-nın əsas fəaliyyət istiqamətləri və hazırkı layihələri barədə məlumat verib.

Adil Kərimli isə BTA-nın Türk dünyasının inkişafına xidmət edən əhəmiyyətli layihələrini, o cümlədən türk mədəniyyəti, irsi və tarixi ilə bağlı həyata keçirdiyi tədqiqatları yüksək qiymətləndirib. O, 2023-cü il oktyabrın 13-də Şuşada keçirilən və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş I Türk Dünyası Mədəniyyət Forumunda BTA-nın "Türk dünyasının ortaq kökləri və tarixi-mədəni irsi" mövzusunda panel iclasının təşkilinə dəstək verdiyini vurğulayıb. Nazir, həmçinin bu il Özbəkistanda keçirilməsi planlaşdırılan II Türk Dünyası Mədəniyyət Forumunun təşkilində BTA ilə yanaşı, digər türk əməkdaşlıq təşkilatlarını da fəal iştiraka dəvət edib.

***XQ***

# Dördtərəfli "yaşıl" enerji əməkdaşlığı



**İstanbulda Azərbaycan-Gürcüstan-Türkiyə-Bolqarıstan Yaşıl Enerji Dəhlizi layihəsinin müzakirəsinə dair bu ölkələrin nazir müavinlərinin 3-cü iclası keçirilib. Ölkəmizi energetika nazirinin müavini Orxan Zeynalovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.**

Orxan Zeynalov çıxışında Azərbaycanın enerji keçidi sahəsində mövcud strategiyası, bərpaolunan enerji potensialı və "yaşıl" enerjinin ixracı istiqamətində atılan addımlar barədə məlumat verib. Azərbaycanda "yaşıl" enerji zonalarının yaradılması və Xəzər dənizində külək enerjisi potensialının reallaşdırılması istiqamətində həyata keçirilən layihələrdən, həmçinin ölkəmizi Avropa ilə birləşdirəcək yaşıl enerji dəhlizlərindən danışılıb.

İclasda dörd ölkə arasında elektrik enerjisi mübadiləsinin genişləndirilməsi imkanlarına və layihə üzrə müqavilə-hüquq bazasının formalaşdırılması məqsədilə "yaşıl" enerjinin ötürülməsi sahəsində əməkdaşlığa dair hazırlanmış Anlaşma Memorandumunun layihəsi müzakirə edilib və sənədin mətni razılaşdırılıb.

***XQ***

# Aerokosmik və Rəqəmsal İnnovasiyalar Forumu



**Fevralın 8-də "Azərkosmos"un Kosmik Akademiyasında Beynəlxalq Aerokosmik və Rəqəmsal İnnovasiyalar Forumu keçirilib. Azərbaycan Kosmik Agentliyinin, "Nargis" Fondunun və Britaniyanın Azərbaycandakı səfirliyinin dəstəyi və "Uşaqlarımıza öyrədək" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən forumda orta məktəblərin yuxarı sinif şagirdləri iştirak ediblər.**

Forumun keçirilməsində əsas məqsəd gənclərə müxtəlif mövzularda, əsasən təbiət və dayanıqlılıqla bağlı fikirlərini sərbəst ifadə etmək, innovativ layihələrini və yaradıcı ideyalarını nümayiş etdirmək üçün platforma yaratmaqdır.

# Mərkəzi Seçki Komissiyasında



**Məzahir Pənahovun sədrliyi ilə fevralın 8-də Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

Əvvəlcə komissiyanın 2025-ci il 6 fevral tarixli iclasının protokolu təsdiq edilib.

Sonra 2025-ci il yanvarın 29-da keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar Mərkəzi Seçki Komissiyasına daxil olmuş müraciətlərə baxılıb. Seçki qanunvericiliyi ilə müəyyənləşdirilmiş müddətdə və qaydada iclasa çıxarılan müraciətlər maraqlı subyektlərin və media nümayəndələrinin iştirakı ilə Komissiya üzvləri tərəfindən geniş müzakirə edilib. Ardınca vətəndaşların seçki hüquqlarının daha səmərəli təmin olunması üçün şəffaf, hərtərəfli və obyektiv araşdırılan müraciətlərlə bağlı müvafiq qərarlar qəbul edilib.

Mərkəzi Seçki Komissiyasının iclasında, həmçinin cari məsələlərə baxılıb.

***XQ***

# Naxçıvanda hərbi sursat aşkar edilib

**Polis əməkdaşları tərəfindən Kəngərli rayonu, Yeni Kərki kəndi ərazisində hərbi sursat aşkar edilib.**

Məlumatla əlaqədar dərhal Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin pirotexnikləri hadisə yerinə cəlb edilib. Hüquq-mühafizə orqanı əməkdaşları ilə birgə ərazidə müvafiq təhlükəsizlik tədbirləri görüldükdən sonra hadisə yerinə baxış zamanı aşkar edilmiş sursatlarının 1 ədəd 120 mm-lik, 1 ədəd 75 mm-lik top mərmisi və 2 ədəd 30 mm-lik AQS mərmisi olduğu müəyyən edilib.

Sursatlar pirotexniklər tərəfindən zərərsizləşdirilməsi üçün ərazidən götürülərək kənarlaşdırılıb.

***XQ***



# Hacıqabulda zəlzələ

**Fevralın 8-də Hacıqabul rayonunda zəlzələ baş verib.**

Bu barədə AMEA-nın Respublika Seysmoloji Xidmət Mərkəzindən məlumat verilib. Qeyd edilib ki, 3,1 bal gücündə olan zəlzələ yerli vaxtla saat 18:31-də Şirvan stansiyasından 20 kilometr şimalda, Hacıqabul rayonunda qeydə alınıb. Zəlzələ ocağının dərinliyi 38 kilometr olub.

Zəlzələ hiss olunmayıb.

# USAID: demokratiya və hüququn əks tərəfində



III MƏQALƏ

## "Zəif demokratiya" modeli

Demokratiyanı güclü və zəif kateqoriyalarına bölməyin nəzəri əsası vardır. Hansısa bir dövlətdə demokratik həyat tərzi, sosial münasibətlər və hüquqi təminat klassiklərin müəyyən etdiyi demokratik prinsiplərə daha çox uyğun olarsa, onu şərti olaraq "güclü demokratiya" kimi adlandırmaq olar. Ancaq burada baza prinsip cəmiyyətdə vurğulanan demokratikliyin, həqiqi mənada, toplumun maraqları kontekstində mövcud olmasından ibarətdir. C. Lokk və İ.Kantın anlamında bu şərt ödənməsə, gerçək demokratiyadan danışmaq absurddur.

Buna oxşar məntiqlə təsəvvür edə bilərik ki, "zəif demokratiya" reallıqda demokratik tələblərin dövrün tələbləri səviyyətində ödənməməsi ilə bağlı ola bilər. Bu da yalnız demokratiyanı inkişaf etdirməkdə səmimi niyyət və planların olması şərti ilə nəzəri və praktiki anlama çevrilə bilər. Bundan kənarda demokratiyanın zəifliyi termini müxtəlif siyasi və ideoloji spekulyasiyaların "dəyirmanına su tökmək rolu"nu oynayacaq.

Bizim USAID anlamında "zəif demokratiya" ifadəsinin ehtiva etdiyi "zəif"liklə "demokratikliyin" sintezinə olan geniş yanaşma cəhdimiz bununla bağlıdır. Yəni USAID problemi, əslində, göründüyündən daha dərin qatlarda gedən qlobal proseslərlə sıx bağlıdır.

Bu mənada "yeraltı suların" yaratdığı fəsadların mahiyyətini anlamadan USAID məsələsi haqqında səthi təsəvvürlərə malik olacağıq. Həmin rakursda da D.Tramp və İ.Maskın hansı dəyərlər və siyasi kriteriyalar uğrunda bu cür savaşa girdiklərinin mahiyyətini aydınlaşdırmaq mümkün ola bilər. Bir qədər də konkretləşdirmək üçün qəribə də olsa, baxış bucağını genişləndirməliyik. Onu vurğulayaq ki, qəzet formatına uyğun olaraq problemin fəlsəfi, sosioloji, kulturoloji və siyasi-nəzəri ümumiləşdirmələrindən çox praktiki faktorlara diqqət etməliyyik.

## Uilyam Robinson yazır ki…

Uilyam Robinson maraqlı tədqiqatçıdır. O, ABŞ-ın Tenessi ştatının universitetində çalışır. Qlobal kapitalizmi araşdırır. Qloballaşma haqqında maraqlı fəlsəfi və politoloji fikirləri mövcuddur. Tezislərindən biri ondan ibarətdir ki, XXI əsrdə dünyanın sosial, siyasi, iqtisadi və mədəni-ideoloji proseslərinin hərəkətverici qüvvəsinin "fundamental strukturu" qloballaşmadır.

U.Robinson, məsələn, F.Fukuyama səviyyəsində məşhur olmasa da, çox ciddi tədqiqatlar aparır. Yuxarıda qloballaşma ilə bağlı ümumi tezisi çərçivəsində konkret olaraq USAID-in fəaliyyətini xarakterizə edən çox maraqlı və düşündürücü tezisi vardır. U.Robinson yazır ki, ABŞ-ın USAID kimi institutları həqiqi demokratiyanı yaymır, onun dünyada inkişafı ilə məşğul olmur. USAID reallıqda poliarxiyanın xüsusi növü olan "zəif demokratiya" modelini təşviq və tətbiq edir. Elə bir model ki, tətbiq olunduğu ölkədə sosial nəzarətin kənardan həyata keçirilməsinə geniş imkanlar yaradır.

Deməli, əslində, USAID aysberqin yalnız görünən, ictimaiyyətin görə bildiyi qədər təqdim olunan hissəsidir. Bu mənada, o, bir ilğım, maska, rəmzdir. Əsas məsələ bu ilğımı yaradan güclü, iqtisadi və siyasi dairələrdir. Bununla U.Robinson nəyə işarə edir?

## Oliqopolistik birliklər

Bu, XXI əsrdə transmilli şirkətlərin münasibətlərinə aid olan yeni termindir. Özlüyündə "oliqopoliya" (yunanca "azsaylı" və "ticarət edirəm" sözlərindən yaranmışdır) iqtisadiyyatda məhdud sayda şirkətin hökmranlığını ifadə edir. Yəni bir tərəfdən bazarda dominantlığı ancaq çox məhdud sayda şirkət edir, digər tərəfdən "natamam rəqabət" mühiti yaradırlar ki, istənilən an onu yeniləşdirə bilsinlər, yəni özlərinə sərf edən şərtləri "qanuniləşdirsinlər".

"Oliqopolistik birliklər" isə artıq qloballaşma şəraitində hökmranlığın daha geniş miqyasda və çox az sayda şirkətlər tərəfindən təmin edilməsini ifadə edir. Yəni onlar ikidən çox olmamalıdır. Bu vəziyyətə "duopoliya" deyirlər, yəni bir-biri ilə monopolistik münasibətlərdə olmayan iki nəhəng güc dünya bazarına nəzarət edir. Məsələn, sərnişin təyyarələri istehsalında "Boeinq" və "Airbus" duopoliya yarada bilərlər və s.

Lakin "oliqopolistik birlik" özündə bir vacib məqamı ehtiva edir – lider olan iki gücün arxasında çox sayda transmilli şirkətlər dayana bilər. "Birlik" termini buna işarədir. Bununla aydın olur ki, "oliqopolistik birliklər" özlərində həm dominantlıq və həm də yeraltı ciddi, amansız rəqabət özəlliklərini daşıyırlar. İndi USAID bu rəqabətin tən ortasındadır. Oradan D.Tramp və İ.Mask duopoliyası necə görünür?

## Tramp – Mask duopoliyası və USAID

Belə görünür ki, D.Tramp və İ.Mask hansısa transmilli oliqopolik gücə qarşı ciddi savaş açmışlar. Onlar (Tramp-Mask duopoliyası) rəqiblərinə qarşı hərəkətə keçmişlər. Bunun üçün hər ikisi əllərində olan bütün vasitələrdən istifadə edirlər. Bu vasitələr siyasi, diplomatik, iqtisadi, maliyyə, informasiya, ən yeni texnologiyalar və s. kimi faktorları əhatə edir. Onda belə çıxır ki, USAID məsələsi, sadəcə, bir şirkətin yanlışlıqlarını düzəltmək olayı deyildir – onun Qərb dövlətçilik və demokratiya ənənəsinin ən dərin qatlarındakı xüsusiyyətlərlə sıx bağlılığı vardır.

Eyni zamanda, müşahidələr göstərir ki, Tramp-Mask duopoliyası məzmunca qeyri-kooperativ strategiyaya aiddir. Bunun səbəbi İ.Maskın dünyada ən çox kapitala sahib olması və D.Trampın da çox zəngin olması ola bilər. Onlar rəqib istəmirlər. İndi dünya bazarında D.Tramp "fırtınası"nın əsməsi həmin tendensiyanı ifadə edir. Bu baxımdan USAID əməlli-başlı "ilişmişdir"!

Bu, politoloji-nəzəri düşüncələri hələlik bir kənara qoyaq. Real qlobal mənzərəyə baxaq.

## USAID və transmilli qlobal maliyyə

U.Robinson yazır ki, 1990-cı illərin sonlarında qlobal maliyyə bazarlarında hər gün 25 trilyon dollar (!) həcmində pul kütləsi dövriyyədə olmuşdur. Ən iri maliyyə bazalarında gündəlik dövriyyə isə 1 trilyon dolları keçmişdir. Həmin mərhələdə dünya ticarətinin gündəlik dövriyyəsi isə "vur-tut" 10 milyard dollar olmuşdur. Bununla sərmayə kapitalı deyil, pul kapitalı qlobal istehsal şəbəkəsinin requlyatoru halına gəlmişdir. Bir faktı da vurğulayaq. Qlobal transmilli şirkətlərin sayı və iqtisadi təsir potensialı 1970-2000-ci illər arasında 7 mindən 60 minə yüksəlmişdir ki, bu da dünya ticarətinin üçdəikisinə nəzarət etmək deməkdir! 1996-cı ildə transmilli kapitalizmin dünya üzrə ÜDM-ə nəzarəti artıq 33 faiz təşkil edirdi! Bu göstərici 1960-cı illərin ortalarında cəmi 17 faiz idi (USAID-in yaradıldığı dönəmlərdə).

Maraqlısı odur ki, bu proseslər yalnız və heç də iqtisadi-maliyyə sferasında ciddi struktur və funksional dəyişiklikləri stimullaşdırmamışdır. Uyğun olaraq, geniş siyasi, diplomatik, idarəetmə və ideoloji platformalar formalaşmışdır.

## Yeni qlobal kapitalist bloku

Nə qədər qəribə də olsa, bu proses gedir. XXI əsrdə onun çox ciddi daxili nizam-intizama, struktur və funksional özəlliklərə malik təşkilatanması həyata keçir. Buraya siyasi güc mərkəzləri, dövlət təşkilatları, beynəlxalq qurumlar (məsələn, Ümumdünya Bankı, Ümumdünya Ticarət Təşkilatı, Beynəlxalq Valyuta Fondu və s.), müxtəlif təsir gücünə malik fondlar və s. daxildir. Nəticədə dünya üzrə milli dövlətçiliklə qlobal idarəetmə arasında müxtəlif istiqamətlərdə ciddi ziddiyyətlər meydana gəlmişdir. Onların tənzimlənməsi cəhdləri, təəssüf ki, müxtəlif regionlarda böyük ziddiyyətlər, hərbi toqquşmalar və münaqişələrlə müşayiət olunmaqdadır. USAID öz böyük maliyyə imkanları və siyasi təsir gücü ilə bu kimi proseslərin mərkəzindədir.

Bu faktlar fonunda USAID-in "zəif demokratiya" modelində kənar sosial nəzarət faktorunun yeri və rolunu aydınlaşdırmaq çətin deyildir.

## "Zəif demokratiya"nın əlamətləri

Yuxarıda qoyulan suala nəzəri izahların fonunda yenidən baxsaq, "zəif demokratiya" termininin dərin qatlarda anlamlarının var olduğu nəticəsini çıxara bilərik. Yəni bu, hansısa bir təşkilatın "ixtirası" deyildir – daha geniş miqyasda gedən proseslərlə əlaqəsi mövcuddur. Belə görünür ki, demokratiyanın zəifliyi dedikdə hər hansı ölkədə qanunların aliliyinin natamam olması, onun tam reallaşmaması, dövlətin "hüquqi onurğası"nın kövrək olması nəzərdə tutulur. Qanun həmin ölkədə o dərəcədə zəif olmalıdır ki, sifarişçilər istədikləri zaman onu öz maraqları naminə manipulyasiya edə bilsinlər. Eyni zamanda, o dərəcədə güclü inklüziv olmalıdır ki, siyasi, iqtisadi, hüquqi, sosial, mədəni anlamlarda yerini alternativ qanunlar tuta bilməsin.

Bu, xeyli dərəcədə "zəif demokratiya"nın cəmiyyətlərdə iti bıçaq üzərində hərəkət etməli olduğunu göstərir. Burada çevik və təsirli davranmaq lazım gəlir. Eyni zamanda, anında kənardan informasiya, təbliğat, siyasi, seçki, ideoloji və s. təsirləri göstərmək imkanını hazır saxlamağı nəzərdə tutur. Onu elmi olaraq "sosial nəzarət" adlandırmaq olar. Deməli, reallıqda USAID-in sosial nəzarəti təmsil etdiyi nəhəng transmilli güclərin maraqlarını hər bir kritik dönəmlərdə konkret ölkədə təmin etməkdən ibarət olmuşdur. Afrikada və Yaxın Şərqdə bu ssenarilərin çoxlu sayda nümunəsini göz önünə gətirmək olar.

Sözdə mədəni görünən bu nəzarətin praktiki tətbiqi milyonlarla insanın göz yaşı, kasıbların daha da kasıblaşması və ölkədə üsyanların, qan tökülməsinin, siyasi mübarizədə amansız olmanın, cəmiyyətdə mənəviyyatsız və əxlaqsız davranışları kimlərinsə dəstəkləməsinin və digər neqativ halların olması deməkdir. Burada hibrid və posthibrid savaşın priyomlarını, sərt hərbi müdaxiləni, incə informasiya müharibəsinin elementlərini, süni intellektin tətbiqini və başqa məqamalrı görə bilərik.

Beləliklə, USAID dünya miqyasında özünü göstərən ən yeni tendensiyaların daxili məntiqi ilə bağlı olan dinamik fenomendir. Azərbaycan kontekstində problemin bu aspekti olduqca əhəmiyyətlidir.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

Replika

# Trampa məktub



(əvvəli 1-ci səhifədə)

Əslində, I Aram vaxtilə Nikol və komandasının üzvlərinin qaldırdıqları tezisləri qabardır. Məsələn, o, Trampa məktubunda Qarabağ ermənilərinin evlərinə qayıtmaları hüququndan söz açarkən, beynəlxalq təhlükəsizlik təminatları üzərində dayanıb. Qeyd edək ki, erməni iqtidarı hələ 2023-cü ilin lokal xarakterli antiterror tədbirlərindən əvvəl sözügedən məsələni gündəmə gətirmiş və ondan Qarabağdakı separatçı rejimi saxlamaq məqsədi ilə istifadəyə çalışmışdı. Lakin rəsmi İrəvan istəyinə nail ola bilməmiş və bölgənin erməni əhalisi Ermənistana köç etmək məcburiyyətində qalmışdı. Halbuki Azərbaycan hakimiyyəti yerli ermənilərin ölkəmizin vətəndaşı kimi yaşamalarına hər cür təminat verdiyini açıqlamışdı.

Onu da bildirək ki, Paşinyan iqtidarı lokal xarakterli antiterror tədbirlərindən və Qarabağ ermənilərinin bölgəni tərk etmələrindən sonra da onların geri qayıdışı üçün beynəlxalq təminat məsələsini gündəmə gətirmiş, "etnik təmizləmə" şousu yaratmış, xaricdəki ermənipərəstləri, hüquq dələduzlarını prosesə cəlb etmişdi. Lakin belə cəhdlərin də hamısı uğursuzluqla nəticələnmişdi. Beynəlxalq ictimaiyyət Ermənistana mövcud istiqamətdə heç bir əsaslı dəstək verməmişdi.

Əlqərəz, hesab etmirik ki, I Aram Trampın mövzuya dair nə isə edə bilmək imkanında olmadığını anlamır. Anlayır. Digər yandan, din xadimini erməni iqtidarı kimi, Qarabağ ermənilərinin taleyi qətiyyən maraqlandırmır. Onun düşüncəsinə görə, Nikol və komandasının qaldırmadığı məsələni vurğulamaqla, Birləşmiş Ştatlar rəhbərliyi qarşısında hakim erməni komandasının fərsizliyinə dair təəssürat formalaşdırmaq mümkündür. Yəni, I Aramın çalışdığı bu təəssüratı yaratmaqdır.

Onu da vurğulayaq ki, I Aram üçün Tramp yalnız vasitədir. O, istəyir ki, qabartdığı məsələ, bir növ, yüksək tonla təqdim olunsun. Yəni, dünya erməniliyi Paşinyanın danışdıqlarına inanmasın, hakimiyyətə hansısa simpatiya bəsləməsin və baş nazirə dəstək göstərməsin. Buna görə də erməni milli identikliyinin hazırkı sxematikası baxımından cəlbedici təsir bağışlayan cəfəngiyyatları tirajlayır. Qarabağı ermənilərin vətəni kimi təqdim etmək də bundan qaynaqlanır. Müvafiq olaraq, ortaya belə bir nəticə çıxır: Nikol Qarabağ ermənilərindən danışmırsa, deməli, vətən xainidir. Paşinyan mövcud ritorikaya öyrəncəlidir. Yəni, I Aram açıq şəkildə də Nikolu hədəfə ala bilərdi. Bunun üçün Trampa məktub yazmağa nə hacət?

I Aram müraciətində bir qədər diplomatik tona da üstünlük verib. Deyib ki, Cənubi Qafqazda sülhün təminatı naminə ABŞ-ın güclü rəhbərliyinə ehtiyac var. Ardınca isə o, Trampın regiondakı məsələlərin həllində iştirakının onun qlobal sülhməramlı rolunu gücləndirəcəyini vurğulayıb. Deməli, hiyləgər Aram Birləşmiş Ştatların dövlət başçısını şirnikləndirməyə cəhd göstərib. Belə çıxır ki, Tramp da əvvəlki dövlət başçısı Co Bayden kimi, ölkəsini Cənubi Qafqazın işlərinə qarışdırmalıdır. Qarışdırmalıdır ki, ABŞ "Azərbaycanın beynəlxalq hüququn pozulmasına görə məsuliyyət daşımasında" rol oynasın. Görəsən, Vaşinqtona bu, çoxmu lazımdır? Əlbəttə, lazım deyil. Heç Tramp da Bayden deyil.

Erməni kahin Trampa məktubunda xəbərdarlıq tonunu işə salmağı da yaddan çıxarmayıb. Onun fikrincə, Azərbaycanın məsuliyyətə cəlb olunması ilə bağlı davamlı fəaliyyətsizlik Bakının ermənilərə qarşı növbəti təcavüzünü doğuracaq. Bunun adı isə açıq həyasızlıqdan və yersiz vay-şivəndən başqa bir şey ola bilməz.

I Aram və belə demək mümkünsə, erməni dini industriyası bu cür yaramazlığa, bir növ, adətkardır.

İndi isə haqqında söz açacağımızı bildirdiyimiz məsələ barədə bir neçə kəlmə. Yada salaq ki, D.Tramp 2024-cü il noyabrın 1-də ABŞ prezidentliyinə namizəd kimi, I Arama zəng etmiş, Qarabağ ermənilərinə dəstəyini ifadə edərək, onların təhlükəsizlik zəmanəti ilə geri qayıtmaq hüquqlarından söz açmışdı. Şübhə yoxdur ki, indi I Aram Trampa həmin telefon zəngini də xatırladır və onu sözünün üstündə dayanmağa çağırır. Ancaq bu mənasızdır və kənardan çox gülünc görünür. Ən azından ona görə ki, Tramp Birləşmiş Ştatların erməni sevdasına köklənmiş sabiq prezidenti Bayden deyil. Fikrimizin təsdiqi üçün nəinki I Aram, eləcə də digər xəstə təfəkkür sahibləri 44 günlük müharibə dönəmini yada sala bilərlər. Güman edirik, əlavə şərhə ehtiyac yoxdur.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Hərbi dənizçilərimiz "AMAN-25" təlim və dialoqunda



**Azərbaycan Hərbi Dəniz Qüvvələrinin nümayəndələri Pakistan İslam Respublikasının Kəraçi şəhərində keçirilən "AMAN-25" çoxmillətli dəniz təlimi və "AMAN" Dialoqunda iştirak edirlər.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, dünyanın müxtəlif ölkələrindən HDQ komandanları və qərargah rəislərinin, sahil mühafizəsi komandirləri və yüksəksəviyyəli liderlərin regional dəniz təhlükəsizliyini müzakirə etmək və inkişaf edən dəniz təhdidlərinə qarşı birgə strategiyalar hazırlamaq məqsədilə keçirilən ilk AMAN Dialoqunda ölkəmizi HDQ komandanının birinci müavini - qərargah rəisi, birinci dərəcəli kapitan Teymur Mürşüdov təmsil edir.

Liman və dəniz mərhələlərindən ibarət olan 9-cu çoxmillətli təlimdə ("AMAN-25") isə Azərbaycan HDQ-nin 6 nəfərdən ibarət sualtı hücum və sualtı müdafiə qrupları plana uyğun müvafiq tapşırıqları yerinə yetirəcək.

Qeyd edək ki, "Sülh naminə birlikdə" şüari ilə keçirilən təlimə 60 ölkədən gəmilər, təyyarələr, xüsusi təyinatlılar, partlayıcı maddələrin zərərsizləşdirilməsi qrupları, dəniz piyadaları və müşahidəçilər qatılıb. Sülh və təhlükəsizliyin təşviqi, terrorizmə qarşı birgə mübarizə məqsədilə keçirilən "AMAN-25" çoxmillətli təlimi fevralın 11-dək davam edəcək.

***XQ***

# Əsgərlərlə görüşə müvəqqəti məhdudiyyət

**Ölkəmizdə mövsümi xarakter daşıyan respirator virus infeksiyalarına yoluxma halları nəzərə alınaraq adaptasiya dövründə olan gənc əsgərlərin sağlamlığının qorunması məqsədilə hərbi hissələrdə görüşə müvəqqəti məhdudiyyət qoyulub. Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**



Hərbi hissələrin ictimaiyyətlə məhdud ünsiyyət şəraitində olması komandir-rəis heyəti və hərbi tibb personalı tərəfindən hərbi qulluqçuların səhhətinin diqqət mərkəzində saxlanılması üçün effektiv qabaqlayıcı tədbirlərin keçirilməsinə əlverişli imkan yaradır.

Şəxsi heyətin sağlam və yüksək kalorili qidalarla təmin olunması, onlara fərdi gigiyena qaydalarının, gündəlik fəaliyyətlər zamanı kompleks profilaktik tədbirlərin vacibliyinin çatdırılması, eləcə də maarifləndirici söhbətlərin aparılması sayəsində yoluxma hallarının qarşısının alınması təmin edilir.

"İctimaiyyətdən hərbi qulluqçularımızın sağlamlığına həssaslıqla yanaşmağı, qeyd olunan məhdudiyyəti anlayışla qarşılamağı, xüsusilə andiçmə mərasimləri zamanı hərbi hissələrə gəlməməyi xahiş edirik", - məlumatda qeyd edilir.

***XQ***

# Bakının gözlədiyi addım

(əvvəli 1-ci səhifədə)

Son illər Azərbaycan–Rusiya münasibətlərinin istiləşməsi Şimal qonşumuzdakı ermənilərə yaxın qrupları, media təmsilçilərini, psevdo-siyasətçiləri ciddi narahat edirdi. Bu "çete" bütün gücü ilə iki ölkə arasındakı yaxın qonşuluq, dostluq və strateji tərəfdaşlıq münasibətlərinin pozulmasını hədəfləyir, indiki çətin durumda ictimai dövriyyəyə əsassız, qərəzli fərziyyə və ehtimalları ötürməyə çalışır.

Rəsmi Bakı buna laqeyd qala bilməzdi və qalmadı da. Azərbaycan beynəlxalq hüquq normalarına sığmayan ədalətsiz mövqeyi dəyişməyəcəyi təqdirdə təyyarə qəzası ilə bağlı Beynəlxalq Məhkəməyə müraciət ünvanlayacağı barədə qarşı tərəfi xəbərdar edib. Mövcud vəziyyəti hüquqi qaydaya salmasından ötrü Moskvaya bir ay yarım vaxt verilib.

*

Görünən mənzərə nədən xəbər verir? 8 il bundan əvvəl Ümumrusiya Azərbaycanlıları Konqresinin fəaliyyətinin qadağan olunmasına Bakının adekvat reaksiyasını anlamaq istəməyən bəzi rus siyasi ekspertləri, tarixçiləri, deputatları ölkəmizə qarşı, sanki, "total ideoloji hücum"a keçiblər. Amma əvvəlcə rəsmilərin açıqlamalarına diqqət yetirək.

"Rusiya Prezidenti Vladimir Putin Azərbaycanın AZAL aviaşirkətinin təyyarəsinin qəzaya uğraması ilə bağlı açıqlama verməyi planlaşdırmır". TASS xəbər verir ki, bu barədə jurnalistlərə Rusiya Prezidentin mətbuat katibi Dmitri Peskov məlumat verib. "Xeyr, bu barədə danışmaq planı yoxdur", – deyən Kremlin sözçüsü aviaqəzaya görə Moskvanın günahı öz üzərinə götürməsi ilə bağlı Azərbaycan mediasından eşidilən çağırışları şərh edərkən bildirib.

"Azərbaycanlı həmkarlarımız qarşısında "Rus evi" məsələsini qaldıracağıq. Bakıdakı "Rus evi" ətrafında yaranmış vəziyyət Rusiya Federasiyası və Azərbaycan prezidentləri Vladimir Putin və İlham Əliyev arasında ən yüksək səviyyədə təmaslar baş tutduqda ətraflı müzakirə oluna bilər". Bu açıqlama da Rusiya liderinin mətbuat katibinə məxsusdur.

Azərbaycan XİN-in məlum notasına cavab olaraq, Rusiya xarici diplomatiya idarəsinin rəsmisi Mariya Zaxarova deyib ki, Moskva Bakıda "Rus evi"nin qeydiyyat məsələsini həll etməyə hazırdır. "Rusiya Bakıdakı Rus Mədəniyyət Mərkəzi ilə bağlı vəziyyətin sağlam şəkildə həll olunacağını gözləyir", – deyən M.Zaxarova əgər ən yüksək səviyyədə təmaslar olarsa, bunu istisna etmədiklərini vurğulayıb: "Bu məsələ iki dövlətin başçısı arasında dialoq zamanı müzakirə oluna bilər".

Göründüyü kimi, Kremlin iki rəsmi nümayəndəsinin məlum olaylarla bağlı açıqlamaları üst-üstə düşür.

*

Bu arada keçmiş "ağırçəkili" güləşçi, Rusiya Dövlət Dumasının hazırkı "yüngültəfəkkürlü" deputatı Nikolay Valuyev Azərbaycanın bu ölkədəki diaspor təşkilatlarının fəaliyyətinə xitam verilməsi,



soydaşlarımızın bizneslərinin məhdudlaşdırılması, Rusiyada qeyri-qanuni yaşayan azərbaycanlıların deportasiya edilməsi, qanuni yaşayanların isə hərbi uçota götürülərək, cəbhəyə göndərilməsi kimi sərsəm iddialarla çıxış edib. Hətta bununla da hirsi soyumayan şovinist deputat azərbaycanlılar da daxil olmaqla Mərkəzi Asiya və Qafqazdan gəlmələri öz dilində küçə jarqonu ilə – "şobla-vobla" adlandırıb. Heç şübhəsiz, ona bu komandanı verənlərin arasında Rusiyanın media-holdinq sənayesində üstün mövqelərə malik fürsətgir ermənilərin olduğu da istisna edilməməlidir.

**Milli Məclisin deputatı Azər Badamov azərbaycanlıları təhqir edən "Vahid Rusiya" partiyasından Dövlət Dumasının deputatı Nikolay Valuyevə kifayət qədər sərt cavab verib. Deputat N.Valuyevin Rusiyada yaşayan soydaşlarımızın ünvanına təhqiramiz ifadə işlətməsinə reaksiyası belə olub:** "Bu təyin, ilk növbədə, Nikolay Valuyevin özünü xarakterizə etməyə daha uyğundur. Üstəlik, "banda" mənasını verən "şobla-vobla"-nın sıravi nümayəndəsinin bədii obrazını təsəvvürümüzə gətirməyə çalışsaq, Nikolay Valuyevin portreti bunun üçün ən optimal variant sayıla bilər. Bu məxluqun antropoloji quruluşuna baxmaq kifayət edər ki, onun təkamül mərhələsindən kənarda qalmış nadir eksponat olduğunu görəsən. Bu insan "neandertal"la "homo-sapiens"



arasında azıb qalmış arxaik tipajdır. Nikolay Valuyev kimi gerizəkalıların o boyda dövlətin qanunverici orqanında təmsil olunması parlamentarizm prinsipinə təhqir sayılmalıdır".

Rusiyadakı anti–Azərbaycan "çete"sinin üzvlərindən biri də tarixçi Modest Kolerovdur. "Azərbaycan təyyarə qəzasından maksimum yararlanmaq istəyir, bu qəza Bakıya öz şərtlərini diktə etmək üçün zəngin imkanlar verir". Vəziyyəti əyri güzgüdə görən və şərh edən M.Kolerov bunları Ermənistanın "News-am" saytının müxbiri ilə söhbətində deyib. "Həm Ukraynaya humanitar yardımın göstərilməsi, həm də Rusiyanın "Rossotrudniçestvo" agentliyinə məxsus "Rus evi"nin ölkədən çıxarılması bu fəlakətdən maksimum siyasi fayda əldə etmək istəyidir"– deyən başabəla tarixçi həm Rusiya XİN-in rəsmi nümayəndəsi Mariya Zaxarovanın, həm də "Rossotrudniçestvo"nun rəhbərinin olayla bağlı açıqlamalarını "mümkün qədər barışdırıcı" adlandırıb.

"Bakının siyasi faydası" deyəndə "qonşusuna öz iradənizi diktə etmək fürsəti"ni nəzərdə tutan ermənipərəst rus ekspert son 28 ildə ilk dəfə "Rus evi" ilə bağlı vəziyyətin gərginləşməsinin səbəblərini yerdə deyil, göydə axtarmağa girişib. Tarixin hansı mərhələsi üzrə "doktorluq işi"ni müdafiə etdiyini bilmirik, amma Kolerovun çağdaş dövrün hüququndan və diplomatiyasından bixəbər olduğu göz qabağındadır.

Hesab edirik ki, baş vermiş faciə ilə bağlı toxunduğumuz mövzuya İsrail dövlət xadimi, diplomat Yakov Kedrinin fikirləri aydın və məntiqli sayıla bilər: "Azərbaycanın sərnişin təyyarəsi Rusiya Hava Hücumundan Müdafiə sistemi ilə vurulub. Amma onlar tamamilə təsadüfən bu addımı ata bilərdilər. Əgər bu mürəkkəb məsələdə, yəni təyyarənin vurulmasına gətirib çıxaran təmiz insan amili, ortada peşəkarların səhvi varsa, bundan ötrü istintaq komissiyası işləyir və araşdırma nəticəsində hər şey üzə çıxacaq".

*

**Beləliklə, ikitərəfli münasibətlərin sərinləşmədən istiləşməyə doğru gedəcəyi yol beynəlxalq hüquqa riayət etməkdən keçir. Bunu qəzetimizə açıqlamasında siyasi ekspert İlyas Hüseynov bildirdi:** "Azərbaycanın haqlı tələbləri yerinə yetirilməzsə, faktlar beynəlxalq məhkəməyə təqdim olunacaq. Əslində, bu, Azərbaycanın suveren hüququdur. Çünki ölkəmiz beynəlxalq münasibətlər sistemində müstəqil siyasətini davam etdirməkdə qərarlıdır. Azərbaycanın haqlı tələblərinə vaxtında və ətraflı şəkildə cavab verilməsi məsələnin beynəlxalq məhkəmə instansiyalarına çıxarılmasının qarşısını almaq baxımından məqsədəuyğun hesab edilir".



2022-ci il fevralın 22-də imzalanmış Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə ikitərəfli münasibətlərin ən yüksək fazaya yetişdiyindən xəbər verir. Amma təəssüf olsun ki, rəsmi Moskva 43 bənddən ibarət Bəyannamənin, ən azı, iki bəndi üzrə öhdəliyinə nəinki əməl etməyib, əksinə, ona xələl gətirib. Tərəflərin qarşılıqlı şəkildə bəyan etdikləri razılaşmanın 1-ci bəndində deyilir: "Rusiya Federasiyası və Azərbaycan Respublikası öz münasibətlərini müttəfiqlik qarşılıqlı fəaliyyəti, iki ölkənin müstəqilliyinə, dövlət suverenliyinə, ərazi bütövlüyünə və dövlət sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, eləcə də bir-birinin daxili işlərinə qarışmamaq, hüquq bərabərliyi və qarşılıqlı fayda, mübahisələrin dinc yolla həlli və güc tətbiq etməmək və ya güclə hədələməmək prinsiplərinə sadiqlik əsasında qururlar".

Bəyannamənin 17-ci bəndində yazılıb: "Tərəflər üçüncü dövlətlər vasitəsilə həyata keçirilənlər də daxil olmaqla bir-birinə qarşı yönəlmiş hər hansı hərəkətlərdən çəkinirlər". Beynəlxalq hüquq, məntiq və mövcud situasiya onu deyir ki, ilk addımı atan tərəf Kreml olmalıdır. Azərbaycanın tələbi nədən ibarətdir: Sərnişin təyyarəmizi vuranlar həbs edilsin, 38 ailəyə kompensasiya ödənsin və qarşı tərəf buna görə üzrxahlığını bildirsin. Burada qeyri-adi, yaxud aşağılayıcı nə var? Rəsmi Tehran da səfirliyimizi gülləbaran edən terrorçu ilə bağlı əvvəlcə uydurma versiyaları ortaya atmışdı. Amma Azərbaycan Prezidentinin qətiyyətli mövqeyindən çəkilmədiyini görən İran femidası həmin terrorçu barədə ən sərt cəza hökmünü verməyə məcbur oldu. Bundan sonra Azərbaycanın Tehrandakı səfirliyin fəaliyyətini bərpa etdi.

İndi rəsmi Moskva da tələb olunan tədbirləri görməlidir ki, bu mövzu birdəfəlik qapansın. Bakı Moskvadan bu addımın atılmasını gözləyir.

***İmran BƏDİRXANLI***
***XQ***

# "Qara əməllər"in sahibi USAID tarixə qovuşur

(əvvəli 1-ci səhifədə)

Xatırladaq ki, ABŞ Hökumətinin Effektivliyi İdarəsinə rəhbərlik edən iş adamı İlon Mask USAID-in ləğvinə başlandığını bildirib. Sahibkarın X profilindəki paylaşımında bildirilir ki, agentlik bərpa oluna bilməz, çünki "bu, qurdlu alma deyil, sadəcə olaraq bir parça qurddur". O əlavə edib ki, USAID-də heç nə qalmayıb və ondan qurtulmaq lazımdır. Mask bu yaxınlarda USAID-i tənqid edərək, agentliyi "cinayət təşkilatı" adlandırmışdı. O, həmçinin USAID-i "Amerikaya nifrət edən radikal solçu marksistlərin yuvası" kimi təsvir edib. Fevralın 2-də USAID-in saytının və onun X sosial şəbəkəsindəki səhifəsinin fəaliyyətini dayandırdığı barədə məlumat yayılıb.

USAID-ə müvəqqəti rəhbər təyin edilmiş dövlət katibi Marko Rubio isə agentliyin fəaliyyətinə belə qiymət verib: O, özünü "qlobal xeyriyyə təşkilatı" hesab edir və ölkənin maraqlarına və ya Amerika vergi ödəyicilərinin pullarına əhəmiyyət vermir. Cənab Rubio, həmçinin Konqresə məlumat verib ki, USAID-in mümkün yenidən təşkili məqsədilə hazırda xarici yardım fəaliyyətinin auditi aparılır: "Biz USAID-in auditini apardıqdan və onun "Öncə Amerika" gündəliyinə və Dövlət Departamentinin səylərinə uyğun olmasını təmin etdikdən sonra biz Amerika xalqının maraqlarını qorumağa və onların vergi vəsaitlərinin israf edilməməsinə əmin olmağa davam edəcəyik".

Qeyd etmək yerinə düşər ki, 2023-cü ildə USAID öz layihələrinə təqribən 38,1 milyard dollar xərcləyib. Göstərilən humanitar yardımın həcminə görə ABŞ dünyada birinci yerdədir. Yardım ya geri qaytarılmayan qrantlar şəklində, ya da texniki avadanlıq, mal və xidmətlər şəklində verilir. Agentliyin 100-ə yaxın regional nümayəndəlikdən ibarət şəbəkəsi var və təxminən 10 min əməkdaşı var ki, onların üçdə ikisi xaricdə işləyir.

Bu agentlik barədə götürülən ölçüləri təkcə ABŞ-da dəstəklənmir. Qonşu Meksikada da USAID barədə yaxşı fikirdə deyillər. Ölkə prezidenti Klaudiya Şeynbaum agentliyi digər ölkələrin daxili işlərinə qarışmaqda ittiham edərək, onu bağlamağa çağırıb. Xanım Şeynbaum hesab edir ki, Birləşmiş Ştatlar şəffaf dəstək kanalları yaratmaqla ölkələrə kömək etmək üçün başqa yollar axtarmalıdır. "Bu agentlik tədqiqat layihələrindən tutmuş hökumətlərdəki müxalifət qruplarına qədər hər şeyi maliyyələşdirirdi. Bu, Meksikada baş vermişdi, orada "Meksikalılar korrupsiyaya qarşı" təşkilatı bu agentlikdən dəstək alırdı və bu, sübuta yetirildi. Bu qurum niyə siyasətə qarışır?"

Venesuela da USAID-dən zərər çəkmiş ölkələrdən biridir. Venesuelanın hakim Vahid Sosialist Partiyasının qurultayında ölkənin vitse-prezidenti Delsi Rodriqes deyib ki, agentliyin ayırdığı vəsait ifrat sağçı müxalifət tərəfindən Venesuela hökumətini devirmək üçün istifadə edilib. O, özünü prezident elan edən Xuan Quaydo və ifrat sağçı müxalifət liderlərinin Venesuela hökumətini devirmək üçün ABŞ agentlikləri tərəfindən maliyyə yardımı aldığını bildirib. Rodriges qeyd edib ki, Venesuela USAID tərəfindən maliyyələşdirilən ekstremistlərin əməllərindən zərər çəkib: "ABŞ vəsaitləri hökumətləri devirmək üçün istifadə olunub. Biz Venesuelaya qarşı təcavüzün bu agentlik tərəfindən maliyyələşdirildiyini görürük. Blokadaya və hücumlara baxmayaraq, Venesuela xalqı öz suverenliyini müdafiə etmək üçün ayağa qalxıb".

Çoxdan məlum idi ki, korrupsiya bataqlığında çapalayan USAID Amerikanın digər ölkələrin daxili işlərinə müdaxiləsi sistemində əsas həlqə idi. Belə bir qurumun nə beynəlxalq ünsiyyətin prinsip və normaları baxımından, nə də əxlaq və etika haqqında ümumbəşəri ideyalar baxımından faydası vardı. Bu agentlik son 20 ildə özünü "Amerikanın yumşaq gücünün"




simvolu kimi göstərib, lakin indi amerikalıların özləri agentliyi "dar ağacına çəkirlər". Çünki vəsaitlər humanitar layihələrə deyil, şübhəli təşəbbüslərin maliyyələşdirilməsinə xərclənib.

USAID iddia edirdi ki, onun missiyası, guya inkişaf etməkdə olan ölkələrdə yoxsulluq, xəstəliklər, aclıq və təbii fəlakətlərlə mübarizə aparmaqdır. Lakin faktlar tam başqa mənzərəni ortaya çıxarır. Məsələn, USAID uzun müddət Peruda ailə planlaması proqramlarının sponsoru olub. 1990-cı illərdə ölkədə qadınların məcburi sterilizasiyası proqramı həyata keçirilib və bu proqram And dağlarının yoxsul və yerli əhalisinə təsir edib. Peru Konqresi araşdırma aparıb və USAID-in sterilizasiyanı dəstəklədiyini aşkarlayıb. Həmçinin USAID uzun illərdir ABŞ-la razılaşmayan ölkələrə qarşı təzyiq alətinə çevrilmişdi. Çoxdan məlum idi ki, USAID-in köməyi yardım deyildi, faciələrə səbəb olan müdaxilələr idi. Təbii ki, yaradıldığı gündən qurumun heç kimə təmənnasız kömək etmək fikri olmayıb. USAID Onilliklər ərzində dünyada sosial layihələr adı altında qlobal hörümçək toru qurmağa çalışaraq cəmiyyətlərə nüfuz etməyə can atıb.

Bəzi politoloqlar bildirirlər ki, USAID nümayəndələrinin ətraf mühit fəallarına və transgender hüquqları uğrunda mübarizə aparanlara qrant paylayan "qəribə adamlar" olduğunu düşünmək sadəlövhlükdür. Çünki Vyetnam, Əfqanıstan və İraqda agentliyin rəsmi olaraq döyüş bölgələrində fəaliyyət göstərib, ABŞ hərbçiləri ilə birgə əməliyyatlarda iştirak edib. Əvvəllər agentliyin İctimai Təhlükəsizlik Müdirliyi adında bölmə fəaliyyət göstərib. Həmin bölmə amerikapərəst polis qüvvələrinə və ölüm qruplarına işgəncələr də daxil olmaqla, əks-üsyan taktikaları öyrədib. Qərb mediası açıq şəkildə yazır ki, təhlükəzilik qüvvələri USAID-dən fəal şəkildə istifadə edib. Bu yaxınlarda oğul Robert Kennedi etiraf edib ki, Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ)1947-1997-ci illər arasında 83 hökuməti devirib. Bu, yer üzündəki hökumətlərin üçdə biri deməkdir və onların əksəriyyəti demokratik idi. Bu, demokratiyaya xidmət etmir". Doğrudur, siyasətçi bu çevrilişlərdə USAID-in adını hallandırmayıb. Lakin bir çox politoloq əmindir ki, bu əməliyyatların əksəriyyətində Amerika kəşfiyyatı USAID ilə çiyin-çiyinə işləyib.

Məsələn, Kubada agentlik humanitar yardım göstərmək adı altında hökumətə qarşı genişmiqyaslı təxribat kampaniyası həyata keçirib. KİV-in məlumatına görə, proqram iki əsas əməliyyatdan ibarət olub: biri ZunZuneo adlı "rejim əleyhdarı" sosial şəbəkə yaratmaq, digəri isə özünü turist və yardım işçisi kimi təqdim edən gizli agentlərin əlaqə saxladığı potensial dissidentləri işə cəlb etmək. Amerika agentliyi "Azadlıq adası"nda kütləvi iğtişaşlar törətməyə cəhd edib. Eyni zamanda, radikal sui-qəsdçilərin görüşləri HİV-in profilaktikası ilə bağlı seminarlar adı altında maskalanırmış Boliviyada isə USAID ölkə sakinlərini üsyana təhrik etmək üçün Evo Moralesin əleyhdarlarını maliyyələşdirib. Braziliyada agentlik sağçı amerikapərəst qüvvələrə üstünlüklər verəcək siyasi islahatlar üçün lobbiçilik edib. Bundan başqa, Amerika büdcəsindən pul terror təşkilatları ilə əlaqəli suriyalı yaraqlıların qidalanmasına, Əfqanıstanda narkotik istehsalına, Peruda transgender komiksləri, İrlandiyada LGBT myuziklinə, Serbiyada işçi kollektivlərdə və işgüzar dairələrdə bərabərliyin və inklyuzivliyin irəliləməsinə, Qvatemalada cinsin dəyişdirilməsi və LGBT fəallığına, inkişaf edən ölkələrdə fərdiləşdirilmiş kontraseptivlərin maliyyələşdirilməsi və s. digər qeyri-qanuni məqsədlərə xərclənib.

Bir sözlə, USAID-in "qulaqları" sözün həqiqi mənasında hər yerdə görünürdü. İndi quruma qulaqburması verilir. Ümid edək ki, ara qarışdırmaqla məşğul olan qurum tarixin arxivinə göndəriləcək.

***S.ELAY***
***XQ***

# Azərbaycan "Zəngəzur tilsimi"ni də tezliklə, qətiyyətlə qıracaq



(əvvəli 1-ci səhifədə)

Bu məqamda bir daha xatırladaq ki, Azərbaycana hər zaman bölgədə davamlı sülhün bərqərar olması üçün əməkdaşlıq amilini yüksək dəyərləndirib və bu baxımdan da Zəngəzur dəhlizinin açılmasını, vaxtilə fəaliyyət göstərən nəqliyyat əlaqələrinin yenidən bərpasını tərəddüdsüz dəstəkləyib. Kapitulyasiya aktına qol çəkən Ermənistan rəhbərliyi isə Azərbaycanın tarixi ərazisindəki Zəngəzur dəhlizinin açılması ilə bağlı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməkdən hər vasitə ilə yayınıb. Qarşı tərəf bu yöndəki fəaliyyətini siyasi manipulyasiyalarla pərdələyib. Azərbaycan vurğuladığımız kimi öhdəliyinə sadiq qalaraq, Zəngilanın Ermənistanla sərhəddə yerləşən Ağbənd kəndinədək avtomobil və dəmir yollarını çəkib qurtarsa da, işğalçı artıq beynəlxalq leksikona daxil olmuş Zəngəzur dəhlizi ilə bağlı heç bir əməli iş görməyib.

Prezident İlham Əliyev bu il yanvarın 28-də keçirilən nəqliyyat məsələlərinə həsr olunmuş müşavirədə də Zəngəzur dəhlizi ilə bağlı müəyyən məsələləri bir daha xatırladaraq Ermənistanın bu marşrutun yaradılması istiqamətində heç bir əməli addım atmadığını vurğulayıb: "Zəngəzur dəhlizi layihəsi Azərbaycan tərəfindən irəli sürülmüşdür. İkinci Qarabağ müharibəsindəki Zəfərimizdən sonra bu məsələ beynəlxalq gündəliyə, beynəlxalq leksikona salındı və bu gün Zəngəzur dəhlizi artıq dünyada qəbul edilmiş ifadədir, qəbul edilmiş termindir. Əlbəttə ki, biz bu dəhlizin açılması üçün praktiki addımlar atırıq. Düzdür, Ermənistan tərəfi dörd ildən çoxdur ki, bu məsələ ilə bağlı qeyri-konstruktiv mövqe sərgiləyir, faktiki olaraq 10 noyabr kapitulyasiyasından sonra üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmir".

Lakin bu gün Zəngəzur dəhlizinin fəaliyyətə başlayacağına heç kim şübhə etmir. Dövlətimizin başçısının sözügedən müşavirədə qeyd etdiyi kimi, heç bir yoxlamadan keçmədən, heç bir maneə ilə üzləşmədən Azərbaycandan Azərbaycana rahat və azad keçid olmalıdır. Bu, ölkəmizin tələbidir və bu tələb Çindən Avropaya daşınan yüklərin daha böyük hissəsinin Orta Dəhlizə cəlbini də reallaşdıracaq. Nəticədə ölkəmizdən keçən yük həcmləri artacaq və bundan Azərbaycan və region ölkələri qazanacaq.

Zəngəzur dəhlizinin açılması həm qlobal, həm də regional logistika baxımından zamanı və xərci azaldacaq. İnfrastrukturun reallaşması Şərq-Qərb marşurutunda məsafəni qısaldacaq. Ən vacib məqamlardan biri isə Qara dənizlə yanaşı, artıq Aralıq dənizinə də çıxış imkanı əldə ediləcək. Rəqabətlilik artacağı üçün qiymətlər də tənzimlənəcək, bu da Azərbaycana cəlb edilən yük həcminin artımına səbəb olacaq. Bu yüklərin cəlbindən isə bütün region ölkələri qazanacaq. Məsələn, Çindən Avropa istiqamətinə 500 min TEU konteyner göndərilərsə, bunun bir qismi Gürcüstan üzərindən, bir qismi isə Zəngəzur dəhlizi vasitəsilə çatdırlacaq ki, bu isə həm zaman, həm də məsrəflərin azalmasına gətirib çıxaracaq.

Prezident İlham Əliyev çıxışlarının birində Zəngəzur dəhlizinin iqtisadi əhəmiyyətindən danışaraq deyib: "Təkcə Orta Asiya ölkələrinin yükgöndərmə potensialını və oraya Avropa istiqamətindən gedən yükləri nəzərə alsaq görərik ki, hətta biz bütün bu layihələri icra etsək və genişləndirsək, yenə də çatmayacaq. Ona görə Zəngəzur dəhlizinin iqtisadi səmərəsi heç kimdə şübhə doğurmamalıdır".




Zəngəzur dəhlizinin iqtisadi əhəmiyyətindən bəhs edərkən bir məqama da toxunmaq istərdik. Bunun üçün əvvəlcə Orta Dəhlizin fəaliyyətinə nəzər salaq. Hesablamalar göstərir ki, Çindən Avropaya gedən yük qatarı bu dəhliz vasitəsilə 12 gün ərzində 7 min kilometr məsafə qət edir. Bu da Asiya ilə Avropa arasında qlobal ticarətdə adıçəkilən infrastrukturun nə qədər sərfəli və təhlükəsiz olduğunu göstərir. Halbuki eyni qatar Cənub Dəhlizi üzrə Süveyş kanalı üzərindən gəmi ilə 20 min kilometr yol qət edir. Bu mənada Azərbaycan reallaşmasına töhfə verdiyi Orta Dəhliz öz imkanları ilə, şübhəsiz ki, region ölkələrinin koordinasiyalı əməkdaşlığı sayəsində dünya ticarətinin ən mühüm həlqələrindən biri kimi diqqət çəkir. Yeri gəlmişkən, gələcəkdə Zəngəzur Dəhlizinin də Orta Dəhlizə inteqrasiya ediləcəyi nəzərdə tutulur. Belə halda Azərbaycan ərazisindən illik, təxminən, 35 milyon ton yükün daşınmasına imkan yaranır.

Zəngəzur Dəhlizinin istismara verilməsi ilə, ilk növbədə, Naxçıvan Muxtar Respublikası iqtisadiyyatı milli iqtisadi proseslərə inteqrasiya olunacaq. Bu, Naxçıvanda istehsal edilən sənaye və kənd təsərrüfatı məhsullarının istər ölkəmizin paytaxtına, istərdə də digər regionlara maneəsiz, eyni zamanda, vaxt itkisi olmadan çatıdırlmasını şərtləndirəcək. Bununla yanaşı, respublikamızın digər bölgələrində fəaliyyət göstərən iş adamlarının naxçıvanlı sahibkarlarla ortaq istehsal və biznes layihələrinin həyata keçirilməsinə əlverişli şərait yaranacaq.

Dəhliz Asiya ilə Avropa arasındakı əlaqələndirici imkanların təşəkkülündə mühüm rol oynayacaq, region dövlətləri, eyni zamanda, dünya ölkələri arasında iqtisadi-ticari əlaqələrin şaxələnməsinə təminat yaradacaq. Bütün bunlarla yanaşı, Azərbaycan və Türkiyə dövlətlərinin dostluq və qardaşlıq münasibətlərinin yeni perspektivlər əsasında inkişafına, daha yeni layihələrin reallığa çevrilməsinə, ölkəmizin ərazi bütövlüyünün daha da möhkəmlənməsinə, respublikamızın müəllifi olduğu layihələrin meqaiqtisadi əhəmiyyətinin daha da artmasına müsbət təsir göstərəcək, yeni prioritetlər müstəvisində turizm mobilliyini gerçəkləşdirəcək.

Göründüyü kimi, Zəngəzur dəhlizi böyük iqtisadi əhəmiyyət daşımaqla Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının, eləcə də Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın inkişafını müsbət təsir göstərməklə bərabər, ölkəmizin yerləşdiyi regionun, o cümlədən Asiya və Avropanın iqtisadiyyatına inteqrasiyanı sürətləndirmək gücündədir.

Bu coğrafiyada belə bir kommunikasiyanın–dəhlizin fəaliyyətə başlaması, ümumiyyətlə, region ölkələrinin–Azərbaycan, İran və Türkiyənin də sosial-iqtisadi yüksəlişinə əsaslı töhfə verəcəyi heç bir şübhə doğurmur. Dəhlizin Qərb ilə Şərq arasında olan iqtisadi əlaqələrin dərinləşməsinə, yaranan ticarət həlqəsinə əlavə dəyər verməsinə önəmli təsir göstərəcəyi də böyük əhəmiyyət daşıyan bir faktdır.

Transregional önəmə malik olan Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsi istehsalçı, istehlakçı və tranzit dövlətlər arasında ticarət əlaqələrinin diversifikasiyalaşmasına xidmət edəcək. Bir sözlə, regional əməkdaşlığın gücləndirilməsi və region ölkələrinin iqtisadi təhlükəsizliyin artırılması fonunda adıçəkilən dəhliz layihəsinin icrası nəzərəçarpacaq dərəcədə dəyişikliyə gətirib çıxaracaq.

Beləliklə, avtomobil yolu ilə birlikdə inşa olunacaq dəmir yolu (Zəngəzur dəhlizi) muxtar respublikanı Ermənistanın yaratdığı blokadadan çıxaracaq, regiondakı nəqliyyat – kommunikasiya şəbəkəsinə yenilik gətirməklə dünyanın nəqliyyat xəritəsini dəyişəcək, dövlətlərarası daşımaların xərcini, ünvanlara çatdırılma müddətini xeyli azaldacaq. Ölkəmizin təşəbbüsü ilə reallaşacaq bu dəhlizin açılması Azərbaycan diplomatiyasının uğuru olmaqla, Ermənistan üzərindəki hərbi Zəfərimizin davamı, iqtisadi Qələbəmiz, dünyada möhkəmlənən nüfuzumuzun təsdiqi olacaq.

***Vaqif BAYRAMOV***
***XQ***

# Qaysaq tutmayan 2 əsrlik yara

(əvvəli 1-ci səhifədə)

Abzas belədir: " Rusiya ilə İran arasında bağlanmış Gülüstan (12 oktyabr 1813-cü il) və Türkmənçay (10 fevral 1828-ci il) müqavilələri kimi sənədli mənbələr, habelə Qarabağ xanlığının Rusiyanın hakimiyyəti altına keçməsi haqqında Qarabağ xanı İbrahim xanla Rusiya imperiyasının 1805-ci il mayın 14-də imzaladıqları traktat əyani surətdə gostərir ki, imperiya sırf Azərbaycan torpaqlarını işğal etmişdir. Ermənilər isə bura sonralar –Türkiyə və İrandan köçürülüb gətirilmişlər. Bu sənədlərin heç birində Qarabağda erməni malikanələri və onların Rusiya tabeleyinə keçməsi haqqında işarə belə yoxdur".



Müəllif əlavə edir ki, məqalənin yazılmasında Dövlət Tarix Arxivində mühafizə edilən 24, 25, 202 nömrəli fondların materiallarından, həmçinin Rusiya ekspedisiya komissiyasının aktlarından istifadə edilmişdir. Bu isə o deməkdir ki, söhbət hansısa jurnalistin emosional münasibətlərindən və ya kiminsə eşidib danışdıqlarından deyil, məhz tarixi sənədlərdən gedir.

Bu gün Türkmənçay müqaviləsinin ildönümünə təsadüf etdiyinə görə daha çox o istiqamədə söz açmaq istəyirik. Amma öncə bir faktı da yada salmaqla. Son zamanlar həm Rusiya Federasiyasının, həm də Amerika Birləşmiş Ştatlarının siyasətçi, ekspert və jurnalistləri tez-tez təkrar edirlər ki, prezidentlər Donald Tramp və Vladimir Putin görüşərək Ukrayna məsələsini müzakirə edəcəklər. O zaman rəsmi Kiyev etiraz edir ki, bizim taleyimiz nə üçün bizsiz müzakirə olunur?

Təbii ki, ukraynalıların həmin sualına cavab verən yoxdur. Ona görə də suala mən cavab vermək istəyirəm: "Ukrayna məsələsi Kiyevin iştirakı olmadan müzakirə edilərsə, həmin müzakirədə qəbul edilən sənəd tarixə 197 il əvvəl Rusiya ilə İran arasında Azərbaycanın iştirakı olmadan bağlanan müqavilənin nəticəsi kimi düşəcək. Həmin yara iki əsrdir ki, qaysaq tutmur.

Qərəz, Rusiya ilə İran arasında baş vermiş ikinci müharibənin (1826-1828)



yekunlarına əsasən, 1828-ci il fevralın 10-da Çar Rusiyası və İran arasında bağlanan bu müqaviləyə əsasən, Azərbaycan torpaqlarının Araz çayından şimal hissəsi Çar Rusiyasının, cənub hissəsi isə İranın əsarətinə keçmişdir.

Təbrizdən 50 kilometr aralı olan Türkmənçay kəndində Rusiya generalı İvan Paskeviç və İran şahzadəsi Abbas Mirzənin imzaladıqları müqaviləyə əsasən, İrəvan və Naxçıvan xanlıqları Rusiyaya birləşdirilmişdir. Müqavilənin imzalanmasında Rusiyanın İrandakı səfiri, yazıçı Qriboyedov və tarixçi-yazıçı Abbasqulu ağa Bakıxanov da iştirak etmişdilər. Bakıxanov həmin razılaşmalarda tərcüməçi olmuşdur. Təkcə tarixçi və siyasətçilərimizin deyil, eləcə də, bütün azərbaycanlıların fikrincə, Türkmənçay müqaviləsi Azərbaycan tarixində alçaldıcı səhifələrdən biridir. Bu müqavilə Azərbaycanın tarixi taleyinə bütövü, tamı bölən, ölkəmizi parçalayan, ərazilərimizə qəsd edilən bir tarixi məqamdır.

Tarixçilər yazırlar ki, həmin dövrdə Azərbaycan müstəqil feodal xanlıqları formasında mövcud idi. Hər bir xanlıq orta əsrlərin feodal dövlətlərindən idi. Belə bir məqamda İranla Rusiya bu müstəqil feodal dövlətlərini özlərinə tabe etmək, daha doğrusu, ərazilərini tutmaq qərarına gəlmiş, qətiyyən özlərinə məxsus olmayan torpaqlar uğrunda vuruşaraq, Azərbaycanı öz aralarında bölmüşdülər. Həm Moskvada, həm də Tehranda hamı bilirdi ki, tarixən nə Rusiya, nə də İrana məxsus olmayan, əksinə Böyük Nadir şah dövlətinin parçaları olan xanlıqlara bölünmüş, Azərbaycanın şimalı və cənubu ifadələri yaranmışdı. Tarixçilərin fikrincə, bu, Rusiyanın Pyotr dövründən qalma siyasətinin bilavasitə davamı idi.

Bizim üçün ağır olan bir məqam da ondan ibarətdir ki, Türkmənçay müqaviləsində İrandan erməni əhalisinin Rusiya imperiyasının "yeni torpaqlarına" (İrəvan, Naxçıvan, Qarabağ və s.) köçürülməsi, İranın Rusiyaya təzminat (20 milyon rubl) ödəməsi, Rusiya donanmasının Xəzərdə şəriksiz hakim olması və rus tacirlərin İranda ticarət güzəştləri əldə etməsi barədə maddələr də var idi. Yəni ermənilərin Azərbaycanda yerləşdirilməsi üçün münbit siyasi şərait yaranmışdı. Türkmənçay müqaviləsinin təbəə alış-verişi (insan dəyişdirilməsi) maddələri Azərbaycanın bugünkü taleyinə təsir edən məqamları yaratmışdı.

Tarixi sənədlərdə qeyd olunur ki, bu müqavilənin şərtləri əsasında İrandan 40 min, Türkiyədən 84 min erməni Azərbaycana köçürülmüşdü. Beləliklə, Azərbaycana elə bir tarixi zülm edilmişdi ki, xalqımız indi də bunun əziyyətini çəkir. Azərbaycan torpaqlarının Rusiya və İran arasında Araz çayı boyunca bölünməsi ilə Türkmənçay müqaviləsi başa çatmışdı. Bütünlükdə bu müqavilə 16 maddədən ibarətdir. Qarabağın işğalı, əslində, elə bu "sülh" müqaviləsinin imzalanması ilə başlanmışdır.

Həmin işğal və ilhaqlardan sonrakı iki əsrə yaxın tariximiz də daim ərazi itkilərimizlə müşayiət olunmuşdu. Kremlin Sovet dönəmində həyata keçirdiyi ermənipərəst siyasəti nəticəsində Zəngəzur mahalı daxil olmaqla xeyli ərazilərimiz parça-parça kəsilərək, Ermənistana birləşdirilmişdi. Üstəlik, Kremlin birbaşa dəstəyinə güvənən Ermənistan rəhbərliyi ötən əsrin doxsanıncı illərinin əvvəllərində Azərbaycan ərazilərinin 20 faizini işğal etmiş, viranəyə çevirmişdi.

Nə yaxşı ki, son onillikərdə Heydər Əliyev siyasi kursunun ardıcıllıqla davam etdirilməsi, xüsusən, Prezident İlham Əliyevin qətiyyətli və prinsipial addımları ilə Azərbaycan həm öz ərazilərini düşmən tapdağından təmizlədi, həm də bütün torpaqlarında suverenliyinin bərpasına nail oldu. Odur ki, bu sətirləri də Prezidentin fikirləri ilə yekunlaşdırmaq istəyirik.

Dövlət başçımız tarixdəki sağalmaz yaralarımız barədə danışarkən əzəli türk torpağı olan Zəngəzurun Sovet dövləti tərəfindən Azərbaycandan qoparılıb Ermənistana verilməsini böyük ədalətsizlik adlandıraraq demişdir: "Zəngəzurun o vaxtkı əhalisinin mütləq əksəriyyəti azərbaycanlılar idi. Zəngəzurun bütün yaşayış məntəqələrinin adları Azərbaycan adları idi. Ona görə, bu qərarın qəbul edilməsində Azərbaycan xalqına qarşı ədalətsizlik və qərəz əsas rol oynamışdır. Eyni zamanda, bu qərarla Azərbaycan coğrafi baxımdan iki yerə bölünürdü. Eyni zamanda, böyük Türk dünyası iki yerə bölünürdü".

İnanırıq ki, üzləşdiyimiz çoxsaylı məkrli planların ağır nəticələrinin aradan qaldırılması istiqamətində Ali Baş Komandanımızın atdığı bütün addımlar öz müsbət nəticələrini verəcəkdir.

***İttifaq MİRZƏBƏYLİ***

# Rusiya mediasının anti-Azərbaycan kampaniyası bu ölkənin özünə ziyan vurur

**Rusiya mediası azad deyil. Mədəni dünya dövlətləri senzuranı çoxdan ləğv edib, jurnalistikaya özünütənzimləmə statusu verib, media idarəçiliyində inzibati amirlik sistemini aradan qaldırıb. Rusiya isə köhnə sistemi saxlayıb. Avropa məkanında yerləşən azsaylı dövlətlərdən biridir ki, Rusiya Federasiyası hələ də media üzərində dövlət nəzarəti mexanizmini, senzuranı tətbiq edir. Bu funksiyanı xüsusi inzibati qurum – "Roskomnadzor" həyata keçirir. "Roskomnadzor" Rusiyanın "media subyektləri üzərində monitorinq, nəzarət və senzuraya cavabdeh olan federal icra hakimiyyəti orqanı" kimi təqdim edilir.**

Qısa desək, Rusiya mediası hər hansı bir hadisə barədə obyektiv, qərəzsiz danışmaq, yazmaq ixtiyarına malik deyil. Bu ölkədə media fəaliyyəti çərçivəyə salınıb, qırmızı xətlər müəyyənləşdirilib. Jurnalistlər peşə standartlarını deyil, siyasi tendensiyaları rəhbər tutmağa sövq edilir.

Senzuralı davranış özünü xarici siyasətə aid məsələlərdə daha sərt şəkildə büruzə verir. "Roskomnadzor" cizgidən kənara çıxan media subyektlərini dərhal bloklamaq səlahiyyətinə malikdir. Təsadüfi deyil ki, Rusiya–Ukrayna müharibəsinin başlanmasından sonra bu ölkədə qısa müddət ərzində 150-yə yaxın media subyektinin fəaliyyəti bloklanıb, ləğv edilib. Minlərlə jurnalist cərimələnib. Yeganə suçları budur ki, onlar Rusiya tərəfindən Ukrayna üzərində həyata keçirilən prosesləri "əməliyyat" deyil, "müharibə" adlandırıblar. Rəsmi ritorikanı bir kənara qoyaraq, xalqa həqiqəti çatdırmaq istəyiblər. "Novıye İzvestiya", "Ust Kut 24", "Permdaily.ru", "Kavkazsky Uzel" və digər media qurumları Ukrayna müharibəsinin başlanmasının ilk günündən bağlandılar. Sonradan onların sayı 150-yə çatdı və ötdü.



*Müşfiq ƏLƏSGƏRLİ,*
*XQ-nin media eksperti*

"Roskomnadzor" bu yanaşmanı təkcə ölkədaxili media subyektlərinə deyil, trans-milli və transsərhəd media subyektlərinə qarşı da tətbiq edib. O, xaricdə yerləşən, rus dilində xəbər yayan, Rusiya–Ukrayna müharibəsi barədə həqiqəti yaymağa təşəbbüs göstərən, XİN-in cızdığı xətdən kənara çıxan bütün trans-milli və transsərhəd media qurumlarını öz ərazisində blokladı. Təkcə İsrail ərazisində 9 media subyekti belə sanksiyaya məruz qaldı.

"Roskomnadzor" 2022-ci ilin mart ayında Azərbaycanın populyar və peşəkar media subyektlərindən olan "Oxu.az" xəbər portalının, "Haqqin.az" və "minval.az" saytlarının Rusiya Federasiyası ərazisində yayımına blok qoydu. Bu qərar saytın redaksiyasına heç bir məlumat, xəbərdarlıq edilmədən verildi.

"Roskomnadzor" Azərbaycan media subyektlərinin öz ərazisində bloklanması qərarına rəsmi izahat vermədi. Bilinən o idi ki, qeyd edilən KİV-lər Rusiya–Ukrayna müharibəsi barədə müntəzəm olaraq informasiyalar yayır, müharibənin gedişatında Rusiya tərəfindən beynəlxalq normaların pozulduğunu ehtiva edən məlumatlar verirlər.

Azərbaycan jurnalistləri özlərinin informasiya siyasətində reallığa söykənir, Rusiya-Ukrayna müharibəsi barədə informasiya yayarkən, legitim beynəlxalq təşkilatların hesabatlarına, o cümlədən, rəsmi qurumlara istinad edirdilər. Rusiya tərəfi reallıqların KİV müstəvisində görünməsindən narahatlıq keçirməməli, öz narahatlığını media qurumlarının yayımına məhdudiyyətlər tətbiq edilməsi formasında büruzə verməməli idi. Nəzərə almalı idi ki, insanların, o cümlədən, rusdilli əhalinin həqiqəti bilmək kimi fundamental hüquqları vardır. "Roskomnadzor" rus dilində həqiqətləri yayan KİV-ləri, o cümlədən, Azərbaycanın xəbər portallarını bloklamaqla söz azadlığını, pluralizm prinsiplərini pozdu, demokratiyaya zidd hərəkətlər etdi.

Qeyd etmək zəruridir ki, Azərbaycan dövləti öz təhlükəsizliyi üçün vacib olan zamanlarda, hətta II Qarabağ savaşı– 44 günlük müharibə– dönəmində də Rusiya KİV-lərinin bloklanmasını həyata keçirməyib. Baxmayaraq ki, Rusiyanın əksər KİV-ləri 44 günlük müharibə dövründə rəqib cəbhədə yer tutaraq Azərbaycana qarşı informasiya savaşı aparırdılar.

Onlar bu gün də eyni cür davranırlar. Azərbaycan təyyarəsinin Rusiya səmasında vurulmasına da peşə normaları kontekstində deyil, "öz həqiqətləri" fonunda baxırlar. 2024-cü il dekabrın 25-də Bakı–Qroznı marşrutu üzrə uçan AZAL sərnişin təyyarəsi Rusiya hava hücumundan müdafiə (HHM) sistemi tərəfindən vurulduqdan sonra Aktau yaxınlığında qəzaya uğrayıb. İlkin hesabatlar göstərir ki, təyyarə yerə çırpılmazdan əvvəl xarici təsirə məruz qalıb və füzelyajda çoxsaylı zədələr aşkar edilib. Lakin Rusiya mediası bu hadisəni ya minimum işıqlandırıb, ya da hadisənin əsl səbəblərini gizlətməyə çalışıb.

Təəssüf ki, Rusiyanın media ictimaiyyəti hələ də streotipləri qıra bilmir, ehkamlardan kənara çıxmağa cəhd göstərmir. Onların başqa xalqlara və dövlətlərə yanaşmaları hələ də "Roskomnadzor"un cızdığı xəttə və imperiya ambisiyalarına söykənir. Bu kontekst onların qonşu ölkələrə, postsovet məkanına münasibətlərində daha qabarıq şəkildə ortaya çıxır. Obyektiv reallıqları, həqiqətləri görmürlər, görmək istəmirlər. İstənilən məsələyə yanaşmalarında "öz həqiqətlərini" tətbiq etmək istəyirlər. Onların tətbiq etdikləri "həqiqətlər" isə özlərindən başqa heç kimə lazım olmur və heç kəsə inandırıcı görünmür.

Rusiya mediası Azərbaycan təyyarəsinin vurulması ilə bağlı faktları yanlış şərh edir. Təyyarəni vuranları, onu qəzaya sövq edənləri haqlı çıxarmağa çalışır. Bu, qeyri-peşəkar davranışdır, jurnalistika prinsiplərinə ziddir. Digər tərəfdən, həm də qeyri-rasional davranışdır. Hadisə bütün dünyanın gözü qarşısında baş verib. Beynəlxalq Mülki Aviasiya Təşkilatı, Qazaxstan, Azərbaycan və Braziliya mütəxəssislərindən ibarət təhqiqat qrupu yaradılıb, hadisənin bütün detallarını təhqiq edib. Bu qədər təşkilatın, dövlətin, mütəxəssisin gördüyü, rəy verdiyi faktları necə danmaq, necə yanlış şərh etmək olar? Rusiya bu cür davranışla bir uğur qazana bilərmi? Ağılları, vicdanları, peşəkarlıqları olsaydı, haqsızcasına inadkarlıq göstərmək əvəzinə, obyektiv davranıb üzrxahlıq etsəydilər, daha çox bəraət alardılar. Rusiya mediasının yanlış davranışı Azərbaycana yox, onların özlərinə vurur. Onların qeyri-peşəkar, senzuralı media olduqlarını dünya bir daha gördü.

# Ermənistan demoqrafik böhran məngənəsində

*Ölkədə ölənlərin və xaricə köçənlərin sayı doğulanları üstələyir*



**Ermənistandakı ciddi siyasi və sosial sarsıntılar, iqtisadi böhran, qonşu ölkələrə qarşı işğalçılıq fəaliyyəti nəticəsində yaranan hərbi-siyasi vəziyyət, sadəcə olaraq, əhalini normal yaşayışdan məhrum etməyib, həm də ölkəni tərk etmək məcburiyyəti qarşısında qoyub. Bu, artıq haylar üçün xarakterik yaşam tərzinə, dinamik meyilə çevrilib.**

Ermənistanın demoqrafik vəziyyətini xarakterizə edən göstəricilər bu mənzərəni daha aydın göstərir. Statistik məlumatlara görə, burada 2024-cü ildə 15 min 324 nikah bağlanıb. Bu, əvvəlki göstəricidən 883 nikah azdır. Həm də boşananların sayı artıb. 2024-cü ildə 4 min 689 belə fakt qeydə alınıb. Bu, 2023-cü illə müqayisədə 164 çoxdur. Nikahın azalmasının səbəblərindən biri də müharibədir. Ermənistan hökuməti 44 günlük müharibədə 3 min 822, müxalifət isə 5 mindən çox hərbçinin öldüyünü vurğulayır. Onların da əksəriyyəti nikah yaşında olanlar idi. Aydındır ki, bu, soyun, nəslin davam etməməsi deməkdir. Nikahın azalması, boşanmanı artması isə demoqrafik vəziyyətə təsir edir.

Digər amil isə erməni ailələrində, bir qayda olaraq, bir və ya iki uşağa üstünlük verilməsidir. Çünki çoxuşaqlı ailə daha artıq dolanışıq xərci tələb edir. Ona görə də Ermənistanda bu gün hər qadına 1,6 uşaq düşür. Məsələn, 2024-cü ildə 33 min 648 uşaq doğulub. Bu da 2023-cü illə müqayisədə 2 min 617 uşaq azdır. Halbuki, sovet dövründə Ermənistanda ildə 75-80 min uşaq dünyaya gəlirdi. Rəqəmlərdən göründüyü kimi, dünyaya gələn uşaqların sayı sovet dövrü ilə müqayisədə 2,5 dəfə azalıb.

Eyni zamanda, hesabat dövründə 25 min 576 nəfər dünyasını dəyişib. Ölənlərin sayı 2023-cü ilin göstəricisindən 1 min 271 nəfər çoxdur. Ermənilər ən çox qan dövranı sistemi, onkoloji, tənəffüs sistemi, həzm orqanları, eləcə də yoluxucu xəstəliklərdən ölürlər.

Ermənistanın demoqrafik sahədə ən ciddi problemlərdən biri də xaricə miqrasiya nəticəsində əhalinin təbii artımının kəskin aşağı düşməsidir. Bu, 1990 – 2000-ci illərdə Dağlıq Qarabağ problemi, ölkədə yaşanan sosial-iqtisadi çətinliklər, işsizlik, böyük sənaye müəssisələrinin fəaliyyətini dayandırması, demokratik dəyərlərin arxa plana keçməsi, insan haqlarının kobud şəkildə pozulması və işsizliklə bağlıdır.

Hazırda Hayastanda eyni vəziyyət yaşanmaqdadır. Bu qədər neqativ halların olduğu bir vaxtda Ermənistanda iqtisadi artımdan danışılır. Əslində, səsləndirilən açıqlamalar reallıqdan xəbər vermir. İqtisadi artım Rusiya mallarının təkrar ixracına əsaslanır. Ondan Ermənistan əhalisinin kiçik bir qrupu, daha doğrusu, hay elitası yararlanır. Əhalinin əksər hissəsi isə yoxsulluq həddində yaşayır.

...Əvvəllər Azərbaycanın işğal edilmiş torpaqlarını talamaqla güzəranlarını təmin edən ermənilər indi çox çətin vəziyyətdə nə edəcəklərini bilmirlər. Ölkədə işsizlik ildən-ilə artır. Yeni iş yerlərinin açılması məsələsi hələ də əsas problem olaraq qalmaqdadır. Nəticədə, ermənilərin bir çoxu daha təminatlı həyat axtarışı ilə ölkəni kütləvi şəkildə tərk edir. Onların da əksəriyyəti gənclərdir. Təkcə Şirak rayonunun kişi cinsli əhalisinin 70 faizi çörəyini Rusiyada qazanır. Lori və Zəngəzur da boşalır. Statistikaya görə, Rusiyada əməkçi miqrantların 20 faizi Ermənistandan gedənlərdir. Hələ ötən əsrin 90-cı illərində Rusiyaya gedən ermənilər orda yerləşiblər və yaxın qohum-əqrəbalarının da bu ölkəyə gəlməsinə dəstək veriblər.

Miqrasiyanın digər səbəbi isə yeni müharibə qorxusudur. İşğaldan azad olunan ərazilərə azərbaycanlıların köçü ilə ermənilər "azərbaycanlıların nəfəsini" daha yaxından və daha böyük coğrafiyada hiss etməyə başlayıblar. Bu da onlarda qorxu yaradır. Hətta Ermənistan sakinləri arasında da kifayət qədər ümidsizlik əhval-ruhiyyəsi hökm sürür. Ona görə də bir çox erməni ölkəni tərk edir, onların xeyli hissəsi, xüsusən də çağırış yaşında olan gənclər vətəndaşlıqdan imtina etmək yolunu tuturlar. Bu səbəbdən Ermənistan ordusunda hərbçi çatışmazlığı yaranıb. Ekspertlər hesab edirlər ki, çağırış resursunun bu cür azalması ölkədə demoqrafiya, miqrasiya, sosial-iqtisadi sahə və s. əhatə edən sistemli problemlərin nəticəsidir. Sosial problemlərin artması, iqtisadi tənəzzül isə ölkədən köçü, bir növ, körükləyir. Qeyd edək ki, bu ölkə müstəqillik əldə etdikdən sonra 800 mindən 1 milyon yarıma qədər erməni xarici ölkələrə üz tutub.

Göründüyü kimi, Ermənistan əhalisinin ölkəni tərk etməsi dayanıqlı prosesə çevrilib. BMT-nin proqnozlarına görə, 2050-ci ildə Ermənistan əhalisinin sayı ən optimist ssenari üzrə 2,7 milyon nəfər, pessimist ssenari üzrə isə 1,5 milyon təşkil edəcək. Bunun əsas səbəbləri yuxarıda qeyd etdiyimiz kimi, Ermənistanda doğum səviyyəsinin azalması, əhalinin qocalması və ölkəni sürətlə tərk etməsidir.

İrəvan gələcəkdə ciddi demoqrafiya problemi ilə üzləşməmək üçün bu mənzərədən nəticə çıxarmalı, təkcə iqtisadi islahatlar deyil, həm də regionda qonşularla sülh və əməkdaşlıq siyasəti həyata keçirməlidir. Əks təqdirdə, ölkənin hansı gələcəyə üz tutacağı qaranlıq qalacaq.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# "Böyük manipulyator"

**Mark ENDEVELD**

*(əvvəli qəzetin ötən saylarında)*

Həmin il bu departamentin Millo şəhərində, gələcək prezident cütlüyü, siqaret mağazasında işləyən Əhməd Eddarraz adlı bir adamla tanış olur. Əslən Mərakeşdən olan, otuz yaşındakı bu cavan oğlan uzun müddətdir ki, Sosialist Partiyasının (PS) fəal üzvü, eləcə də şəhərin bələdiyyə idarəsində məsləhətçidir. Dominik Stros-Kanın (DSK) pərəstişkarı olan bu cavan oğlan, 2015-ci ildən "Gənclər Makron ilə" (JAM) qrupuna daxil olur və bir ildən sonra Emmanuel Makronun namizədlik kampaniyasında Brijit Makronun şəxsi əməkdaşı kimi fəaliyyət göstərir. Əhməd Eddarraz, sözün əsl mənasında, fransız dili müəlliməsinin kölgəsinə çevrilir, Brijit hara getsə, əyalət şəhərində siqaret satan bu oğlan onu müşayiət edir, onun ailəsinin, uşaqlarının qayğısına qalır, bir sözlə Emmanuel Makronun prezident seçkilərindəki qələbəsinə qədər onun arvadının sağ əli olur. Amma Makronun qələbəsi günü "La Rotonde" restoranında üç saat əvvəl seçilmiş prezidentlə bir stol arxasında qədəh-qədəhə vurub qələbələrini qeyd etməsinə baxmayaraq, hətta sonra prezident Makronun Mərakeşə ilk səfəri zamanı onu müşayiət edən nüfuzlu şəxslərin arasında olsa da belə, Əhməd Eddarraza Yelisey sarayında heç bir vəzifə verilməyəcək, o yaşadığı Millo şəhərinə qayıdıb, siqaret satmağa davam edəcək. LREM partiyası (Respublika Hərəkətdə Partiyası) yaranan kimi onun üzvü olan mərakeşli bu oğlan sonralar öz bölgəsindən deputat seçilmək arzusuna düşür.




Göründüyü kimi prezident seçkiləri zamanı namizədlə onun arvadının qulluğunda duran tək Aleksandr Benalla deyildi. Ona görə də bəzi jurnalistlərin Benallaya Makron cütlüyünün yeganə köməkçisi damğası vurmaqları reallıqla qətiyyən uyğun gəlmir...

Aveyron həm də Lüdovik Şakerin vətənidir. O, Durbi vadisində – Coss və Keven şəhərləri arasında yerləşən – San-Jan-dü-Brüel kəndində böyüyüb boya-başa çatıb. Onun dostu – Yeliseydə xüsusi məsləhətçi İsmael Emelien isə Qrenobl şəhərindən gəlməyinə baxmayaraq Aveyron mənşəlidir... Onu da əlavə edək ki, Makron imperiyasının sütunlarından biri olan Milli Assambleyanın prezidenti Riçard Ferrand da 1962-ci ildə Aveyron departamentinin Rodez şəhərində anadan olub.

## Ferrand və Brotayn regionu

2018-ci ilin sentyabr ayında, Milli Assambleyanın sədri kimi deputatların qarşısındakı ilk çıxışını Rişard Ferrand bu sözlərlə başlayır: "Mən Aveyron kəndinin uşağıyam...". Ancaq o, siyasi karyerasına bu bölgədə başlamayıb. Bu gənc Mitterançı (o, Sosialist Partiyasının (PS) biletini 1981-ci ildə alıb) 1991-ci ildə Parisə gəlib Sosial və İnteqrasiya Məsələləri üzrə Dövlət katibi Kofi Yamyanın Parisdəki ofisində işə düzəlir və bir müddət sonra Brotayn regionuna qayıdır. 1998-ci ildə ilk dəfə seçki mandatı alır və yuxarı vəzifədə olan bir tanışının tapşırığı ilə Finister departamentinin Karaks şəhərində, bu departamentin yerli kanton seçkilərində iştirak edir. Elə həmin il o, Brotayn regionunun "Mütüel" şirkətinin baş direktoru təyin edilir.

Breton torpaqlarında Rişard Ferrand heç kəsi biganə qoymur. Çünki Karaks keçmiş kommunist yuvası olduğundan, bu adamın sosialist radikallığı, respublikaçı ruhu, xəmiri regionalizm, özünüidarəetmə və solçu katolik mədəniyyəti ilə yoğurulmuş yerli siyasi ruhla ziddiyyət təşkil edir. Ona görə də Brotayn regionunun Brest şəhərində yaşamağa üstünlük verən bu nəcabətli şəxsiyyət, nə qədər cəhd eləsə də, Karaks şəhərindəki kanton seçkilərində qalib gələ bilmir. Karaks seçicilərinin əksəriyyəti şəhərin meri, 2013-cü ildə qırmızı papaqlılar hərəkatının lideri, eləcə də Vieilles Charrues musiqi festivalının həmtəsisçisi Kristian Troadekə səs verir. Karaks şəhərindəki bu məğlubiyyətinə baxmayaraq, Rişard Ferrand Brest şəhərində, Brest burjuaziyasının arasında, xüsusən də onların toplaşdığı yerli frank-mason lojunda (1783-ci ildə təşkil olunmuş Böyük Şərqin Fransası loju) özünü suda balıq kimi hiss edir. Yeri gəlmişkən, bir gün o, yerli jurnalistlərə verdiyi müsahibələrinin birində etiraf edir ki: "Mən "yeni dünya" ifadəsini bəyənmirəm... Bu ifadəni işlədən adamlardan uzağam və bu ifadənin pərəstişkarı da deyiləm...".

Kofi Yamyanın qanadının altına aldığı, hamının "çox iddialı bir adam" kimi baxdığı Rişard Ferrand 2012-ci ildəki deputat seçkilərində, hamının təəccübünə rəğmən, öz himayədarına qarşı çıxır, özü də sosialist etiketi altında! Onun 6-cı seçki dairəsi, Finister departamentinin mərkəzindən Atlantik okeanına qədər uzanır, eləcə də Lonq adasını əhatə edir. Bu zonada – Brest şəhəri yaxınlığında – yerləşən süni səkildə yaradılan yarımada isə Milli Donanmanın nüvə-ballistik raket sualtı gəmiləri (SSBN) üçün baza rolunu oynayır. Bu axırıncı detaldan aydın olur ki, niyə Rişard Ferrand, bir müddət Milli Assambleyanın Müdafiə Komitəsinə sədrlik edir. (Əvvəlki prezidentin hakimiyyəti dövründə bu postu başqa bir deputat – Brest şəhərindən olan – sosialist Patrisia Adam tutmuşdu. Sonra bu qadın Sosial Məsələlər Komitəsinə təyin olundu.) Axırıncı illərdə Brotayn regionunun "Mütüel" şirkətinin bu ziddiyyətli prezidenti – Fransa Kommunist Partiyasının (PCF) keçmiş pərəstişkarı – çıxışlarında daha çox ekstremist solçulara dəstək verməyə başlayır. Belə ki, Sosialist Partiyasının (PS) daxilində Martin Obrini (Lil şəhərinin meri. Milli Assambleyanın deputatı. Ekstremist solçu) o qədər tərifləyir və dəstəkləyir ki, hamı onu Fransua Hollandın rəqibi sayır. Ona görə də yazıq Kofi Yamyan heç cürə başa düşə bilmir ki, niyə Rişard Ferrand kimi sosialist və ekstremist solçulara göz-qaş oynadan bir siyasətçi, 2015-ci ildən Makron kimi çox liberal bir adama yaxınlaşır. "Mənim fikrimcə, o, (Rişard Ferrand) ideoloji cəhətdən Sosialist Partiyasına (PS) xəyanət etdi. Mən heç cür başa düşə bilmirəm, necə ola bilər ki, bir adam, eyni zamanda həm Sosialist Partiyasının (PS) ekstremist solçu qanadında olsun, həm prezidentlə müxalifətdə olanlara simpatiya bəsləsin, həm də Sosialistlərdən çox Respublikaçılara yaxın olan Makronun partiyasına (LREM – Respublika Hərəkətdə) qoşulsun...", – deyə Mitt eranın bu keçmiş naziri təəccüblə çiyinlərini çəkir.

Ancaq bir şey də var ki, Makronun beş illik prezidentlik macərasının birinci ili bu iddialı və ziddiyyətli insan üçün çox pis başladı. 2017-ci ilin may ayında "Le Canard enchaîné" qəzeti onunla bağlı qalmaqal bir məsələ üzə çıxarır: sən demə, Rişard Ferrandın daşınmaz əmlak şirkətinə rəhbərlik edən həyat yoldaşı Sandrin Dukan, 2011-ci ildən ərinin prezidenti olduğu "Mütüel" şirkətinin binasında bir neçə ofis kirayə edib. Bundan başqa, Rişard Ferrand 2012-ci ildən bu şirkətin prezidentliyini başqa adama təhvil versə də, Fransua Hollandın beş illik hakimiyyəti dövründə həmin şirkətdə sadə missiya meneceri kimi (ayda 1250 avro maaşla) adı gedib. Bu qalmaqal ortaya çıxandan sonra Ferrand məcbur olub, tutduğu vəzifədən istefa verir. İlkin təhqiqatlar zamanı hüquq-mühafizə orqanlarının ortaya çıxardıqları bir çox "qanunsuzluqlar" mətbuatda yayılandan sonra, Ferrand vəzifəsindən sui-istifadə edib "qeyri-qanuni faiz götürməkdə" şübhəli bilinən bir şəxs kimi Lil şəhərindən təyin edilmiş üç hakim tərəfindən istintaqa cəlb olunur.

Mətbuatda qanunu pozmaqda şübhəli sayılan Milli Assambleyanın sədri Rişard Ferrand Brest şəhərində "Hərəkətdə!" qrupundan olan iki nəfərin dəstəyinə bel bağlayır: biri Finister departamentinin Sosialist Partiyasının keçmiş rəhbəri Mark Koatan, o biri isə Brotayn regionunda dəniz və liman infrastrukturunun gənc vitse-prezidenti, Ferrandın Milli Assambleyada "dəniz işləri" üzrə özünə məsləhətçi təyin etdiyi Pier Karleskind. Ancaq bu iki müttəfiq, Brest metropolunun sosialist meri Fransua Qiyyandr tərəfindən vəzifələrindən uzaqlaşdırılır, çünki mer sosialist olan bu iki adamın Makronun partiyasına üzv olmaqlarını onlara bağışlamır.

Bələdiyyə seçkiləri qabağı, vaxtının çoxunu Milli Assambleyada keçirən Rişard Ferrand çulunu sudan çıxarmaq üçün Brest şəhərində gündəlik çıxan "Telegram" qəzetində dərc olunan bir məqalədən məharətlə istifadə edir. Bu məqalədən məlum olur ki, sən demə, "Brestdə yaşamaq" assosiasiyası, şəhərin bəzi sosialist deputatlarına ayrılan zəhmət haqqını dövlətdən gizlədirmiş. Qəzetdəki məqalədən o da aşkar oldu ki, 2018-ci ilin noyabrında Brest merinin yaxın dostu, regionun böyük 165 tikinti layihələri ilə məşğul olan dövlət komissiyasının vitse-prezidenti Alan Mason vəzifəsindən azad edilib: çünki məlum olub ki, bu adam deputat məvacibindən əlavə, "Brestdə yaşamaq" assosiasiyasından aldığı məbləği vergilərə bildirməyib. Bu hadisələr Sosialist Partiyasının yerli şöbəsi üçün təbii ki, çox böyük bir biabırçılıq oldu. Ancaq yerli LREM (Respublika Hərəkətdə Partiyası) və onun üzvləri sosialistlərə dəyən bu zərbədən yaxşı fayda götürdülər.

**(ardı var)**

# Aqroparkların hədəfi – məhsul bolluğu, ucuzluq

**Ölkəmizdə həyata keçirilən uğurlu aqrar siyasət, regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarına uyğun olaraq yaradılan infrastruktur, fermerlərə göstərilən maliyyə dəstəyi, aqrar sektorda tətbiq edilən vergi güzəştləri əkin-biçin adamında təşəbbüskarlığı və sabaha inamı xeyli artırıb. Məhz bunun nəticəsidir ki, hazırda aqrar sektorda qabaqcıl texnologiyalara və müasir innovativ idarəetmə sisteminə əsaslanan yeni tipli müəssisələr yaradılır.**

Bu baxımdan Azərbaycanda fəaliyyət göstərən aqroparklar xüsusi qeyd edilməlidir. Ölkənin aqrar sektorunun inkişafı məqsədilə işlənib hazırlanmış yeni inkişaf konsepsiyasının mühüm istiqamətlərindən sayılan aqroparklar ərzaq təhlükəsizliyinin təminatında, regionların tarazlı inkişafının və əhalinin məşğulluq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır.

Aqroparklarda istehsalçı, emalçı və istehlakçı arasında inteqrasiya münasibətləri formalaşdırılır ki, bu da kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə olunmasına imkan yaradır. Bu müəssisələr aqrar sahədə inkişafı sürətləndirməklə yanaşı, idxaldan asılılığın azaldılmasına, eləcə də ölkənin ixrac potensialının artırılmasına və milli brendlərin yaradılmasına mühüm töhfələr verir.

Xatırladaq ki, Azərbaycanda aqroparklar 2014-cü ildən etibarən Prezident İlham Əliyevin tapşırığına əsasən ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi, regionlarda işsiziliyin aradan qaldırılması və idxaldan aslılığın azaldılması məqsədilə yaradılıb. Mövcud aqroparkların fəaliyyətinə nəzarəti isə İqtisadiyyat Nazirliyinin nəzdində İqtisadi Zonaların İnkişafı Agentliyi həyata keçirir. Yeri gəlmişkən, adı çəkilən qurum ölkədə fəaliyyət göstərən sənaye parklarının, sənaye məhəllələrinin və aqroparkların idarə edilməsinin təkmilləşdirilməsi məqsədilə dövlət başçısının 22 yanvar 2021-ci il tarixli Fərmanı ilə yaradılıb.

Hazırda Azərbaycanda 22 rayon üzrə 66,3 min hektar ərazidə 24 aqroparkın yaradılması istiqamətində tədbirlər həyata keçirilir. Artıq 23 aqropark fəaliyyətə başlayıb, 1 parkda isə tikinti-quraşdırma işləri davam etdirilir. Müasir kənd təsərrüfatı sahələrinin 6-sı heyvandarlıq, 6-sı meyvəçilik, 11-i əkinçilik, 1-i isə çeşidləmə, qablaşdırma və logistika üzrə ixtisaslaşıb. İqtisadi Zonaların İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Seymur Adıgözəlovun bildirdiyinə görə, mövcud aqroparkların ümumi layihə dəyəri 1,1 milyard manat təşkil edir ki, bunun da faktiki olaraq 0,9 milyard manatı özəl investisiya şəklində layihələrin reallaşdırılmasına yatırılıb.

Məlum olduğu kimi, aqroparklar digər kənd təsərrüfatı müəssisələri kimi vergi güzəştlərindən, subsidiyalardan, güzəştli kredit və lizinqdən yararlanır. Bununla yanaşı, dövlət tərəfindən də bu sahədə mühüm dəstək tədbirləri həyata keçirilir. Agentlik rəhbərinin sözlərinə görə, ötən müddətdə ölkədə aqroparkların yaradılması və ya fəaliyyətlərinin genişləndirilməsi məqsədilə 158,9 milyon manat dövlət dəstəyi göstərilib. Bununla yanaşı, Sahibkarlığın İnkişafı Fondu tərəfindən 16 aqroparkın yaradılmasına 142,4 milyon manat güzəştli kredit ayrılıb. Eyni zamanda, investisiya təşviqi sənədi almış 17 aqropark texnika, texnoloji avadanlıqlar və qurğuların idxalına görə 16,5 milyon manat dəyərində güzəşt əldə edib.




Aqroparklar tərəfindən əkin dövriyyəsinə cəlb olunmuş 42,5 min hektar torpaq sahəsinin 35,7 min hektarı suvarılan ərazilərdir. Həmin sahələrin isə 26 min hektarında mütərəqqi suvarma sistemləri qurulub. Ötən müddətdə aqroparklarda 37 min 20 nəfər daimi işlə təmin edilib, 48 min 78 nəfər isə mövsümi işlərə cəlb olunub. Növbəti mərhələdə isə əlavə olaraq 1600-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur.

İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına görə, 2024-cü ildə aqroparklarda 34,1 min ton buğda, 25,5 min ton arpa, 91,8 min ton dən və silos qarğıdalı, 49,7 min ton şəkər çuğunduru, 22,4 min ton pambıq, 17,3 min ton kartof, 11,6 min ton yonca, 1,1 min ton soya, 3,5 min ton tərəvəz məhsulları, 14 min ton qüvvəli yem istehsal olunub, 18,1 min ton qarışıq meyvə yığılıb və 606 min ting əkilib. Heyvandarlıq üzrə ixtisaslaşmış 6 aqroparkda 32,4 min ton süd və 1,3 min ton ət istehsal olunub. Bütövlükdə isə, aqroparklarda istehsal olunmuş kənd təsərrüfatı məhsullarının ümumi dəyəri 150 milyon manat təşkil edib.

Yeri gəlmişkən, ölkə ərazisində kiçik və orta fermerlərin cəlb olunması ilə təşkil edilən ilk aqropark Yevlax rayonunda yaradılıb. Ümumi ərazisi 2 min 807 hektar olan Yevlax Pilot Aqroparkının 2 min 280 hektar sahəsi üzrə 34 sahibkarlıq subyekti rezident kimi qeydiyyata alınıb. Rezidentlər tərəfindən, ümumilikdə, 55,2 milyon manatadək özəl investisiyanın yatırılması ilə 331 nəfər üçün daimi iş yerinin yaradılması nəzərdə tutulur.

Aqroparkda intensiv meyvə bağları salınacaq, heyvandarlıq və quşçuluq təsərrüfatları, eləcə də emal sahələri yaradılacaq. Artıq rezidentlər tərəfindən 44 milyon manat investisiya qoyulmaqla burada 121 daimi və 457 mövsümi iş yeri açılıb. 21 rezident tərəfindən indiyədək parkın ərazisində 1199 hektar sahədə əkin işləri aparılıb, 412,5 hektar intensiv və superintensiv meyvə bağları salınıb. Ötən müddətdə aqroparkda 1,1 min ton buğda, 0,6 min ton arpa, 0,4 min ton pambıq və 660 min ədəd ting istehsal olunub. 2024-cü ildə parkın ərazisində ilk dəfə yığım da həyata keçirilib. Yeni salınmış bağlardan, ümumilikdə, 44 ton çəyirdəkli (şaftalı, ərik, nektarin, alça və s.) meyvə yığılıb.

İqtisadi Zonaların İnkişafı Agentliyinin sədri S.Adıgözəlovun sözlərinə görə, aqroparkın 2807 hektar ərazisinin 1185 hektarı parsellərə bölünmüş sahələr, 1298 hektarı heyvanların yem təminatı və pambıqçılıq sahələri, 141 hektarı sənaye zonası, qalan 183 hektarı isə mühafizə zolaqları və təsərrüfatdaxili yollardır. Ötən müddətdə aqroparkda dövlət investisiyası hesabına tutumu 110 min kubmetr olan membran örtüklü su anbarı və 8 aqreqatlı nasos stansiyası inşa edilib, parsellərə bölünmüş 800 hektar ərazinin təzyiqli su və elektrik təchizatı tam təmin olunub, təsərrüfatdaxili yollar çəkilib və uzunluğu 12,5 kilometr olan sel ötürücü kanalın 10,4 kilometrlik hissəsi tikilib.

7 min 544 hektar ərazidə yaradılmış Sabirabad Pilot Aqroparkı da fəaliyyətini getdikcə genişləndirir. İqtisadi Zonaların İnkişafı Agentliyinin məlumatına əsasən, artıq 8 sahibkarlıq subyektinə aqroparkın rezidenti statusu verilib. Ötən müddətdə sahibkarlar tərəfindən 4100 hektar sahədə əkin işləri həyata keçirilib. Bu məqsədlə 22,4 milyon manat investisiya yatırılıb, 98 daimi, 397 mövsümi iş yeri yaradılıb. Hazırda parkın ərazisində müasir suvarma sistemlərinin tətbiqi ilə meyvəçilik (zeytun, nar), toxumçuluq (buğda, arpa), heyvandarlıq, taxılçılıq və pambıqçılıq təsərrüfatlarının yaradılması istiqamətində işlər aparılır.

# Qarabağ və Şərqi Zəngəzur ölkəmizin enerji poliqonudur

*“Azərişıq” 5 ildə gerçəkləşdirilmiş layihələri şərh edib*



**“Azərişıq” ASC rəhbərliyinin Zəngilanda keçirilən mətbuat konfransında bildirilib ki, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı yenidənqurma layihələri çərçivəsində doğma sakinlərinə qovuşan rayon və kəndlərin dağıdılmış elektrik təsərrüfatı da yenilənir, müasir dayaqlar quraşdırılır, elektrik xətləri çəkilir, eləcə də yeni güc mərkəzləri yaradılır.**

Vətən müharibəsindən ötən 5 il ərzində Şuşada Rəqəmsal İdarəetmə və Elektrik Şəbəkələrinin İnnovativ Texnologiyalar mərkəzləri də daxil olmaqla 35/0,4 kV-luq 7, Daşaltı kəndində isə 35/10 kV-luq bir yarımstansiya, Hadrut qovşaq yarımstansiyası istismara verilib.

2024-cü ildə Prezident İlham Əliyevin iştirakı ilə iki böyük güc mərkəzinin rəsmi açılışı gerçəkləşib. Belə ki, sentyabrın 2-də Kəlbəcərdə 110/35 kV-luq İstisu yarımstansiyası işə salınıb, oktyabrın 3-də Zəngilan Elektrik Şəbəkəsinin Rəqəmsal İdarəetmə Mərkəzi açılıb. Bundan başqa, artıq Ağdam Elektrik Şəbəkəsi və Rəqəmsal İdarəetmə Mərkəzi də istismara hazırlanıb.

Hazırda işğaldan azad olunmuş ərazilərdə 35 kV-luq yeni güc mərkəzlərinin inşası aparılır. Belə ki, Laçında müasir yarımstansiya və Rəqəmsal İdarəetmə Mərkəzi tikilir, 110/35/10 kV-luq Minkənd yarımstansiyasının inşası davam etdirilir, Ağbulaq SES və Minkənd yarımstansiyaları arasında 35 kV-luq iki dövrəli ötürücü xəttin çəkilişi yekunlaşdırılır, Xocalı yarımstansiyası və İdarəetmə Mərkəzi, Əsgəran, Malıbəyli və Sığnaq yaşayış məntəqələrində yarımstansiyaların tikintisi həyata keçirilir.

Bütün bunlarla bərabər, Kəlbəcərdə Zallar, Yanşaq, Qamışlı və Çaykənd, Laçında Güləbird, Şəlvə, Ərikli, Kürdhacı, Ağdamda Eyvazxanbəyli, Xocalıda Aşağıquşçu, Yuxarıquşçu, Şuşada Qaybalı, Xocavənddə Hadrut qəsəbəsi, Tuğ və ətraf kəndləri, Füzulidə Dövlətyarlı, Pirəhmədlivə, Dədəli, Cəbrayılda Horovlu, Şükürbəyli kəndləri və Xudafərin qəsəbəsinin xarici elektrik təchizatının təmin olunması məqsədilə 35 kV-luq iki dövrəli elektrik veriliş xətlərinin çəkilişi davam edir.

Mətbuat konfransında qeyd edilib ki, son 10 ildə “Azərişıq” ASC tərəfindən ölkə üzrə həyata keçirilən əsaslı təmir və yenidənqurma işləri çərçivəsində 20 min kilometr uzunluğunda müxtəlif gərginlikli müasir elektrik veriliş xətləri çəkilib. Bu dövrdə 30 min kilometrə yaxın mövcud elektrik veriliş xətləri təzələri ilə əvəzlənib, 40 ədəd müasir 110/35 kV-luq, 227 ədəd 35 kV-luq yarımstansiya tikilib, 7 min yeni transformator məntəqəsi quraşdırılıb, həmçinin 700 min köhnə sayğac müasir ölçü cihazları ilə yenilənib.

Son 10 ildə abonentlərin sayı 2 milyon 359 mindən 2 milyon 993 minə yüksəlib. Quraşdırılan smart sayğacların sayı isə 386 mindən 1 milyon 120 minə çatıb. “Azərişıq”ın həyata keçirdiyi uğurlu strategiya nəticəsində şəbəkənin qoyuluş gücündə də əhəmiyyətli artım qeydə alınıb. Təkcə son bir ildə bu göstərici 14 min 400 MVA-dan 14 min 900 MVA-ya yüksəlib.

Bildirilib ki, maliyyə idarəetməsinin və xidmət keyfiyyətinin davamlı təkmilləşdirilməsi nəticəsində “Azərişıq” ASC son 10 ildə mühüm uğurlar əldə edib. Bu müddətdə enerji yığımı göstəricisi 80 faizdən 97,6 faizə yüksəlib, texniki itkilər isə 13,9 faizdən 8,5 faizə endirilib.

Mətbuat konfransında paytaxtda, regionlarda, eləcə də işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda “yaşıl” enerji ilə dəstəklənən enerjidoldurma məntəqələrinin quraşdırılması və dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi barədə də məlumat verilib, Bakı və ətraf ərazilərdə 22, işğaldan azad olunmuş ərazilərdə 7, digər regionlarda isə 15 enerjidoldurma məntəqələrinin fəaliyyət göstərdiyi vurğulanıb.

# Milli iqtisadiyyat 2025-ci ildə 4 faiz də böyüyəcək




**“Moody’s Investors” Beynəlxalq Reytinq Agentliyi 2025-ci ildə Azərbaycan iqtisadiyyatının, təxminən, 4 faiz artacağını proqnozlaşdırır. Agentliyin hesabatında bildirilir ki, ölkə iqtisadiyyatı gözləniləndən daha sürətlə böyüyür.**

2024-cü ildə real ÜDM-in artımı 4,1 faiz təşkil edib ki, bu da 2023-cü ildəki 1,1 faizlik mülayim artımdan və iyulda gözlənilən 3 faizlik göstəricidən əhəmiyyətli dərəcədə yüksəkdir. Bu inkişaf əsasən, qeyri-neft sektorunun artımı ilə dəstəklənib və sektorun ötənilki artımı 6,2 faiz olub.

Hesabatda qeyd edilir ki, karbohidrogen qiymətlərinin mülayimləşməsi və büdcə xərclərinin artması nəticəsində 2024-cü ildə konsolidə edilmiş fiskal profisit ÜDM-in təxminən 4 faizi səviyyəsində olub. Bu, 2023-cü ildəki 8,2 faizlik profisitlə müqayisədə azalmadır. Buna baxmayaraq, agentlik dövlət büdcəsi kəsirinin ÜDM-in 1-2 faizi səviyyəsində qalacağını proqnozlaşdırır. Bu, borc ehtiyaclarını məhdudlaşdıracaq və borc yükünü ÜDM-in 30 faizdən aşağı saxlayacaq.

# Emal sənayesində istehsal 19 milyard manatı ötüb

**Dövlət Statistika Komitəsindən “XQ”yə verilən məlumata görə, ötən il ölkəmizin emal sənayesində 19,1 milyard manatlıq (2023-cü illə müqayisədə 1,06 milyard manat və ya 5,9 faiz çox) məhsul istehsal olunub və sənaye xarakterli xidmətlər göstərilib.**

Hesabat dövründə emal sənayesində neft məhsulları istehsalının həcmi 4,7 milyard manat (illik müqayisədə 0,2 milyard manat, yaxud da 4,8 faiz çox) olub. 2023-cü ildə bu sahədə məhsul istehsalının həcmi isə 4,5 milyard manat təşkil edib.

İkinci ən çox istehsal qida məhsulları sektorunda müşahidə edilib. Bu sahədə buraxılan məhsulların həcmi 4,6 milyard manat (2023-cü illə müqayisədə 0,1 milyard manat, yaxud da 3,3 faiz çox) olub. Kimya sənayesində məhsul istehsalının həcmi isə



1,556 milyard manata (illik müqayisədə 6 milyon manat və ya 0,4 faiz çox) yüksəlib.

# Fındıq ixracı – 129 milyon dollar gəlir

**2024-cü ildə Azərbaycandan dünya bazarına 128,9 milyon ABŞ dolları dəyərində 20,2 min ton meşə fındığı ixrac edilib. Dövlət Gömrük Komitəsindən aldığımız məlumata görə, bu göstərici həcm baxımından əvvəlki illə müqayisədə 3,2 min ton və ya 13,8 faiz az olsa da, dəyər baxımından 5,7 milyon dollar və 4,6 faiz çoxdur.**

Ümumilikdə, ötən il meşə fındığı ixracı ölkənin ümumi ixracının 0,49 faizini, qeyri-neft sektoru üzrə ixracının isə 3,84 faizini təşkil edib. 2024-cü il ərzində Azərbaycandan 707,8 milyon ABŞ dolları dəyərində 686,2 min ton meyvə və tərəvəz ixrac olunub. Hesabat dövründə meyvə və tərəvəzin ümumi ixracdakı payı 2,67 faiz, qeyri-neft məhsullarının ixracında olan çəkisi isə 21,09 faizə bərabər olub.

Eyni zamanda, ötən il Azərbaycana ümumi dəyəri 281,8 milyon ABŞ dolları olan 375 min ton meyvə və tərəvəz idxal edilib. Bu növ məhsulların idxalının dəyəri əvvəlki ilə



nisbətən 51,9 milyon ABŞ dolları (22,6 faiz), həcmi isə 22,2 min ton (6,3 faiz) artıb. Hesabat dövründə meyvə və tərəvəzin ümumi idxaldakı payı 1,34 faiz təşkil edib.

# Haqsız rəqabətə yer yoxdur!

**2024-cü ildə İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti hökmran mövqe və nisbətən yüksək bazar gücündən sui-istifadə hərəkətləri ilə müvafiq bazarlarda rəqabətin məhdudlaşdırılmasına yol verilməsi üzrə 161 müraciətə baxıb. Bu isə əvvəlki illə müqayisədə 3 dəfə çoxdur.**

Dövlət Xidmətindən verilən məlumata görə, il ərzində rəqabətin məhdudlaşdırılmasına yol verilməsi üzrə baxılmış müraciətlərin 57 faizi və ya 92-si təmin edilib. Qurum biznes subyektlərinin bazara girişini çətinləşdirən halların qarşısının alınması və aradan qaldırılması istiqamətində tənzimləyici tədbirləri davam etdirir.



*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Daş yollarda baş qoyan oğul

**Müharibə atəşdir, düşdüyü yeri yaxıb yandırır. Döydüyü qapı açılmasa, bacadan girib qocasından uşağına hər kəsi qarsıb-qovurur, körpələrin üzündəki sevinci, gülüşü dondurur. 30 ildən çox bir zamanda yurdumuza dadanmış yağı xalqımızın evinə-ocağına atəş yağdırdı.**

Ta o vaxta qədər ki, Kamran kimi oğullar böyüyüb boy göstərdilər düşmənə. Bizim qiyamətə saxlamayacağımız bir qisasımız var deyə, iki körpəsini ömür-gün yoldaşına əmanət edib, vətən övladlarının işıqlı gələcəyi üçün azadlıq savaşına girdi.

27 sentyabr, o payız sabahı illərdir sinəmizdə kösöv kimi tüstülənən dərdimizin üstünə su səpildi. İşıq görünürdü qaranlığın son ucunda. Torpaq uğrunda torpağa düşürdü oğullarımız. Onlar şəhid düşdükcə, ata-anaların ürəyinə atəş düşürdü. Yevlaxlı Vaqif kişi də o atalardan biridir. Mən onu əvvəldən tanıyırdım, zəhmətsevər, alnının tərilə halalından qazanıb, ailəsini, övladlarını da halal çörəyilə saxlamışdı. Kişilər ağlamaz deyirlər. Niyə axı, Vaqif Kamran kimi çinarboylu oğul itirmişdi. Şəhid balasının dəfn mərasimində onun göz yaşlarını ürəyinə necə axıtdığının şahidiyəm.



Vaqif İsmayılov ömür-gün yoldaşı Şərafət xanımla alınlarının təri, əllərinin zəhmətilə 2 oğul böyütmüşdülər. Biri-birindən



yaraşıqlı, tərbiyəli, vətənpərvər. Kamran evin böyük oğlu idi, 4 ildi evlənmişdi. Həsrətlə ikinci nəvələrinin yolunu gözləyirdilər. Otuz il əvvəl başlayan ədalətsiz savaşın ədalətli sonu başlamışdı. On minlərlə oğul heç düşünmədən, göz qırpmadan cəbhəyə yollandı. Onlardan biri də Kamran idi.

İsmayılov Kamran Vaqif oğlu 1991-ci ilin bir soyuq qış günündə – fevralın 9-da Yevlaxda doğulmuşdu. Milli qəhrəmanımız Mübariz İbrahimov da bir fevral günündə doğulmuşdu. O vaxtlar böyüyən oğlan uşaqları özlərini Mübarizə bənzədirdilər, böyüyəndə Mübariz olacam, deyirdilər. Mübariz kimi oğul olmaq istəyən Kamran orta təhsilini anasının riyaziyyat müəllimi işlədiyi Yevlax şəhər 3 nömrəli tam orta məktəbdə bitirmişdi. Valideynlərinin təkidilə təhsilini davam etdirmək üçün sənədlərini ali məktəbə vermiş və qəbul olunmuşdu. Ancaq anası Şərafət müəllim Kamranın "Mən yalnız hərb üzrə oxuyacağam" sözünün qətiliyini görüb, təslim olmuşdu.

Bütün qəlbi ilə hərb sənətinə bağlı olan Kamran Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məkəbinə daxil olur və 2012-ci ildə buranı müvəffəqiyyətlə başa vurur. Gənc zabitin vətəninə ilk xidmət yeri Tovuzdakı "N" saylı hərbi hissədən başlayır. Göstərdiyi nümunəvi xidmətə görə 2015-ci ildə baş leytenant rütbəsinə layiq görülərək, tağım komandiri vəzifəsinə irəli çəkilir. 2017-ci ildə xidmətinə Qazax rayonunda davam edir. 2018-ci ildə bölük komandiri vəzifəsinə təyin edilir. 2020-ci ildə isə ona kapitan rütbəsi verilir.

General-mayor Polad Həşimovun rəhbərlik etdiyi hərbi hissələrdən birində xidmət etməsindən qürur duyur, "Belə generallarımızla müharibəni tezliklə Qələbə ilə başa vuracağıq" – deyirdi. Hər bir hərbçinin sevimli generalı olan Polad Həşimovun şəhid xəbəri Kamranın da ermənilərə intiqam hissini coşdurmuşdu.

Komandiri olduğu əsgərlər Kamranı hədsiz çox sevirdilər. Köhnə Qışlaq kəndində onlar üçün gözəl bir şərait düzəltmişdi. 2600 metr hündürlüyündə olan posta düşmənlər çox cəhd göstərsələr də, yaxın dura bilmirdilər. Müharibə başlananda Tərtərin Talış və Suqovuşan kəndləri istiqamətində döyüşlərə təyinatlanır Kamran. İlk gündən ön cəbhədə ağır savaşlara girir və qəhrəmanlıqlar göstərir. Talış və Suqovuşan azad edilir, düşmənin alınmaz qala hesab etdiyi istehkamları igidlər darmadağın edir.

Valideynlərinə, həyat yoldaşı Lamiyəyə, oğluna çox bağlı idi Kamran. İmkan tapan kimi bir dəqiqəlik də olsa anasının, xanımının səsini eşitmək üçün telefona cumurdu. Ailəsindən, övladından arxayın olmaq, onların səsini eşidib, bir hovur nəfəs almaq istəyirdi. Lamiyə xanıma son telefon zəngində "Mən haqqımı hamınıza halal edirəm. Siz də haqqınızı halal edin. Bir də balam Kənanı çoxlu-çoxlu öpün", – deyib.

Oktyabrın 8-də Suqovuşan uğrunda gedən növbəti qanlı döyüşlərin birində kapitan, tağım komandiri Kamran İsmayilov qəhrəmanlıqla şəhid olur. Nəşi oktyabrın 10-da aktiv döyüş bölgəsindən çıxarılaraq, ailəsinə təhvil verilir. Oktyabrın 11-də Yevlaxın Şəhidlər xiyabanında dəfn olunur. Onu yola salmağa döyüş yoldaşları ilə yanaşı, rayonun bütün rəsmiləri, yevlaxlılar gəlmişdi.

Dəfnindən bir neçə gün sonra telefonundan bir mesaj tapıldı: "Qızım olsa, adını Günay qoyun". 2021-ci il yanvarın 2-də Kamranın Günayı dünyaya gəldi. O, bu torpağın üstündə xoşbəxt yaşasın deyə, torpağa baş qoydu atası. Kamranın yadigarları Kənan 7, Günay isə 4 yaşındadır. Dövlət şəhidin xanımını və uşaqlarını Sumqayıtda mənzillə təmin edib. Həyat yoldaşın Lamiyə xanım deyir ki, yoldaşımın yarımçıq qalmış arzularını Kənanın və doğulmadan adını qoyduğu Günayın həyatında gerçəkləşdirəcəm, övladlarını istəydiyi kimi böyüdəcəm.

İsmayılov Kamran Vaqif oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə "Azərbaycan bayrağı", "III dərəcəli Vətənə xidmətə görə" ordenləri, "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur.



# Qarabağ zəfərinin Mübariz müjdəçisi



**Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovun doğum günündə Azərbaycan Ordusunun bir qrup hərbi qulluqçusu şəhidimizin məzarını ziyarət edib, üzərinə gül dəstələri düzərək xatirəsini ehtiramla anıb.**

Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində davam edən xatirə mərasimdə çıxış edənlər xalqımızın tarixən öz qəhrəmanları ilə seçildiyini qeyd edərək, Mübariz İbrahimovun göstərdiyi şücaət və qəhrəmanlıqdan danışıblar. Onlar bildiriblər ki, Mübariz İbrahimov gələcək qələbəmizə dərin inamı, əfsanəvi qəhrəmanlığı, düşmənə vurduğu sarsıdıcı zərbəsi ilə Qarabağ zəfərimizin müjdəçisi olub. Toplantıda əbədiyaşar qəhrəmanın timsalında bütün şəhidlərimizin xatirəsinin xalqımızın yaddaşında daim əziz tutulacağı xüsusi vurğulanıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamına əsasən, ölkəmizin müstəqilliyi və ərazi bütövlüyünün qorunub saxlanılmasında müstəsna xidmətinə və göstərdiyi rəşadətə görə gizir Mübariz Ağakərim oğlu İbrahimova ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verildiyi diqqətə çatdırılıb.

Daha sonra tədbir iştirakçılarına şəhidimizin həyat və döyüş yolundan bəhs edən videoçarx təqdim olunub.

Sonda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin yaradıcı heyəti tərəfindən şəhidlərimizin xatirəsinə həsr olunan, vətənpərvərliyi və qəhrəmanlığı tərənnüm edən musiqilər səsləndirilib.

***T.AYDINOĞLU***
***XQ***

# Şəhid oğluna qovuşan ana



**Qarabağ həm də qəhrəmalıq dastanıdır! O dastanı yaradan oğullardan biri də şəhid Elnur Şirinzadədir.**

1998-ci il fevral ayının 10-da Yevlax şəhərində sürücü Xalıqverdi kişinin ailəsində göz açmışdı Elnur. Gəlişi ilə sevinc, xoşbəxtlik gətirmişdi ata-anasına. Xalıqverdi ailəsini minbir zəhmətlə, alnının tərilə dolandırır, iki balasını böyüdürdü.

Elnur Yevlax şəhəri 5 saylı tam orta məktəbin məzunu idi. Təhsildə çox fərqlənib, nizam-intizamlı şagird olub deyirlər. 5 iyul 2018-ci ildə Agdam Dövlət Sosial-İqtisadi Kollecində təhsilini davam etdirib. Kolleci də yaxşı qiymətlərlə bitirən kimi həqiqi hərbi xidmətə yollanıb. Əsgərlikdən qayıtdıqdan sonra Yevlaxda "İdeal" komputer mərkəzində operator ixtisasına yiyələnib. İntizamlı, işində-gücündə sağlam bir gənc yetişirdi ailədə.

Uşaqlıqdan memar olmaq arzusu varmış. Odur ki, Elnur sənədlərini Azərbaycan Memarlıq və İnşaat Univerisitetinə verir və arzusuna catır. Dünya bəlası pandemiya ilə əlaqədar tələbə olması barədə cavab gec gəlir. Elnur qəbul sənədini almadan könüllü olaraq 21 sentyabr 2020-ci ildə vətənimizin azadlığı uğrunda müharibəyə yola düşən orduya qoşulub, hazırlıq keçir.

Sentiyabrın 27-dən Elnur Talış, Suqovuşan istiqamətlərində gedən qızğın döyüşlərdə mərdliklə vuruşur. Yagış kimi yağan güllələrdən, snayper atəşindən, ölümdən qorxmadan irəli gedən Elnurun bu cəsarəti döyüş yoldaşlarını narahat edirmiş. Tez-tez ona deyirmişlər ki, döyüşdə çox irəli getmə, məqamı gözlə, ara sakitləşəndə yaralıları, şəhidləri çıxaraq.

Elnur isə düşmənə nifrətdən alışıb-yanır, dayanmır, irəli cumur, həm döyüşür, həm də yaralıları qaynar xəttən kənara çıxarmağa cəhd edir. Qanlı Suqovuşan döyüşlərində əfsanəvi şəkildə döyüşür, yaralanan yoldaşlarını döyüş nöqtəsindən çıxarırdı. Üç yaralanmış yoldaşını döyüş bölgəsindən çıxarıb gətirir və yenidən geri qayıdır. Dördüncü yaralını xilas etmək istəyərkən özü də şəhid olur.

O, sentyabrın 27-dən oktyabrın 11-nə, yəni şəhidlik zirvəsinə ucalan günə qədər döyüşlərdə qəhrəmanlıq göstərib. Son nəfəsinəcən dogma torpaqlarımızın azad olunması üçün canını fəda edib. Döyüşçü dostlarının dediyi kimi, Elnur ucaboy idi, tutduğu mövqe də ucadır, əlçatmazdır.

Anası Gültəkin xanım – övlad dərdinə dözməyən ananın göz yaşları yerinə qanlı yaş axırdı yanağından, oğul deyib, nalə çəkirdi: "Oktyabrın 8-də evə zəng vurub



məni soruşub. Həmin gün mən Bakıda Elnurun universitetə qəbul olması barədə sənədi alırdım, sevinə-sevinə, yaraşıqlı balamın gələcəyin ən tanınmış memarı olacağı xəyalı ilə yaşayırdım. Deyirdi ki, ana, tez-tez zəng eləməyin. Döyüş səngiyən kimi özüm mütləq sizə zəng vuracam. Əgər görsəniz ki, 2 gündür zəng etmirəm, onda özünüz zəng vurarsınız... Övladının ali məktəbə qəbul sənədini yenicə almış ana 2 gün sonra şəhid xəbərini alır. Elnur 2020-ci il oktyabrın 12-də Vətən torpağına əmanət edilir.

Arzuları vardı ananın, ona xonçalar bəzəyəcəkdi, boyunu sevəcəkdi, gəlin gözləyəcəkdi. Atası toy qonaqlarını qarşılamaq üçün qapıda duracaqdı, qohumları qol qaldırıb oynayacaqdı. Elnur isə ata-anasının arzularını vətəni yaşatmağa dəyişdi. Hər dəfə Gültəkin ananı görəndə ürəyimdən bu sözlər keçirdi: "Bizi bağışlayın, oğul toyu görməyən analar, bizi bağışlayın, barmağında nişan üzüyü nakam, qara yaylıga bürünən gəlinlər".

Elnur Şirinzadənin həyat hekayəsi, anasının çəkə bilmədiyi dərd yükü hər kəsi kədərə boğmuşdu. Mən də göz yaşlarıma hakim ola bilmirdim. Başımı qaldırıb, qarşımda gözlərində dərin kədər, çiyinlərində daşıya bilməyəcəyi yük olan Gültəkin xanıma, Xalıqverdi kişiyə baxdığım günü xatırladıqca, o günləri təkrar yaşayıram. Mənə baxıb: "Təki Vətən sağ olsun", – deyirdi ana. Amma ana özü yaşamadı, övlad dağına dözmədi sinəsindəki ürək. Gültəkin xanım keçən il dünyasını dəyişdi nakam taleli oğluna qovuşdu...

İndi bir evin damı altında Xalıqverdi kişi tək qalıb. Elnurun kiçik qardaşı Elmir Azərbaycan İdman Akademiyasının sonuncu kursunda təhsil alır.

Bir vaxtlar o evə, Gültəkinlə, Xudayara baş çəkməyə gedirdim, Elnurun əziz xatirəsinə bəzədikləri otaqda oturub dərdləşirdik. Ana oğul dərdinə hər gün biraz da körüklənirdi, heç səngimirdi ürəyinin yanğısı. İndi o ev ana hərarətindən, ana qayğısından da məhrum qaldı. Budur müharibə. Doğrudan da dünyada istehsal olunan bütün silahların hədəfi anaların ürəyidir.

Elnur Xalıqverdi oğlu Şirinzadə ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə" və "Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

***Əminə YUSİFQIZI,***
***Əməkdar jurnalist***

Təqvim yada salır

# Xalqımıza başucalığı gətirmiş xilaskar əsgər

## *Qəhrəman Rahib Məmmədovun xatirəsi anılıb*



**Dünən Ağdamın Mahrızlı kəndində bu torpağın yetirməsi, 37 il əvvəl fevralın ilk günlərində Gürcüstanda daşqın zamanı çoxsaylı insanı ölümdən xilas edərkən qəhrəmancasına həlak olmuş cəsur əsgər Rahib Məmmədovun xatirəsi ehtiram yad edildi.**

"19 yaşlı xilaskar" adlı mərasimdə əvvəlcə Rahib Məmmədovun Mahrızlı kənd tam orta məktəbinin qarşısındakı büstü önünə gül dəstələri düzüldü. Məktəbin iclas salonunda keçirilən toplantıda bir zaman adı və hünəri Sovet İttifaqında əfsanəyə çevrilmiş soydaşımızın heç zaman solmayan qəhrəmanlığından xalqımıza başucalığı gətirmiş igidlik, çağdaş nəsillərə örnək kimi söhbət açıldı.

YAP Ağdam rayon təşkilatının sədri Mansur Quliyev, "Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri" İctimai Birliyinin rayon şöbəsinin sədri Baxşeyiş Hətəmli, Mahrızlı kənd tam orta məktəbinin direktoru Könül İbrahimova və başqaları çıxışlarında bildirdilər ki, Rahib Gülmalı oğlu Məmmədov 1967-ci ildə Ağdam rayonunun Mahrızlı kəndində anadan olub. 1987-ci ildə hərbi xidmət keçdiyi Gürcüstanın Xobi rayonunun Çaladidi kəndində böyük fədakarlıq göstərərək, təbii fəlakət zamanı 28 sakini seldən xilas edib və qəhrəmanlıqla həlak olub.

Ölümündən sonra igid soydaşımız Keçmiş SSRİ-nin qəhrəmanlıq nişanı olan "Qırmızı ulduz" ordeni ilə təltif olunub. Təhsil aldığı Mahrızlı kənd tam orta məktəbinə onun adı verilib. Məktəbin həyətində Rahib Məmmədov adına Döyüş şöhrəti muzeyi yaradılıb. Bakının Xətai rayonunun Əhmədli yaşayış massivində Rahib Məmmədov adına küçə var. Gürcüstanın Çaladidi kəndində cəsur əsgərin abidəsi qoyulub.

Mərasimdə Sahib Məmmədov qardaşı Rahib Məmmədovun xatirəsinin əziz tutulmasına görə minnətdarlığını bildirdi..

Xatirə məclisi Rahib Məmmədova həsr olunan "Əbədiyyətə qovuşan ömür" adlı sənədli filmin nümayiş ilə başa çatdı.

***T.RÜSTƏMLİ***
***XQ***

Günün sənət söhbəti

# Dəyişən fəsillər və ədəbi nəsillər

(əvvəli ötən sayımızda)

## Hər kitabın öz taleyi...

Həyat çox qəribədir, bəzən ovçu, vurmaq istədiyi ovu, düzü-dünyanı ayaqladıqdan sonra, evinin qarşısındakı dərədə tapır. Çevrəmizdə yaşca bizdən kiçik olanlara, nədənsə, yaşını-başını aldıqdan sonra da uşağa baxan kimi baxırıq. Halbuki, bir az diqqətli olsaq, ola bilsək, çevrəmizdəki insanların içində nə qədər fərqli talelərin olduğunu görərik.

İş otağımdakı kitab rəflərində bir-birinin üstündə qalaqlanmış kitabları dərslik aramaq üçün qarışdırarkən Akif Əhmədgilin "Ürəyimin sümüyü yoxdur" kitabı qarşıma çıxdı. Bu kitabı oxumuşdummu? Yadıma gəlmir! Adətimdir, oxuduğum kitabları karandaşla oxuyur, qeydlər edirəm, açıb baxdım, qeyd-filan yoxdu. Oxumağa başladım. İsti-isti oxusaydım, bəlkə də əyər-əskiyini görməyəcəkdim, ya da belə desəm daha doğru olar, görmək istəməyəcəkdim. İndi aradan bir bu qədər vaxt keçdikdən sonra bu kitabın az da keçməyən zaman sınağından necə çıxacağı, əlbəttə, maraqlı idi. Rus yazarı A.F.Losyevin haçansa belə bir fikrini oxumuşdum: Həqiqi bədii əsərlərin başqa yazılardan fərqi orasındadır ki, onlar tükənməzlik özəlliyinə sahibdir. Başqa sözlə, belə əsərləri bir dəfə yox, dəfələrlə oxumaq istəyirsən. Və hər dəfəsində də sənətkar ilhamının yeni keyfiyyətləri ilə qarşılaşırsan.

Akifin kitabını bu istəklə oxumağa başladım. Və oxuya-oxuya da nədənsə onunla ilk tanışlığım günlərə getməli oldum. Tovuzun "Həqiqət" adlanan rayon qəzetində ədəbiyyat dərnəyi vardı. Dərnəyi Oğuz torpağının ən önəmli ağsaqqallarından biri, qəzetin o zamanlardakı dəyişməz redaktoru Musa Musayev açmışdı. Musa Musayevin və onun təşkil etdiyi dərnəyin Tovuzdan çıxan ədəbiyyat adamlarının taleyində ayrıca, danılmaz bir yeri var. Hardasa yetmişinci illərin sonuna doğru rayona səfərlərimin birində "Həqiqət" qəzeti redaksiyasına getmişdim. Təsadüfən o gün ədəbiyyat dərnəyinin növbəti məşğələsi keçirilirdi. Musa müəllim məni dərnək iştirakçıları ilə tanış etdi. Yan-yana oturan, hələ bığ yerləri tərləməmiş iki qardaşı göstərib: – "Namiqlə Akif dərnəyə Alakoldan gəlirlər, – dedi, – çox istedadlı uşaqlardır".

Akif Moskvada Lomonosov adına Universitetin jurnalistika fakültəsini bitirəcək, çeşidli yerlərdə çalışacaqdı. Sonralar həyatın müxtəlif mərhələlərində qarşı-qarşıya gələcək, hətta 1988-ci ildə yollarımız "Gənclik" jurnalında kəsişəcək, Akiflə eyni iş yerini də paylaşacaqdıq. Amma buna qədər Akifi şair kimi mənə tanıdan bir şeiri diqqətimi çəkəcəkdi: "Dəniz yaman şirindir":

**...Sərt sular arada çəpərdi bizə,**
**Vallah ləpələrin suyu bal dadır;**
**Sənin şirinliyin hopub dənizə,**
**Dəniz yaman şirindir.**

**...Düşmüsən könlümə, bəxtimə mənim,**
**Dəniz sularına düşən ay kimi.**
**Bir gün qapınıza elçi gələndə**
**Anan verəcəyi şirin çay kimi**
**Dəniz yaman şirindir.**



**...Əl çəkmir dənizdən qağayılar da,**
**Tamı şirinləşib göy ləpələrin.**
**Bəlkə çəmənlərin, bəlkə dənizin,**
**Bəlkə heç sənin də yoxdu xəbərin –**
**Dəniz yaman şirindir.**

Yaddaşıma hopan bu misralar Tovuzdan yeni bir şairin də doğulduğunun xəbərçisi olacaqdı.

"Tovuz, tovuzlu" dedim, yadıma neçə il əvvəl bir köşə yazarının ünvanına atdığı daşlar düşdü. Ünvanıma daş atanlara cavab verib onları şərəfləndirmək adətim deyil. Amma bu dəfə fikrimdən keçdi ki, heç olmasa, bir tovuzlu haqqında bir şey yazım ki, bu köşə yazarının yalanını gerçəyə döndərib, onu Yalançıoğlu Yartacıq olmaqdan qurtarım. Həm də Akiflə yollarımızın "Gənclik" jurnalında kəsişdiyini demişdim axı.

"Gənclik" jurnalının arxivi az-çox yaşamını sürdürə bilən bütün kitabxanalarda saxlanılır. Jurnalın arxivinə adi gözlə belə baxılsa, yuxarıda xatırlatdığım yazının yalan və iftira olduğu anlaşılar. Sadəcə onu demək yerinə düşər ki, əksinə, mən tovuzlullara "yer vermədiyimə", "çaplarına əngəl olduğuma" görə, aradan 25 il keçməsinə baxmayaraq, xatirə burulğanında hələ də qulağıma vətəndən qürbətə giley-güzarlar gəlməkdə davam edir. Əsərləri "Gənclik" də yer alan, deyək ki, yalnızca Yardımlıdan olan istedadların ümumi sayı Tovuzdan, Qazaxdan olanlardan qat-qat çoxdur. İlk oxuduğumda əhəmiyyət vermədiyim bu "tənqid"i, aradan bir bu qədər vaxt keçdikdən sonra indi niyə xatırlayası oldum? Hə, dedim axı, ən azından bir tovuzlu haqqında nəsə yazım ki, bir köşə yazarını yalançı çıxmaqdan xilas edim...

Kitabını uzun aradan sonra oxuduğum Akif Əhmədgil, yuxarıda dediyim kimi, ədəbiyyata gəliş baxımından "ara nəsillər"in təmsilçisidir. Amma elə indi mənim gec olsa da oxuduğum kitabı bunu deməyə haqq verir ki, Akif Əhmədgil gündəmdə tutulan, dəbdə olan şairlərdən heç də az iş görməyib. Servantes demişkən, hər kəs öz gördüyü işin övladıdır.

Tərif deməkdə və yazmaqda hamıdan xəsis olan Ə.Əylisli hələ qırxını yeni haqlayan Əhmədgilə ünvanladığı "Qırx yaşına salam olsun, Akif bəy!" məqaləsində, baxın, nə yazmışdı: "Lap elə bu günlərdə sənin kitabını oxuyub, o kitabın hesabına bir az da kövrəlib qövr eləyən ürəyimi bu şəhərdə küçə-küçə gəzdirəndə çox məhsuldar yazıçılarımızdan birinin çox təntənəli yubiley mərasimində bir vaxt sevdiyim bu fikir birdən yadıma düşdü: "Təbiətdə gücü, selləmə, şıdırğı yağışlar da olur, adicə, sakitcə, aram-aram yağan yağışlar da. Və lap bir anlıq, birçə dəqiqəlik sakit yağan o yağışdan sonra haradasa bir yolun qırağında doğulub dünyaya gələn bir cüt bənövşə bir böyük sevinc olub, bir uşağın xatirində ömürlük qala bilər". Sən mənim aləmimdə, bu yurddan şairlərin payına düşən sonsuz-sərhədsiz, adsız-ünvansız torpağa asta-asta, aram-aram yağan o YAĞIŞA bənzəyirsən, əzizim Akif".

Əkrəm Əylislinin bu dəyərli fikirlərinə nə əlavə etmək olar? Niyə mən hər zaman ona sadəcə mənə sayğı göstərən bir insana baxan kimi baxmalı idim? Söhbət Akifin həyat hekayəsindən yox, şair taleyindən gedir. Gözümdə onun şair sehrinin az olmasının səbəbini eyni yerdə çalışmağımızda və mənim ona hardasa istedadlı bir işçi kimi baxmağımda aramaq lazımdır. Burada onun öz günahı da az deyil, çünki jurnalın şeir şöbəsinin müdiri kimi öz şeirlərindən daha çox, köşə yazarının iddia etdiyi kimi, qazaxlıların, tovuzluların şeirlərini yox, istedadlı cavan şairlərin şeirlərini çap etdirmək üçün çalışırdı. Və özünə qarşı təvazö örnəyi olduğundandır ki, budur, bax, mən də o keçmiş alışqanlıqla Akifin kitabını 12 ildən sonra oxuyuram.

Kitabın ilk səhifələrindəki şeirlərdən biri "Adından böyük adamlar" adlanır:

**Adından böyük adamlar –arıdı.**
**Adları – bal.**
**Hərdən uyub balına**
**Unutmuşuq**
**Baldan şirin arını..."**

Akif – adından böyük adamdır və elə bilirəm, özü bunu yuxarıda gətirdiyim misaldan da göründüyü kimi, hamıdan yaxşı dilə gətirib. Və mənə elə gəlir ki Akif hardasa elə bir az özü ilə mənim aramdakı münasibətləri düşünərək, ona istedadlı bir şairdən daha çox, istedadlı bir işçi kimi baxılmağın yanlış olduğunu sübut etmək üçün yazıb bu şeiri. Oxuduğum kitab da bunu deyir hardasa: Mənim sahibimdən yaxşı insan kimi yox, yaxşı bir şair kimi danışmağa səni məcbur edəcəm, hələ bir məni oxu!

Və..."Bu adam"ın:

**Ölüm göndərdilər dalınca bir gün**
**Adına çatmadı, özünə çatdı.**
**Atlını öldürüb ata mindilər,**
**Adından kiçik adamlar.**

**...Dəyərmi, dəyməzmi səhv edilməyə!**
**Səfərə çıxıbsa Kolumb gəmisi,**
**Deməli, yenidən kəşf edilməyə**
**Hardasa yeddinci bir materik var.**

Kəşfolunmazlığın kəşfi! Ya da kəşf olunmaq həsrəti! Adına nə deyirsiniz deyin, kitabı oxuduqca yavaş-yavaş adam kimi tanıdığım Akifi şair kimi də kəşf eləməyə başlayıram.

Həyatın qəribə işləkləri var, bəzən sənin dürüstlüyün, halalığın, mərdliyin, istedadın hamıdan çox sənin başına bəla olur. "Niyə onun etdiyini mən edə bilmədim" qibtəsi hansı fəsadlar törətmir ki?! O adamlar ki halalla yaşamaq üçün yalnız yuxularına haram qatırlar, onlara qarşı kin bəsləyənlərin kini öz qursaqlarında qalacaq:

**Mənim bir əlimin beş küçəsi var...**
**Şəhadət küçəsi, baş küçəsi var.**

**"Mənim bir əlimin beş küçəsi var."**
**Ay mənə ümiddən dərs verən adam,**
**Verdiyin ümidi saydım minəcən.**
**Əsnəmə, əsnəyin əsnək gətirər,**
**Gözlərin yol çəkər gözlüyünəcən...**
**("Ümid adamına")**

Akifin şeirlərindəki kənd də, onun idillik görüntüsü də kimsəyə bənzəməyən bir başqa kənd mənzərəsidir:

**...Bənövşə əlləri bəndəmi düşmüş,**
**Sevən ürəklərin səbri tükənmiş.**
**Bir qızla oğlanın şəkli bulaqda –**
**Bu sular nə gözəl şəkilçəkənmiş!**

Və...

**Nərgiz qoxusu var yaz buludunda,**
**Torpaq qazansa da, göylər itirir.**
**Bahar kol dibində kövrək bənövşə**
**Bulud yamacında şimşək bitirir.**
**("Yaz günləri")**

Rəssamlar gözəlliyi əbədiləşdirib, anı daşlaşdırmağı bacaran bəxtiyarlardır. Zaman daxilində yaşamağa məhkum olanları zaman xaricində tutmaq mümkün deyil, L.N. Tolstoya görə. Sənət dünyası zaman dışında öz dövranını sürdürməkdədir, onda nə Keçmiş var, nə Gələcək, onda sənətkar ilhamı ilə tutulub saxlanılan əbədiyyət ünvanlı İndi var.

**(ardı var)**

***Məmməd İSMAYIL***

Rəhilə Həsənova – 100

# Sazda – aşıq, səsdə – müğənni...

**Tanınmış sənət adamı, Əməkdar artist Rəhilə Həsənovanın adı milli mədəniyyət tariximizə sazəndə-nazəndə qızların xoş sədalarından dərz bağlayıb, heyrət "taya"ları quran, ansamblın işıq halələrini ürəklərə yönəldən cəfakeş xanım kimi düşüb. Düz 60 il sənət yolunda can qoymuş bu unudulmaz saz-səs yiyəsi 80 yaşına 1 il qalmış fani dünyaya əlvida deyib.**



Rəhilə Mirələsgər qızı Həsənova 9 fevral 1925-ci ildə nur payı, şənlik müjdəçisi kimi doğulub. 14 yaşında "aypara" ikən klublarda, özfəaliyyət dərnəklərində parlamağa başlayıb. Gəlini Kəmalə Rəhimli deyir, sazı sinəsinə basıb və sonacan da orada saxlayıb, ətrafına dalğa-dalğa sevinc, fərəh yayıb. Və müstəsna hal kimi, çox erkən filarmoniyanın mahnı və rəqs ansamblına qəbul edilib. Ceyran baxışlı qızların əhatəsində ilk ifası "Ceyran bala" mahnısı olub.

1940-cı ildə Dövlət Filarmoniyasında Üzeyir Hacıbəylinin tövsiyəsi ilə yaradılan sazçı qızlar ansamblı onun "vizit kartı" olub. Filarmoniyanın direktoru, Cahangir Cahangirov (yeri gəlmişkən, o vaxt gələcəyin böyük bəstəkarı heyətin tərkibindəki saz çalıb-oxuyan qızlardan biri – Tahirə xanımla ailə qurub), Rəhilənin, Elmiranın, Səmayənin, Ulduzun... ulduzlarının parlamasına şərait yaradıb. Qızlar da Aşıq Ələsgərin "Bəzən, gözəl" deməsi ilə bəzənib-düzənərək, Səməd Vurğunun vəsf elədiyi uca "Dağlar"a çıxıb, "Güloğlan"ı səsləyib, "Əylən-əylən" söyləyib, "Gecələr"i səhər ediblər. "Muğana ceyran" yaraşan kimi, Rəhiləgil də konsert salonlarına yaraşıq veriblər. "Şənlik mahnısı" oxuyublar, səhnədə "Mən neynim" desələr də, həyatda, yaradıcılıqda deməyiblər.

**Gül kimi açdın, gözəlim,**
**Çiçəksən, çiçək.**
**Görəndə çaşdım, gözəlim,**
**Qəşəngsən, qəşəng,**
**Əylən, əylən, əylən...**

"Sazçı qızlar" ansamblının pərvərişində mahir dirijor, böyük bəstəkar Qəmbər Hüseynlinin, saz və qarmon ifaçısı Əhəd Əliyevin də mühüm xidmətləri olub. Qənbər müəllim sazçı qızlar ansamblının zəhmətini xüsusilə çox çəkib, bu musiqi birliyi üçün ruh oxşayan silsilə nəğmələr bəstələyib.

...Bəxtiyar Vahabzadənin "Şeirlər" kitabını bağışladığı zərdablı dostu, incəsənət fədaisi olan qarmonçu Zabit Soltanov həmin kitabda "Gecələr"ə elə həmin gecə musiqi bəstələyib. O deyirdi: "Gecələr"i çox bəyəndilər. Şövkət xanım kövrəldi də və dedi ki, Zabit, gözəl yazmısan, amma "Gecələr"də bədbin ruh var, bilirsən də, sənətdə bədbinlik sovet adamı üçün xarakterik deyil. Biz "Hə" desək də, bunu bəstəkar mahnısı kimi efirə buraxmayacaqlar. Gəl, belə edək, get Rəhilə xanım Həsənovanın yanına, mən də ona deyəcəyəm, qoy "Gecələr"i hələlik xalq mahnısı kimi ifa etsin". Zabit müəllim "Sazçı qızlar" ansamblında oxusun ki, bu cür mahnı itib-batmasın, həm də, bu musiqi onun səsinə çox düşərlidir. Beləcə, ilk dəfə Rəhilə Həsənovanın ifasında xalq mahnısı kimi efirdə səslənir, televiziyaya yol tapır.

**Tellərini dolayar boynuma Ay gecələr,**
**Mənim sirdaşımsınız, gecələr,**
**ay gecələr!**
**Fikrim dağda, aranda, yuxu hara –**
**mən hara?**
**Xəyalım sancılıbdır sayrışan ulduzlara.**
**Quştək uçur xəyalım hardan-hara**
**gecələr,**
**Mən həsəd aparıram yatanlara gecələr...**



Rəhilə Həsənova qeyd edirdi ki, ansambla cəlb olunan istedadlı qızlara saz çalmaq üçün ilkin qaydalardan başlayaraq sənət öyrədilirdi. Sazın çəkisinin ağır olmaması və simlərinin nazikliyi qızların onu sinədə rahat saxlamasını, zərif barmaqlarını alətin qolu üzərində rahat hərəkət etdirməsini şərtləndirirdi. Dövlət Filarmoniyasının "Sazçı qızlar"ı bu musiqi ocağının bədii kollektivləri arasında xüsusi yer tutur, sevilir, əzizlənib qorunur, diqqətdə saxlanırdı.

Ansambl 1944-cü ildə İranda olan Azərbaycan incəsənət ustalarının tərkibində uğurla çıxış edib, Cənub ordu əsgərləri qarşısında, Tehran, Təbriz, Ərdəbil, Zəncan, Ənzəli və digər şəhərlərdə konsertlər verib. Qızlar "Bəxtəvər, mən ölləm", "A ceyran", "Pəncərənin milləri", "Muleyli", "Xoş gəldin" mahnıları ilə salonları lərzəyə salıblar.

Rəhilə Həsənova və onun "Sazçı qızlar"ından söz düşəndə bu ansamblın filarmoniyada, Bakının mədəniyyət və təhsil ocaqlarında, televiziya və radioda parlaq çıxışları yada düşür. Qızların xalq havacatlarını necə şövqlə oxumaları xatırlanır. Rəhilə xanımın dediyi kimi, xəyal quştək hardan-hara uçur...

***Ə.DOSTƏLİ***
***XQ***

# "Divanü lüğat-it-türk" Qazaxıstanda

**Qazaxıstanda Türk Mədəniyyəti və İrsi Fondunun TİKA və Türk Dünyası Fondunun birgə əməkdaşlığı çərçivəsində "Divanü lüğat-it-türk" Beynəlxalq sərgisi açılış keçirilir. Qədim türk yazılı abidəsinin təqdimatı Türk Mədəniyyəti və İrsi Fondunun ikinci Şura Toplantısı çərçivəsində təşkil olunub.**

Sərgi XI əsrin görkəmli türk alimi və mütəfəkkiri Mahmud Kaşğarinin əsərinə - "Divanü lüğat-it-türk"ün 950 illiyinə həsr olunub. Bu sərgi çərçivəsində türkdilli xalqların zəngin mədəni irsini, dil və ədəbiyyatını əks etdirən nadir eksponatlar, tarixi əlyazmalar və XI əsrə aid türklərin mədəni quruculuq aspektinə diqqət çəkən əşyalar təqdim edilib.



Xatırladaq ki, "Divanü lüğat-it-türk" əsərinin yaranmasının 950 illiyi münasibətilə, eləcə də sözügedən əlamətdar hadisənin 2024-2025-ci illərdə UNESCO çərçivəsində qeyd olunacaq yubileylər siyahısına daxil edilməsi ilə əlaqədar Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən 2024-cü il dekabrın 13-də Parisdə, UNESCO-nun mənzil-qərargahında "Dünyanın leksikoqrafiyada xəritələşdirməsi: Divanü lüğat-it-türk" əsərinin 950 illik yubileyi" adlı beynəlxalq konfrans və sərgi təşkil olunub.

***XQ***

# "Bəhruz Kəngərli işığında"

**Professional rəngkarlığımızın unudulmaz nümayəndəsi Bəhruz Kəngərlinin Xatirə Muzeyində rəssamın anım gününə həsr olunmuş anım mərasimi keçirilib.**

Muzeyin direktoru S.Əlincəli Bəhruz Kəngərlinin yaradıcılığından bəhs edib. O qeyd edib ki, milli rəssamlığımızın inkişafında özünəməxsus rol oynayan, Azərbaycanın təsviri sənətinə milli ruh gətirən, ilk realist fırça ustası Bəhruz Kəngərli 1922-ci il fevral ayının 7-də 30 yaşında dünyaya vida edib. Dünyadan nakam getmiş rəssam özündən sonra xalqına dəyərli irs qoyub.

Həyatdan vaxtsız getmiş böyük sənətkarın yaradıcılığı ədəbiyyat və incəsənət nümayəndələrinin diqqətini cəlb etmiş, görkəmli rəssam haqqında şeirlər, nəsr və dram əsərləri yazılmışdır. Naxçıvana həsr olunmuş poetik nümunələrin bir çoxunda Bəhruz Kəngərlinin adı çəkilir, rəssamdan iftixarla bəhs edilir. Bəhruz Kəngərli portret və mənzərə janrında, tarixi mövzuda yaratdığı ölməz əsərləri ilə Azərbaycan xalqının qəlbində daim yaşayacaqdır.



Sonra naxçıvanlı şairlərin çıxışları dinlənilib. Tədbirdə Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar, Azərbaycan Yazıçılar Birliyinin üzvləri Elxan Yurdoğlu, Təranə Arifqızı, Sona Amal, Əzizə Həsənova, Rahilə Nuriyeva, Rəqsanə Tapdıqqızı, şairlər Dilbər Şahbuzlu, Süsən Əliqızı Bəhruz Kəngərliyə həsr olunmuş şeirlərini səsləndiriblər.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# ABŞ büdcə bədxərcliyinə son qoyur

*Dünyanın superzəngin ölkəsi təhlükəsizlik qüvvələrini də ixtisara salır*




**Donald Tramp administrasiyasının dövlət xərclərini kəskin azaltmaq proqramı kəşfiyyat orqanlarından yan keçməyib. Amerika KİV-in məlumatına görə, Mərkəzi Kəşfiyyat İdarəsi (MKİ), Federal Təhqiqat Bürosu (FTB), Milli Təhlükəsizlik Agentliyi (MTA) və bir sıra digər qurumların əməkdaşları könüllü olaraq istefaya getməyi və daha 8 ay maaşlarını almağı təklif edən məktublar alıblar. Məqsəd hökumət aparatını 10 faiz azaltmaq və bunun sayəsində İlon Maskın qarşıya qoyduğu məqsədə yaxınlaşmaqdır. Yeni Hökumətin Effektivliyi Departamentinə rəhbərlik edən iş adamı 2026-cı maliyyə ilinə qədər 2 trilyon dollarlıq federal kəsiri yarıya endirmək istəyir.**

Dövlət qulluqçularının könüllü ixtisar proqramının təkcə mülki idarələrə təsir etmədiyi barədə ilk xəbər yayan qəzet "The Street Journal" oldu. Qəzetin məlumatına görə, ABŞ-ın Kadrların İdarəetmə Xidməti bir çox MKİ əməkdaşına 8 aylıq əmək haqqı və bəzi əlavə bonuslar müqabilində işdən çıxmağı təklif edən məktublar göndərib. Bundan əlavə, artıq işə dəvət almış işçilərin işə götürülməsi proseduru da dayandırılıb.

CNN-in məlumatına görə, MKİ-nin yeni direktoru Con Ratkliff agentliyin könüllü ayrılma proqramına daxil edilməsi qərarını şəxsən qəbul edib. Əvvəllər Con Ratkliff idarəni səmərəsizliyinə və qərəzliliyinə görə çox tənqid edirdi: "MKİ-nin təhlili və prioritetləri siyasiləşdirilib. Analitik hesabatlar Baydenin siyasət prioritetləri ilə olduqca uyğun idi. Yanvar ayında Konqresdə keçirilən dinləmələrdə cənab Ratkliff bildirib ki, MKİ dəfələrlə prezident Baydenin hərəkətlərini və ya çox vaxt onun hərəkətsizliyini əsaslandıran qeyri-dəqiq təhlillər təqdim edib. Cənab Ratkliff vurğulayıb ki, yeni dövrdə MKİ Rusiya, Çin, İran, Şimali Koreyanın hərəkətlərinə, onlar arasında artan koordinasiyaya və ABŞ-Meksika sərhədindəki vəziyyətə xüsusi diqqət yetirməklə, "dünyanın hər yerində" kəşfiyyat imkanlarını genişləndirəcək.

"The Wall Street Journal"ın ardınca "Politico" da xəbər verib ki, bir sıra digər qurumların əməkdaşları, o cümlədən FTB, Pentaqon Kəşfiyyat İdarəsi, Milli Geoməkan-Kəşfiyyat Agentliyi, Milli Kəşfiyyat İdarəsi, Milli Təhlükəsizlik Agentliyi və Milli Kəşfiyyat Direktorunun Ofisi istefa vermək təklifi alıb. Nəşrin öz mənbəsinə istinadən verdiyi məlumata görə, kütləvi poçt göndərişləri kəşfiyyat ictimaiyyətində çaşqınlıq yaradıb və nəticədə ixtisar proqramı "kadrlar və əməliyyat işləri baxımından görünməmiş xaosa" səbəb ola bilər.

Fevralın 4-də "Bloomberg" agentliyi ABŞ federal hökumətinin 20 mindən çox əməkdaşının istefaya razı olduğunu bildirib ki, bu da mülki hökumət işçilərinin 1 faizdən azını təşkil edir (ölkədə dövlət qulluğu işçilərinin sayı təqribən 2,3 milyon nəfərdir). Fevralın 6-na keçən gecə "The Washington Post"un müxbiri Emili Devis X sosial şəbəkəsində bildirib ki, onun məlumatlarına görə, 40 mindən çox əməkdaş bu təklifi qəbul edib. Yekun nəticələr hələ hesablanmayıb, lakin aydındır ki, bu proqram çərçivəsində dövlət qulluqçularının təxminən 10 faizinin işdən çıxarılması kimi əvvəllər qarşıya qoyulan məqsədə nail olunmayıb.

İstefa məktublarının göndərilməsi, məsələn, Amerikanın xarici yardım proqramlarının dondurulması və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) tamamilə yenidən formatlaşdırılması da daxil olmaqla, hökumət xərclərinin azaldılması üzrə genişmiqyaslı təşəbbüsün bir hissəsidir. Məqsədləri əvvəllər Donald Trampın müttəfiqi, Hökumətin Effektivliyi Departamentinin (DOGE) rəhbəri İlon Mask açıqlayıb. Onun sözlərinə görə, 2026-cı maliyyə ilinə (2025-ci il oktyabrın 1-dən başlayır) büdcə kəsirini yarıya qədər azaltmaq, 1 trilyon dollara çatdırmaq lazımdır. İş adamının fikrincə, belə iddialı iş prezident, Konqres və məhkəmə sistemindən "güclü dəstək" tələb edəcək.

***S.ELAY***
***XQ***

# Qarabağın bərəkət ünvanı

*Ağcabədi ölkənin taxılçılıq məktəbinə çevrilib*



**Ölkəmizdə ərzaq təhlükəsizliyinin daxili istehsal hesabına təmin olunması məqsədilə son illərdə genişmiqyaslı tədbirlər həyata keçirilir.**

Etibarlı ərzaq təminatında dənli və texniki bitkilərin yetişdirilməsi və tədarükü strateji əhəmiyyət daşıyır.

Belə ki, taxılçılıq əhalinin əsas ərzaq məhsulu sayılan çörəyə və digər un məmulatlarına tələbatını ödəməklə yanaşı, eyni zamanda, quşçuluq və maldarlıq üçün də yem bazası rolunu oynayır. Ona görə də Azərbaycan dövləti tərəfindən regionlarda bu sahənin inkişafı məqsədilə zəruri tədbirlər görülür, mühüm qərarlar qəbul edilir.

Təsərrüfatlarda məhsuldarlığın artırılmasında müasir metodların tətbiqi, yeni suvarma üsullarından geniş istifadə olunması, aqrotexniki qaydalara əməl edilməsi və bu qəbildən olan digər tədbirlər də vacib rol oynayır. Regionlarda taxılçılıq təsərrüfatlarında həyata keçirilən belə tədbirlərin nəticəsidir ki, son illərdə taxıl istehsalında davamlı olaraq artım müşahidə edilir.

Dənli və texniki bitkilərin əkini üçün barlı-bərəkətli torpaqlara malik Ağcabədi rayonunda da taxılçılığın inkişafı daim diqqətdə saxlanılır. Rayon rəhbərliyinin xüsusi yanaşması sayəsində yola saldığımız təsərrüfat ili bu strateji sahədə yeni uğurların əldə edilməsi ilə nəticələnib. Ağcabədi Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru Abbas Süleymanovun "Xalq qəzeti"nin Qarabağ bürosuna verdiyi məlumata görə, rayonda 2023–2024-cü təsərrüfat ili üçün taxıl biçini yüksək məhsuldarlıqla yekunlaşıb.

Hesabat dövründə taxıl səpini aparılmış 19 min 997 hektar buğda sahəsindən 95 min 245 ton, 12 min 664 hektar arpa sahəsindən isə 49 min 641 ton məhsul əldə edilib. Buğda sahələrində hər hektar üçün orta məhsuldarlıq 47,6 sentnerə, arpa sahələrində isə 39,2 sentnerə çatıb. Ümumilikdə, ötən il Ağcabədi rayonu üzrə 32 min 662 hektar sahədən 144 min 860 ton məhsul əldə edilib, hər hektar üzrə orta məhsuldarlıq isə 44, 4 sentner olub.

Müqayisə üçün bildirək ki, bundan əvvəlki, yəni 2022–2023-cü ildə rayonda 19 min 514 hektar sahədə buğda əkilmiş və 74 min 211 ton məhsul yığılmış, yəni hər hektardan 47,5 sentner məhsul əldə edilmişdi.

Həmin dövrdə biçin aparılmış 26 min 664 hektar sahədən 120 min 714 ton məhsul toplanılmışdı.

Ağcabədililər yeni təsərrüfat ilinə də böyük ruh yüksəkliyi ilə hazırlaşırlar. Payızlıq əkin işlərinə vaxtında yekun vurulub. Ötən illə müqayisədə daha artıq sahədə buğda və arpa əkini həyata keçirilib, rayon üzrə 2024–2025-ci təsərrüfat ili üçün 20 min 353 hektar buğda və 13 min 266 hektar arpa olmaqla, 33 min 620 hektar sahədə taxıl səpini aparılıb. Bunun 23 min 716 hektarı suvarılan, 9 min 904 hektarı isə dəmyə torpaqlardır.

"Torpaq deyir öldür məni, dirildim səni". Bu atalarımızın qənaətidir. Bu gün Ağcabədi rayonunda bol məhsul əldə etmək, ölkəmizin ərzaq təhlükəsizliyinə töhfə vermək üçün torpaq sevgi ilə, zəhmətlə becərilir. Babalarımızın "öldür" dedikləri isə, əslində torpağı diriltmək, ona tər qatmaqdır.

Hər kəs yaxşı dərk edir ki, bu gün çəkilən zəhmətin, torpağa atılan toxumların, ona göstərilən qayğının mükafatı bol çörəkdir. Bol çörək isə böyük Səməd Vurğunun dediyi kimi, basılmaz Vətən deməkdir.

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri,***
**Ağcabədi**

# Orta əməkhaqqı 5 ildə 40 faiz artıb

**Dövlət Statistika Komitəsindən verilən məlumata görə, ötən il Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 1009,2 manat (əvvəlki illə müqayisədə 75,4 manat və ya 8,1 faiz, son 5 ilin göstəriciləri ilə müqayisədə isə 301,9 manat, yaxud da 42,7 faiz çox) olub.**

2023-cü ildə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 933,8 manat, 2020-ci ildə 707,3 manat, 2021-ci ildə 732,1 manat, 2022-ci ildə isə 839,4 manat təşkil edib.

Ötən il iqtisadiyyatın mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə, elmi və texniki fəaliyyət, eləcə də informasiya və rabitə sahələrində orta aylıq nominal əməkhaqqı daha yüksək olub.

Xatırladaq ki, cari ilin yanvarın 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı ilkin məlumatlara əsasən 1,7 milyon nəfər olub, onlardan 882,8 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 895,7 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərib.



**Sosial dəstək**

**Hər birimiz övladlarımızın, ilk növbədə, sağlam olması üçün əlimizdən gələni edirik. Ancaq acı həqiqət budur ki, hər uşaq da sağlam doğulmur. Autizm, serebral iflic, əqli gerilik və digər qüsurlar səbəbindən sağlamlıqları məhdud olan uşaqlar xüsusi qayğıya ehtiyac duyurlar.**

# "Yurdum" mərhəmət və şəfqət adasıdır

*Burada xüsusi qayğıya ehtiyacı olan uşaqlar nicat tapırlar*

Bir gün belə uşaqlardan bir qrupu ilə yenə görüşdük. "Yurdum" inklüziv icmasında uşaqlar bizi elə qapının ağzındaca mehribanlıqla qarşıladılar. Hamının nəvazişlə Gülü deyə çağırdığı Gülsarə İsrafilova əlimizdən yapışıb bizi icmanın yerləşdiyi mərkəzin 2-ci mərtəbəsinə az qala qaçaraq apardı. Dəmə yoqa dərslərinə hazırlaşıblarmış. Uşaqlar dördbucağlı döşəklərin üzərində tez bir zamanda yerlərini rahatlayıb məşqçilərini gözləyirlər. Dərsləri 20 illik yoqa təcrübəsi olan təlim üzrə koordinator Teymur Hüseynov aparır. Uşaqların yoqanın müxtəlif elementlərini necə yüngül şəkildə icra etmələri xüsusilə xoş təsir bağışlayır. Daha sakit və daha az fiziki güc tələb edən hərəkətlərin təsiri altında daxillərindəki enerji sanki oyanır.



Yoqa məşqlərindən sonra icma üzvlərindən biri, gənc qız Lalə Ağayeva təəssüratlarını bizimlə bölüşdü. Elə döşək



üzərindəcə xoşladığı yoqa elementlərini nümayiş etdirdi. Qeyd etdi ki, sevə-sevə yerinə yetirdiyi bu hərəkətlərdən sonra özünü rahat hiss edir.

Dərslərdə fəallığı ilə seçilən 22 yaşlı Səid Qəniyevlə də həmsöhbət olduq. Tez qaynayıb-qarışan bu oğlan yoqaya sevgisinin hədsiz olduğunu dilə gətirdi. Dedi ki, evdə də bu hərəkətləri edir.

"Yurdum" layihəsinin həmmüəllifi Vəfa Xəlilova qrup halında keçirilən yoqa dərslərində əsas məqsədin bədən və zehnin harmoniyasını təmin etmək, rahatlamaq və enerjini balanslaşdırmaq olduğunu dedi. O eyni zamanda, icma üzvləri üçün şam hazırlama dərslərinin təşkil edildiyini vurğuladı: "Mərkəzdə icma üzvləri üçün xüsusi şam hazırlama dərsləri təşkil olunur. Bu fəaliyyət, sadəcə, əyləncə və yaradıcılıqdan ibarət deyil, həm də meditativ bir prosesdir və diqqət cəmləməyə kömək edir. Şam dərsləri bir sənətkarlıq məşğuliyyəti deyil, həmçinin psixoloji, emosional və sosial rifahı dəstəkləyən güclü bir terapiya vasitəsidir.

Böyük məmnuniyyətlə uşaqların növbəti dərsində iştirak etdik. Şam hazırlamaq üçün stolun ətrafında dövrə vuraraq əyləşən icma üzvləri böyük həvəs və maraqla işə başlayırlar. Öyrənirik ki, şamların hazırlanmasında istifadə edilən ətirlər, seçilən rənglər hamısı terapevtik xüsusiyyət daşıyır, rahatlıq gətirir. Dərsi aparan Röya Rəsulzadə mehribanlıqla hamıya şamların hazırlanması qaydasını göstərir. Lalə Ağayeva, Gülsarə İsrafilova, Şövqü Əhmədov, Fərid Ociyev və başqaları oradaca hazırladıqları paxlava, gül, ürək şəkilli şamları böyük maraqla nümayiş etdirirlər.

**Həmsöhbət olduğumuz "Yurdum" layihəsinin həmmüəllifi Zarema Yaqizarova icmada xüsusi xoş atmosferin yaradılmasının çox önəmli olduğunu dedi:**

– "Yurdum" icması gördüyünüz bu evdə yerləşir. Bura yalnız gündəlik fəaliyyətlərin keçirildiyi bir yer deyil, eyni zamanda hər kəsin özünü dəyərli, qəbul edilmiş və rahat hiss etdiyi, həyatın ahəngini duyduğu bir məkandır. Əsas məqsəd, ev kimi isti və rahat bir mühit formalaşdırmaqdır. Yaradılan atmosfer hər bir insanın özünü rahat və dəyərli hiss etməsinə yönəlib.

**Zarema xanım icma üzvlərindən Şamxalın plastilinlə işləməsinə diqqətimizi yönədir:**

Şamxal plastilini əlində top şəklində yumrulayır və bu zaman əlinin və plastilinin istiliyinin dəyişdiyini hiss edir. Gördüyümüz fəaliyyətlər də hər bir icma üzvünün daxili istiliyini artırır, onların ətrafa, bir-birlərinə münasibətini dəyişir.

Şam dərslərindən sonra uşaqlar bizi mətbəxə, günün əvvəlində öz əlləri ilə hazırladıqları müxtəlif növ şirniyyatlara da qonaq edirlər. Çay süfrəsi arxasında kökə və peçenyelərin hazırlanması qaydasını az qala xorla izah edirlər.

Çay süfrəsində gənc qız Nərgiz Mürsəliyeva ilə söhbətləşirik. O, rəqs dərsləri ilə bağlı bizə məlumat verir. Öyrənirik ki, bu məlumat heç də təsadüfi deyilmiş. Günün sonunda uşaqları rəqs dərsləri gözləyir. Artıq Teymur müəllim piano qarşısında şagirdlərini gözləyir. Onlar əvvəl "Yallı" gedir, sonra "Uzundərə"nin sədaları altında süzürlər. Rəqs, icma üzvlərinin öz hisslərini ifadə etməsi və birlikdə əylənməsi üçün vacib bir fəaliyyət növüdür. Rəqs və musiqi – bizim ifadə dilimizdir. Bütün duyğular burada azad olur. Musiqi ilə bədənin ritmini anlamaq və hərəkətlərə uyğunlaşmaq özünü ifadə etməyə kömək edir və özünənamı artırır.

Bütün gün ərzində vaxtlarını səmərəli keçirən, öz bacarıqlarını göstərən uşaqlar rəqslərindən sonra bir qədər yorğun görünürlər. Onlar artıq evə tələsirlər. Evdə isə günü necə keçirdikləri ilə bağlı maraqlı təəssüratlarını ailə üzvləri ilə bölüşəcəklər.

Mərkəzin rəhbəri "Humayun" Qeyri-Hökumət Təşkilatının sədri Firəngiz Hüseynova 1 ildən artıq fəaliyyət göstərən "Yurdum"un müxtəlif qabiliyyətlərə malik insanların birlikdə çalışdıqları inklüziv bir icma olduğunu bildirdi. O, "Humayun" QHT tərəfindən həyata keçirilən sosial ekokənd layihəsi çərçivəsində burada icma üzvlərinin müxtəlif fəaliyyətlərdə iştirak etdiklərini və fərqli bacarıqlar qazandıqlarını vurğuladı. Qeyd etdi ki, buradakı fəaliyyətlər hər kəsin fiziki, emosional və sosial rifahını gücləndirmək məqsədi daşıyır.

**Firəngiz xanım uşaqların rəqs, yoqa, şam dərsləri ilə yanaşı, rəsm dərnəyinə böyük marağından da danışdı:**

– Azərbaycanda İkinci Qarabağ müharibəsində şəhid olan əsgərlərin xatirəsinin rəmzi olaraq qəbul edilən Xarı bülbül, eləcə də qədim irsimiz olan muğama həsr etdiyim rəsmləri, digər bu kimi tabloları uşaqlara təqdim etməklə, həm onları məlumatlandırırıq, həm də Vətənimizə, xalqımıza, rəmzlərimizə məhəbbət ruhunda tərbiyə edirik. Çalışıram ki, uşaqlar rənglərdə olan çalarlarla yaxından tanış olsunlar, onu duysunlar. Sevinirik ki, bunlara nail olmuşuq. Artıq sərgiyə hazırlaşırıq.

Bu uşaqlara müxtəlif bacarıqlar aşılamaq, doğrudan da, böyük peşəkarlıq, səbir və məharət tələb edir. Onlar burada, həm həyat üçün vacib olan bacarıq və vərdişlər əldə edir, həm vaxtlarını səmərəli keçirir, həm də sosiallaşırlar.

"Xüsusi" qızlar və oğlanlar da adi uşaqlar kimi xoşbəxt gələcək arzusundadırlar. Ailə, ev, dostluq və sevgi kimi sadə, amma vacib dəyərlər onlar üçün böyük önəm daşıyır. Onlar bu xoşbəxtliyi "Yurdum"da tapıblar.

***Leyla QURBANOVA,***
***Cavid QAÇAYEV (foto)***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 29 (30723) 9 fevral 2025-ci il, bazar

# Lerikdə görünməmiş qar....

## Ağ örtüyün hündürlüyü bəzi yerlərdə 1 metrə çatır







**Fevralın 6-dan başlayaraq Lerik rayonu ərazisinə yağan güclü qar fevralın 8-i günorta saatlarınadək davam edib. Nəticədə, Lerik şəhəri və ətraf yaşayış məntəqələrində qarın hündürlüyü 50-60 santimetr, yüksək dağlıq ərazilərdə isə 80-90, bəzi kəndlərdə hətta 100 santimetrə çatmışdır.**

Məlumatı redaksiyamıza telefonla əlaqə saxladığımız Lerik Rayon İcra Hakimiyyətinin ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Əlipənah Bayramov verib.

O əlavə edib ki, son illər rayonda belə yağıntı çox nadir hallarda müşahidə edilib. Aramsız yağan güclü qar nəticəsində Çayrud, Rvarud, Veri, Tikəband, Coni, Orand, Nurəvud və sair yaşayış məntəqələri ilə rayon mərkəzi arasında əlaqə kəsilib. Lakin elə ilk gündən Lerik Rayon İcra Hakimiyyətinin başçısı Əkbər Abbasovun göstərişi ilə yaradılmış xüsusi mexanikləşdirilmiş briqadalar dərhal hərəkətə keçərək tədbirlər görməyə başlayıblar. Əksər kəndlərlə rayon mərkəzi arasında əlaqə bərpa olunub. Bununla yanaşı, şəhərdaxili yollar qardan təmizlənib və əhalinin sərbəst və təhlükəsiz hərəkəti təmin olunub.

Yağan qar əsasən rayonun yüksək dağlıq ərazilərində yerləşən yaşayış məntəqələrində problemlər yaradır. Bir çox kəndlərdə elektrik enerjisinin verilişində fasilələr yaranıb. Lakin “Azərişıq” QSC rəhbərliyinin tapşırığına əsasən, qurumun Cəlilabad, Lənkəran, Masallı rayonlarından cəlb edilmiş xüsusi mexaniki briqadaların dəstəyi ilə görülmüş işlər nəticəsində əhalinin elektrik enerjisi ilə təminatında yaranan problemlər tədricən aradan qaldırılır.

Bir çox kəndlərin enerji təminatının yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilir. Lerik şəhərinin özündə əhalinin su, ərzaq, enerji daşıyıcıları və digər zəruri təminatında problem müşahidə olunmur.

Müsahibimiz sonda onu da əlavə etdi ki, hazırda rayon ərazisində qarlı hava şəraiti davam etməkdədir.

**P.S. Lerikin qar mənzərələrini bizə Seyran İsmayılov göndərib.**

***İ.RÜSTƏMOV***
***XQ***

## İdman

### Şəhriyar Məmmədyarov yarımfinalda



**Şahmat üzrə Azərbaycan çempionatında mübarizə getdikcə gərginləşir.**

Dörddəbir finalda mübarizə aparan kişi şahmatçılarımızdan Şəhriyar Məmmədyarov Məhəmməd Muradlını, Misrətdin İsgəndərov Aydın Süleymanlını məğlub edərək yarımfinala adlayıblar. Teymur Rəcəbov Vüqar Əsədli, Rauf Məmmədov Əhməd Əhmədzadə ilə heç-heçə etdiklərindən qalib tay-brekdə bəlli olacaq.

Qadınların yarışında isə Ülviyyə Fətəliyeva Zeynəb Məmmədyarovaya qalib gələrək növbəti mərhələyə vəsiqə qazanıb. Digər iştirakçılar Günay Məmmədzadə Səbinə İbrahimova, Türkan Məmmədyarova Gövhər Beydullayeva, Gülnar Məmmədova isə Xanım Balacayeva ilə bərabər nəticə qazandıqlarından tay-brekdə mübarizə aparacaqlar.

### Zaqrebdə 9 medal

**Xorvatiyanın paytaxtı Zaqrebdə reytinq turniri davam edir.**



Əvvəlcə sərbəst güləşçilər mübarizə apardılar. Onlardan Kənan Heybətov (70 kq) bütün rəqiblərini məğlub edərək qızıl medal qazanıb. İslam Bazarqanov (57 kq), Arseniy Djioyev (86 kq), Osman Nurmaqomedov (92 kq) gümüş medala layiq görülüblər. 92 kiloqram çəki dərəcəsində digər təmsilçimiz Abubakr Abakarov isə bürünc medal əldə edib. Komandamızın digər üzvləri Nürəddin Novruzov (61 kq) və Əli Rəhimzadə (65 kq) də turnirdə 3-cü yeri tutublar.

Qadın güləşi üzrə ən böyük nailiyyəti 59 kiloqram çəkidə mübarizə aparan Günay Qurbanova qazanıb. O, fəxri kürsünün ən yüksək pilləsində yer alıb. Onun komanda yoldaşı Alyona Kolesnik gümüş medala layiq görülüb.

### FİFA futbolçumuzu dəstəkləyib

**Azərbaycan millisinin futbolçusu Bəxtiyar Həsənalızadənin Türkiyənin “Tuzlaspor” klubuna qarşı məhkəmə işi uğurla yekunlaşıb.**




Bu barədə oyunçunun hüquqlarını müdafiə edən vəkil Elcan Həsənli sosial şəbəkə hesabında paylaşım edib.

Onun sözlərinə görə, FIFA-nın Mübahisələrin Həlli Palatasının qərarına əsasən, B.Həsənalızadəyə klub tərəfindən təzminat ödənilib.

***L.AZAD***
***XQ***

# Astanada ümumtürk konserti



**Astanada E.Rəhmədiyev adına Dövlət Akademik Filarmoniyasında Türk Mədəniyyəti və İrsi Fondu “TAMYR” adlı konsert keçirilib. Türk xalqlarının zəngin musiqi irsini nümayiş etdirən şənlik Fondun II Şura Toplantısı çərçivəsində təşkil olunub.**

Səhnədə “Turan” Folklor-Etnoqrafik Ansamblı, “Gulder” Ansamblı, “Saltanat” Dövlət Rəqs Ansamblı və K.Kuanışbayev adına Qazax Milli Musiqili və Dram Teatrının və E.Rəhmədiyev adına Dövlət Akademik Filarmoniyasının kollektivi çıxış ediblər.

“TAMYR” konsertinin məqsədi türk xalqlarının ortaq mədəni kimliyini musiqi və rəqs vasitəsilə qeyd etmək, tamaşaçılara Türk dünyasının zəngin bədii irsinə nəzər salmasına imkan yaratmaqdır. Bu tədbir türk dövlətləri arasında mədəni əməkdaşlığı gücləndirməklə yanaşı, onların sənət ənənələrinin beynəlxalq arenada təbliğinə töhfə verir.

***FİDAN***
***XQ***

**Milli Hidrometeorologiya Xidmətindən mətbuata verilən xəbərə görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin arabir yağıntılı olacağı, bəzi yerlərdə sulu qar, qar yağacağı gözlənilir. Gündüz tədricən kəsiləcək. Arabir güclənən şimal-qərb küləyi gündüz tədricən mülayimləşəcək.**

## Dağların qarı gözəl…

*Onu Bakı da gözləyir*



Havanın temperaturu gecə 1° şaxtadan 1°-dək isti, gündüz 1-3° isti olacaq. Atmosfer təzyiqi 772 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət 65-75 faiz olacaq.



Azərbaycanın rayonlarında havanın bəzi yerlərdə arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Yağıntı axşama doğru tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 2° şaxtadan 3°-dək isti, gündüz 3-7° isti, dağlarda gecə 8-13° şaxta, yüksək dağlıq ərazilərdə 15-20° şaxta, gündüz 3-8° şaxta olacaq.

Gecə və səhər bəzi dağlıq rayonlarda yolların buz bağlama ehtimalı var.

***Q.QASIMOV***
***XQ***

## Kardioloji pəhriz

# Sağlam ürək – nə yeməyək?

**Qeyri-sağlam vərdişlər – siqaret çəkmək və oturaq həyat tərzi ürəyə zərər verir. Kardioloqların sağlamlığa təsir edən və heç vaxt məsləhət bilmədikləri qidaları yada salırıq.**

**Qaraciyər və paşteti.** Stenford Universitetinin kardioloqu Dr. Eleanor Levin: “Mən uşaqlıqda bəzən qaraciyər pastası yemişəm, amma həkim olandan bəri heç vaxt istifadə etməmişəm. Ümumiyyətlə, qırmızı ətdən qaçmağa çalışıram, çünki onun tərkibində doymuş yağlar və trans yağlar çoxdur. Trans yağlar ürək-damar sistemlərinə məlum zərərləri ilə yanaşı, osteoporoz riskini də artırır. Qaraciyər qırmızı ətin, xüsusilə, zərərli növüdür, çünki həmin orqan toksinləri süzmək üçün nəzərdə tutulub və bu toksinlərin bəziləri yediyimiz ətə daxil olur.

**Kolbasa, sosis.** Minneapolis kardioloqu Dr.Elizabet Klodas: “Hot-doqlar yüksək miqdarda natriumla zəngindir, bu da qan təzyiqini yüksəldə bilər. Onlar, həmçinin “pis” xolesterol səviyyəsini artıran doymuş yağda yüksəkdir. Bir neçə il bundan əvvəl ÜST bütün emal olunmuş ət məhsullarını kanserogenlər kimi təsnif edib.

**Marqarin.** Nyu-York şəhərinin baş kardioloqu Dr. Harmoni: “Araşdırmaların göstərdiyi kimi gündə, hətta bir çay qaşığı marqarinin müntəzəm istifadəsi müxtəlif xəstəliklərdən ölüm riskini 6 faiz artıra bilər. Digər tərəfdən, zeytun yağının müntəzəm istifadəsi, əksinə, ölüm hallarını 4 faiz azaldır. Buna görə xəstələrimə yalnız zeytun yağını tövsiyə edirəm hətta, omlet və tost üçün”.

**Qızardılmış ət, kabablar.** Bostondakı xəstəxananın



baş kardioloqu Dr. Leonard Lilli: “Mən yağlı qırmızı ətlərdən, o cümlədən bifşteksdən çəkinməyə çalışıram. Çoxsaylı araşdırmalar göstərir ki, belə ətdə çox miqdarda olan doymuş yağlar ürək-damar xəstəliklərinin, xərçəngin və diabetin inkişaf riskini artırır. Demək olar ki, heç vaxt çox qızardılan və yağ tərkibli nagets yemirəm”.

***Z.HÜSEYNLİ***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3074
SİFARİŞ 243
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Vaqif BAYRAMOV

Çapa imzalanmışdır 00:00